AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Jurnal 1970-ci ildən çap olunur.

2011, № 2 (196)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

(Elmi - metodik jurnal)

2

2011

**Redaksiya heyyəti:**
Baş redaktor: **prof.Y.Ş.Kərimov**

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri* |
| **Arif Muradov** | *Azərbaycan Respublikası Təhsil Muzeyinin direktor müavini* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər təhsil sektorunun müdiri* |
| **Asəf Zamanov** | *Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun direktoru, fiziki-riyaziyyat elmləri doktoru, professor* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, fiologiya elmləri doktoru,professor* |
| **Vaqif Əmraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun məktəbəqədər və ibtidai təhsil şöbəsinin müdiri, pedaqoji elmlər doktoru,professor* |
| **Ramiz Əliyev** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun psixologiya və yaş fiziologiyası şöbəsinin müdiri, psixologiya elmləri doktoru, professor* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Müəllimlər İnstitutunun ibtidai təhsilin metodikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, professor* |
| **AzadxanAdıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqoji elmlər doktoru, professor* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent* |
| **Zemfira Əsədova** | *Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini* |
| **Bibixanım İbadova** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun ibtidai təhsil kurrikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru* |
| **Könül Həsənova** | *Nəsimi rayonu, 111 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi* |
| **Xalidə Talıbova** (məhsul katib) | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru.* |


Yığılmağa verilmiş 15.05.2011. Çapa imzalanmış 15.06.2011.
Kağız formatı 70x100 1/16. Şərti çap vərəqi 7.
Sifariş№ 05. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 40.
Tel. 493-84-41, mob. (050) 370-60-11.

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov , 113.

# BU NÖMRƏDƏ


**Kərimov Y.** Təlim yükü normal olmalıdır....................4

## *Yeni pedaqoji texnologiyalar*

**Rəhimova M.** Məktəbəqədər təhsil müəssisələrində interaktiv təlim metodlarından istifadə....................9

**Hümbətova F.** İnkişafetdirici təlimin təşkili təcrübəsindən....................15

## *Məktəbəqədər təhsil*

**Alnağıyeva N.** Məktəbəqədər təhsil müəssisəsində uşağın müşayiət dəftəri....................20

**Şirzadova M.** Məktəbəqədər yaşlı uşaqlarda təbiətə məhəbbət tərbiyəsi....................23

**Adışirinova A.** Məktəbəqədər müəssisədə ətraf aləmlə tanışlıq üzrə işin sistemi.....31

**Rəsulzadə O.** Uşaqların hərtərəfli inkişafında oyunun rolu....................38

**Məmmədova Ş.** Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi....................43

## *Fənlərin tədrisi və qabaqcıl təcrübə*

**Sadıqova M.** Oxu dərslərində interaktiv metodlardan istifadə etməklə şagirdlərin müstəqil işlərinin təşkili....................47

**Соболева Т.** Развитие творческих способностей младших школьников на уроках русского языка....................54

**Həsənova Ş.** İnteraktiv təlim və yüksək keyfiyyət....................60

**Tağıyeva G.** I sinifdə riyaziyyatdan həndəsi fiqurların qruplaşdırılması....................62

**Kərimova A.** II sinifdə həndəsi fiqurlarla işin təşkili....................67

## *Psixologiya və defektologiya məsələləri*

**Əliyev R.** Pedologiya elminin ləğv olunmasının sosial-psixoloji təhlili....................74

**Kərimova E.** Məktəbəqədər xüsusi təhsil müəssisələrinin inkişafetdirici və korreksiyaedici proqramlarında sağlamlıq bölməsinin vacibliyi....................83

**Əhmədova A.** Xüsusi qayğıya ehtiyacı olan uşaqlar və inklüziv təhsil....................91

**Rzayeva L.** Ekoloji tərbiyə üzrə işin təşkilinə verilən tələblər....................93

**Пулатова З.** Условия и пути обеспечения дисциплины на уроках....................96

## *Təhsilin idarə olunması*

**Rzayeva S.** Təhsili idarəetmənin perspektivləri....................100

## *Bizim iş yoldaşlarımız*

**Sadıqov Ə.** Zəhmətlə yoğrulmuş ömür....................104

## *Sizin kitab rəfiniz*

**Məmmədova K.** Elmi-metodik nəşrlər....................106

Uşaq yazıçısı Gülzar İbrahimova....................107

## *Tənqid və bibliografiya*

Yay tapşırığı....................108

# TƏLİM YÜKÜ NORMAL OLMALIDIR

Sinif müəllimləri, şagirdlər və valideynlərlə müsahibələr belə qənaətə gəlməyə əsas verir ki, bu gün təlimdə yüklənmə hallarına yol verilir. Buna səbəb bir tərəfdən proqramdakı xətalar və dərsliklərin nöqsanlı olması, digər tərəfdən təlim prosesinin düzgün təşkil olunmamasıdır.

Problemin belə qoyuluşu əldə olunan yaxşı nəticələri inkar etməyə əsas vermir. Pedaqoji – psixoloji cəhətdən hazırlıqlı, təlimdə müasirliyi dərk edən, daim axtarışda olan yüzlərlə müəllim proqram və dərslikdəki nöqsanları vaxtında müəyyənləşdirərək materialı yüksək səviyyədə mənimsədə bilir. K.D. Uşinski əbəs yerə deməmişdi ki, heç bir tədris planı, proqram və dərslik müəllimi əvəz edə bilməz.

Bununla belə, elm və texnikanın inkişafı, informasiya bolluğu təlimə sosial sifarişin onun məzmununa güclü təsir göstərməsinə yol verilməməlidir. Təlim prosesinin təşkili bütün şagirdlərin, müəllimlərin hazırlığına, istəyinə uyğun olmalıdır. Təlim prosesi gənc nəslin həyatını maraqlı etməli, onun gümrah, şən yaşamasına şərait yaratmalıdır.

Cəmiyyətimizdə bir nömrəli məsələ insanın sağlamlığının təmin edilməsidir. Uşaqların sağlamlığının pozulması hesabına verilən biliklər heç bir əhəmiyyət kəsb edə bilməz. I sinfə qədəm basan altıyaşlılar mütləq həkim müayinəsindən keçirilməli, yorulma, əsəbilik halları varsa, səbəbləri araşdırılmalıdır. Payızda, qışda və yazda dərs ilinin əvvəlində, ortasında və axırında, dərs gününün əvvəlində və axırında, dərsin başlanğıcında və axırında iş qabiliyyəti öyrənilməlidir.

Dərs cədvəlində fənlərin ardıcıllığı, müəllimin səviyyəsi, mənzil şəraiti, ailənin tərkibi, şagirdin neçənci uşaq olması, ailə əməyində onun iştirakı, kimlərlə yoldaşlıq etməsi, diqqətin yayınmasına təsir göstərən amillər (səs-küy, yaşlıların söhbəti, televizor, maqnitofon, kompyuter, oyun və s.), ev tapşırığını nə vaxt yerinə yetirməsi dərsdən sonra məktəbdə (məktəbdən qayıdan kimi, yatmaqdan əvvəl,) və s. nəzərə alınmalı, hər il iki dəfə xronometraj çıxarılmalıdır.

***Təlimin yükü nədir***? Təlim yükü dedikdə, hər hansı yaş dövründə şagirdlərin mənimsəyə biləcəkləri bilik, bacarıq və vərdişlərin həcmi nəzərdə tutulur.

***Bəs yüklənmə nədir?*** Təlim yükünün çətinlik dərəcəsini necə müəyyənləşdirmək olar? Bu şkalanın əsasına nə qoyulur? Çətinlik dərəcəsini dəyişmək üçün nə etmək lazımdır? Şübhəsiz, bu suallara birmənalı yanaşmaq, resept vermək olmaz. Nəzərə alaq ki, çətinliyin vahid şkalası yoxdur. Çətinlik uşaqların əqli fəaliyyətinin ən müxtəlif cəhətlərindən asılıdır. Bu baxımdan şagirdlərin bir qismi üçün çətin hesab edilən təlim yükü digər qrupu üçün asan ola bilər. Yeri gəlmişkən bir daha qeyd edək ki, bəzən şagirdin xoşlamadığı, lakin yerinə yetirməyə təhrik edildiyi adi şey onun üçün ağır yük olduğu

halda, üzərində aludəçiliklə çalışdığı çətin bir iş (mütaliə, şahmat, idmanın başqa növləri, kompyuter, musiqi və s.) yüngül əyləncəyə çevrilə bilər.

- Yüklənmə anlayışına münasibətdə bir-birinə zidd olan iki mövqe formalaşıb. Uşağın yaşını, hazırlıq səviyyəsini dəqiq öyrənməyən bəziləri humanistlik edərək uşağı ən adi çətinliklərdən qorumağı, onun təlim yükünü son dərəcə azaltmağı tələb edirlər. Onlar unudurlar ki, təlim yükünün həddən çox yüngülləşdirilməsi uşağı arxayınlaşdırır, inkişafdan saxlayır. Uşaq hər şeyi bildiyini zənn edir, onda öyrənmək, çətinliyi aradan qalldırmaq səyi formalaşmır.
- Zəmanəmizdə uşaqların səviyyəsini, nitqini, verdiyi sualları yüksək qiymətləndirən bəziləri isə onların çox sürətlə inkişaf etdiklərini bildirir, onlara hər şeyi öyrətməyin zərur olduğu qənaətinə gəlirlər.

Valideynlərin bir qismi, xüsusilə pedaqoji hazırlığı aşağı olan valideynlər övladları ilə 3 yaşından ciddi məşğul olur, onları lazım olan və olmayan hər şeylə yükləməyə çalışırlar. Uşaqların vaxtından əvvəl akselrasiyasını təmin etməyə çalışan belə valideynlər sonralar bu sürəti davam etdirməyə qabil olmur, uşaqlar ciddi problemləri müstəqil aradan qaldırmaqda çətinlik çəkirlər.

- Şagirdlər I sinifdən **gücləri çatan ən yüksək çətinlik səviyyəsində materialları mənimsəməli,** müstəqil araşdırmalar aparmalı, inkişaf etməlidirlər. Akademik L.V. Zankov tərəfindən irəli sürülmüş bu ağıllı ideya heç də şagirdləri yükləməyi tələb etmir.

Bu gün altıyaşlıların məktəb təliminə necə hazırlanmalarından, təlimin necə təşkil edilməsindən asılı olmayaraq hər yerdə onların yüklənmələrindən söhbət gedir. Bizim vəzifəmiz bu problemlə əlaqədar şagirdlərin, müəllimlərin, valideynlərin dediklərini təhlil etmək, yüklənmə hallarını aradan qaldırmaqdır.

- Təlim prosesində şagirdlərin yüklənmələrinin qarşısını almaq üçün, hər şeydən əvvəl, məşğələ təşkil olunarkən şagirdlərin həmin mərhələ üçün hazırlığının səviyyəsi nəzərə alınmalıdır. Şagirdlərə təqdim olunan hər bir mətn, tapşırıq, sual, test onların bilik, bacarıq və vərdişlərinin səviyəsinə, maraq və meylinə, idrak qabiliyyətinə uyğun olmalıdır.

Qarşıya belə bir sual çıxa bilər. «Məgər sinifdəki bütün uşaqların gücü birdir? Eyni çalışmanı onların hamısı yerinə yetirə bilərlər?» Haqlı sualdır. Psixoloji və pedaqoji tədqiqatlar hər yaş dövrünün təlim yükünü müəyyənləşdirmişdir. Avropa təhsil sisteminə inteqrasiya məqsədilə tərtib olunmuş standartlara əsasən, demək olar ki, dünyanın əksər dövlətlərində bu yük təxminən eynidir. Təlim yükü proqram və dərsliklərdə öz əksini tapır.

Müşahidələr göstərir ki, müəllimlərin əksəriyyəti sinfə təqdim olunan material üzrə iş təşkil edərkən diferensiasiya aparmaq haqqında düşünmür. Nəzərə alınmır ki, sinifdə ən azı üç müxtəlif səviyyəli uşaqlar olurlar: güclülər, orta səviyyəlilər, zəiflər. Tarixən dərsliklər, orta səviyyəli uşaqlar

üçün tərtib edilir. Ondakı çalışmalar, tapşırıqlar, məsələ və misallar, suallar, əsasən, orta səviyyəli uşaqlar üçün nəzərdə tutulur. Şagirdlərin bir qismi həmin materiallarda irəli sürülmüş tələblərlə ayaqlaşa bilmir, digər qismi üçün isə həmin materiallar çox sadədir. Onlar daha ciddi, daha çox şey öyrənmək istəyirlər. Bəzi dərsliklər əlaçılar, istedadlı uşaqlar üçün çox asan, maraqsız olduğundan onlara əsnək gətirir. Yeni şey öyrənməyən uşaqlarda get-gedə təhsilə maraq azalır. Onların bir çoxu geriləyir, bir müddətdən sonra, müəllimə, məktəbə pis nəzərlə baxır.

Ona görə də təlim prosesində diferensial və fərdi yanaşma təmin olunmalıdır. Yaradıcı müəllim qüvvətli şagirdlər içərisində ən güclülərə, zəiflər içərisindəki ən zəiflərə fərdi yanaşır. Bu prosesdə hərəkətdə, inkişafda olan zəif və istedadlı uşaq digərindən fərqləndirilir.

«Yüklənmə» termininə aydınlıq gətirmək üçün təhsil prosesini təhlil etmək və obyektiv qiymətləndirmək tələb olunur. Şagird nə üçün yüklənir? Yüklənmənin maddi, sosial, psixoloji, didaktik amilləri mövcuddur. Bunları yığcam, tezislər şəklində şərh etməyə çalışaq:

• Yüklənmə, hər şeydən əvvəl, təlimin məzmunu ilə təlim standartları ilə, kurikulumlarla, dərslik komplekti ilə bağlıdır. Kurikulumlara əsasən yaradılmış ibtidai siniflər üçün dərslik komplektləri müəyyən uğurlu cəhətləri ilə yanaşı, ciddi nöqsanları ilə də diqqəti cəlb edir. Bu komplektlərin xarakterik cəhəti şagirdləri çətin, lazımsız materiallarla, onların yaşlarına bilik səviyyələrinə uyğun olmayan çalışmalar və testlərlə yüklənməsindədir.

Təəssüf ki, bununla əlaqədar mətbuatda heç bir tənqidi fikir söylənməmişdir. Halbuki belə çıxışlar dərslik komplektlərinin təkmilləşdirilməsinə təkan verə bilərdi.

• Yüklənmənin başlıca səbəblərindən biri sinif müəllimlərinin bu prosesə hazır olmamalarıdır. Təcrübə göstərir ki, təhsil islahatının tələbləri, yeni standartlar, kurikulumlar, yeni pedaqoji texnologiyalar, interaktiv metod və priyomlar, onlardan istifadə yolları bir çox ali və orta ixtisas məktəbinə lazımınca daxil olmamışdır. Bunun nəticəsidir ki, gənc məzunlar yeni pedaqoji texnologiya ilə «əsasən» dərs deməyə başlayanda tanış olurlar.

Yenidənhazırlanma kurslarını keçən müəllimlər olsa-olsa profillərinə yaxın fənlərin tədrisində az-çox müvəffəqiyyət qazanırlar.

İbtidai sinif müəllimlərinin böyük bir qismi müasir tələblərə uyğun dərs deyə bilmir. Vaxtilə dünya şöhrətli alim Albert Eynşteyn yazmışdır. «Biz tez-tez uşaqları kitablarla, təəssüratlarla yükləyir, onlara şəxsi fikirlərini və yaradıcılıqlarını dinlədiklərinə aparan başlıca məsələləri toplamaqda kömək etmirik».

Məşhur psixoloq D.H. Boqoyavlenski bu fikri inkişaf etdirərək göstərmişdir ki, biz yalnız şagirdlərin fikri fəaliyyətinin nəticələri ilə iş görürük. Əgər nəticə səhvdirsə, şagirdlərin həmin nəticələrə necə gəldiklərini bilmədən

onu düzəldirik. Ona görə də şagirdə əsaslı kömək göstərə bilmirik. Fikri fəaliyyət prosesi müəllim tərəfindən idarə olunmamış qalır.

- Kiçikyaşlı məktəblilərin yüklənmələrinin başlıca səbəblərindən biri ev tapşırıqlarının verilməsi üzrə işin nöqsanlı olmasıdır.

I sinifdə təlim materialı, əsasən, sinifdəcə mənimsədilməli, evə praktik fəaliyyətlə əlaqədar bəzi şifahi tapşırıqlar verilməlidir. Müşahidələr göstərir ki, I sinif şagirdləri ev tapşırığının yerinə yetirilməsinə hər gün azı iki saat sərf edirlər. Bu kiçikyaşlı məktəblinin gün rejimini pozur, oyun və əyləncələrini, gəzinti və istirahətini, yuxusunu əlindən alır. Təlim yükünün bir hissəsinin evə köçürülməsi valideynlərin işini də ağırlaşdırır. Təhsilin ibtidai mərhələsini asan sayan valideynlər uşaqlara kömək etməyə girişir, bəzən övladlarında yanlış vərdişlər formalaşdırırlar. Ən yaxşı halda tapşırığı savadlı valideyn, uşaqların böyük bacı və qardaşları yerinə yetirir.

Ev tapşırığının məqsədi, yerinə yetirilmə qaydasının izah olunması da ciddi nöqsanlarla qarşılaşır. K.D. Uşinski yazmışdır: «Müəllim üçün kitabda müəyyən səhifəni dırnaqla və ya karandaşla işarə edib, onu gələn dərsə kimi öyrənməyi tapşırmaqdan asan şey yoxdur, lakin... uşağın işdən necə yapışmaq lazım olduğunu bilməyərək öz zəhmətini dəfələrlə necə artırdığını ..., necə göz yaşı tökdüyünü müşahidə edin. O zaman siz bəzən uşaqda təlimə qarşı nifrətin haradan yarandığını anlarsınız».

İbtidai siniflərdə ev tapşırıqlarının həcmini tədricən azaltmaq, hətta bəzən ondan imtina etmək də mümkündür. Bunun üçün müəllim gərgin əmək sərf etməli, müasir texnologiyaların, interaktiv metod və priyomların köməyi ilə biliklərin əsaslarını dərsdəcə mənimsətməli, şagirdləri tədqiqatçılığa alışdırmalıdır.

Bu gün uşaqların yay tətili günlərində məşğul olmaları üçün çap edilmiş kitablar da onları yükləyir.

- İbtidai təhsil pilləsində, xüsusilə I sinifdə dərsin müddətinin qaydaya salınmaması da yüklənmə ilə nəticələnir. Tədqiqat göstərir ki, 20-25 dəqiqədən sonra kiçikyaşlı məktəblilərin iş qabiliyyəti aşağı düşür. Ona görə də heç olmasa I sinifdə dərsin müddətini 35 dəqiqəyə endirmək, qalan 10 dəqiqəni tənəffüsə əlavə etmək məsləhət görülür. Bu, uşaqların fiziki hərəkətlərə, ritmikaya, musiqi üzrə ifaçılığa cəlb olunmalarına şərait yaradır. (Vaxtilə belə idi. Son dövrlər, nədənsə, fikir dəyişdi.)

- Azsaylı xalqların kompakt yaşadıqları yerlərdəki məktəblərdə özünəməxsus yüklənmə baş verir. Bu, I sinifdə özünü daha aydın büruzə verir. Azərbaycan dilini yaxşı bilməyən bu uşaqlar bütün dərslərdə materialı mənimsəməkdə, mahiyyəti dərk etməkdə çətinlik çəkirlər. Tədris planında ana dili üçün nəzərdə tutulmuş həftəlik normadan 2 saat etnik qrupun ana dilinə verilir. Savad təlimi dövründə milliyyətcə azərbaycanlı şagirdlərin mənimsəmə faizinin aşağı olmasından bəhs olunursa, görün həmin məktəblərdə vəziyyət necədir.

Təkcə bu fakta görə respublikanın hər yerində eyni proqram və dərslik komplekti ilə işləmək düz deyil.

• Yüklənmənin başlıca səbəblərindən biri də çoxfənlilikdir. Biz kimlərinsə mülahizələrinə əsasən fənlərin sayını çoxaldır, sonra fənlərarası inteqrasiyadan söz açırıq. Bəlkə inteqrasiyanı elə fənnin daxilində yaradaq. (Vaxtilə oxu və həyat bilgisini inteqrə edən oxu dərsliyindən istifadə olunub.) Məgər texnologiya ilə təsviri fəaliyyəti bir fənn kimi tədris etmək olmazmı? Florensiyanın tədris planına əsasən I sinifdə 7 fənn, bizim respublikamızda isə 10 fənn tədris olunur.

• Yüklənmənin mənbələrindən biri də fənlərin növbələşdirilməməsi, ardıcıl, hətta günlərlə eyni fənlərin tədris olunmasıdır. Bu, xüsusilə ixtisasını dəyişmiş müəllimlərə aiddir. Onlar yenidən hazırlanmalarına baxmayaraq, ibtidai təhsilin sirlərini bilmədiklərindən dərs deməkdə çətinlik çəkir, əsas ixtisasları ilə əlaqədar lazım olan-olmayan bilikləri öyrətməyə çalışırlar.

Uzun illərdir ki, bəzi müəllimlər ana dili və riyaziyyat fənlərini əsas fənn hesab edir. Yoxlama prosesində, əsasən, həmin sahəyə diqqət verildiyini nəzərə alaraq müəllimlər fəaliyyətini həmin fənlərin tədrisinə həsr edir, bu sahədə müvəffəqiyyətinə görə ad-san qazanırlar. Bu zaman uşaqların nə dərəcədə yorulmaları, hərtərəfli inkişafın qarşısının alınması onları narahat etmir.

• Yüklənmənin qarşısını almaq üçün məşğələlərin bir çoxunun sinif otağından kənara çıxarılması məsləhət görülür. Musiqi dərsinin musiqi kabinetində, zalda; oxu dərsinin kitabxanada, sərginin qarşısında, əlamətdar hadisəyə, tarixi günə, tarixi şəxsiyyətə həsr olunmuş guşədə; təsviri incəsənətin təbiətin bir guşəsində; həyat bilgisinin məktəbin canlı guşəsində, heyvanlar parkında; texnologiyanın tarlada, dirlikdə, tikintidə, başqa istehsalat sahəsində təşkili uşaqları sevindirir və yüksək səmərə verir.

• Təlim prosesində yükləməyə qarşı mübarizə ona görə gücləndirilməlidir ki, cəmiyyətimizdə bir nömrəli məsələ sağlam nəslin yetişdirilməsidir. Ailənin sağlamlığı, gələcək nəslin sağlamlığı həyatımızın müxtəlif sahələrində fəaliyyət göstərəcək cəmiyyətə xidmət edəcək, vətənimizin keşiyində dayanacaq insanların sağlamlığı deməkdir.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ

**Mahirə Rəhimova,**
AMİ-nin təhsildə innovasiya kabinetinin
məktəbəqədər təhsil üzrə mütəxəssisi



***Açar sözlər:*** *interaktiv təlim, subyekt, obyekt, qruplarla iş, söz assosiasiyaları, klaster, Venn diaqramı, karusel, auksion, əqli hücum, dairəvi söhbət, zəncirvari metod.*

***Ключевые слова:*** *интерактивное обучение, субъект,объект, рабочие группы ,словесные ассоциации, кластер, диаграмма Венна, карусель, аукцион, интеллектуальная атака, круговые разговоры, ценной метод.*

***Key words:*** *interactive teaching, subject, object, working groups, word associations, cluster, Venn diagram, merrygoround, auction, intellectual attack, circular conversations, chainmethod.*

Məktəbəqədər təhsil sisteminin yenidən qurulması, təkmilləşdirilməsi vacib məsələlərdən biri hesab olunur. Bu gün uşaq bağçalarında çalışan hər bir tərbiyəçi interaktiv təlim metodlarını dərindən öyrənməlidir ki, təlim prosesini düzgün qura bilsin.

*İnteraktiv* termini *dialoq, qarşılıqlı əlaqədə fəaliyyət göstərmək* kimi izah olunur.

İnteraktiv təlim metodlarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, hər uşağın fəaliyyətdə olmasına şərait yaradır və təlimin inkişafetdirici aspektini gücləndirir. Həmin metodlardan istifadə edən tərbiyəçi uşaqlara hazır biliklər verən deyil, onlarda bilik əldə etməyə maraq və həvəs oyadan şəxsdir. Tərbiyəçi fəal düşünmə şəraitini təşkil etməklə uşaqları axtarışlara istiqamətləndirir, bu yolla *fasilitator*, yəni *bələdçilik edən* funksiyasını yerinə yetirir.

Əgər ənənəvi metodla keçirilən məşğələlərdə tərbiyəçi *subyekt*, uşaqlar *obyekt*dirsə, interaktiv məşğələdə onların hər ikisi *obyekt* olur.

Tərbiyəçi məşğələnin əvvəlində keçəcəyi mövzu ilə əlaqədar problem – situasiya yaradır, tədqiqat sualları qoyur və həmin suallara uşaqlardan cavab almağa çalışır, bütün fərziyyələri dinlədikdən sonra nəticə çıxarır.

Məşğələ zamanı interaktiv təlim metodlarının tətbiqi uşaqlarda müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı problem barədə başqalarının fikrinə münasibət bildirmək, çoxluğun qərarını qəbul etmək kimi keyfiyyətlər yaradır.

İnteraktiv təlim metodları uşaqlarda inam hissi tərbiyə etməklə yanaşı, yaradılan mühit onlarda tədqiqatçılığa, təşəbbüskarlığa və yaradıcılığa maraq

oyadır. Bundan başqa, interaktiv təlim metodları uşaqlarda əməkdaşlıq etməyi, başqalarını dinləməyi, təhlil etmək qabiliyyətini, tənqidi təfəkkürü və ən əsas natiqlik qabiliyyətini inkişaf etdirir.

İnteraktiv təlim metodları üçün aşağıdakılar səciyyəvidir:

- uşağın fikri fəallığı;
- tərbiyəçinin uşaqla, uşaqların bir-biri ilə əkməkdaşlığı;
- rollu və didaktik oyunlardan istifadə;
- uşaqların qrupda qeyri - ənənəvi yerləşdirilməsi

İnteraktiv təlimin iş formaları bunlardır: fərdi; cütlərlə; qruplarla; kollektiv.

İnteraktiv təlim zamanı daha çox istifadə olunan *qruplarla iş formasıdır*. Bu iş forması uşaqlarda problemin birgə həll edilməsini, bir-birinin fikrinə hörmətlə yanaşmağı, müstəqil işləməyi, əməkdaşlıq etməyi və sərbəst fikir söyləmək kimi keyfiyyətləri tərbiyə edir.

Tərbiyəçi uşaqları onların bilik səviyyəsini, xarakterini və qabiliyyətlərini nəzərə almaqla 4-5 nəfərdən ibarət kiçik qruplara ayırır. Qruplarda işləyərkən uşaqlar daha fəal olur, öz yoldaşları ilə birgə işdə iştirak edir, bir-birini diqqətlə dinləyir, tapşırığı kollektiv şəkildə yerinə yetirirlər. Qabiliyyətli uşaqlar rəqib kimi deyil, qrupun lideri kimi qəbul olunurlar.

Tərbiyəçi qrupların həmişə eyni tərkibdə işləmələrinə yol verməməli, tərkibini tez-tez dəyişməyə çalışmalıdır.

Qruplarda iş aşağıdakı qaydada aparılır:

1. Hər bir qrup bir masanın arxasında əyləşir.
2. Uşaqlar gördükləri işi təqdim etmək üçün öz aralarında 1 nəfəri lider seçirlər. Həmin uşaq qrupun işinin nəticəsini təqdim edir.
3. Tərbiyəçi mövzu ilə əlaqədar tapşırıq verir, işin görülməsi müddətini müəyyən edir.
4. Tərbiyəçi qruplar arasında gəzib, işləri müşahidə edir, suallara cavab verir, ehtiyac olduqda əlavə məlumat verir.
5. Müəyyən edilmiş müddət başa çatdıqdan sonra tərbiyəçi işi dayandırır və nəticələri bildirməyi xahiş edir.
6. Tərbiyəçi qrup liderlərinin təqdimatını dinləyib ümumiləşdirir.

Sinfi kiçik qruplara aşağıda göstərilən yollarla ayırmaq olar:

- rəqəmləri saymaqla (Hər dəfə 1 rəqəmi ilə sayılan uşaqlar birinci, 2 rəqəmi ilə sayılan uşaqlar ikinci və s. qrupa daxil olur.)
- müxtəlif rəngli çiçəklərlə (Uşaqlara çiçəklər paylanır, qırmızı rəngli çiçəyi olan uşaqlar birinci, sarı rəngli çiçəyi olan uşaqlar ikinci və s. qrupa daxil olurlar.)
- əllərindəki həndəsi fiqurların eyniliyinə görə;
- meyvə, tərəvəz, ev və çöl heyvanlarının şəkillərinə görə və s.

İnteraktiv təlim metodlarının (priyomlarının) tətbiqi üzərində dayanaq:

**Rollu oyunlar.** Məktəbəqədər yaşlı uşaqlarla məşğələlərdə istifadə olunan ən fəal təlim metodudur. Bu metoddan istifadə zamanı uşaqlar tanış olduqları hər hansı hadisəni, prosesi əyani canlandırmaqla, bir növ başqasının həyatına daxil olur, hadisələri özləri təsəvvür etdikləri kimi yaşayırlar. Rollu oyunlardan, demək olar ki, bütün məşğələlərdə istifadə etmək olar. Rolları ifa edən uşaqlar yaşlıları təqlid edir, onların hissləri ilə yaşayırlar, məsələn, "Mağaza" oyununda satıcı, xəzinədar, "Xəstəxana" oyununda həkim, xəstə, "Bərbərxana" oyununda bərbər və s. rolları ifa edən uşaqlar özlərini böyüklərin yerinə qoyur, onlar kimi danışır, hərəkət edirlər.

**Əqli hücum (beyin həmləsi).** Bu metoddan məşğələlərdə uşaqların fəallığının artırılması, konkret problemin həlli və qoyulan suala cavabın axtarılması zamanı tez-tez istifadə edilir. Əqli hücum uşaqların tam fikir sərbəstliyini təmin edir. Bu zaman qrup hər hansı bir problemin həllinə cəlb olunur və qısa müddət ərzində bütün fikir və təkliflər qeyd edilir. Tərbiyəçi uşaqlara sualla müraciət edir (Bizim bağçamızda vəzifəmiz nədir?). Uşaqlar cavab verirlər. Sonra müzakirələr aparılır və çoxluq tərəfindən doğru hesab edilən (bağçaya gecikməmək, səliqəli geyinmək, qrupu təmiz saxlamaq, yeməyi səliqəli yemək, paltarı təmiz saxlamaq, başqa uşaqları incitməmək, tərbiyəçinin tapşırıqlarına əməl etmək, məşğələlərdə fəal olmaq, şəkil çəkmək və s.) cavablar qəbul olunur.

**Dairəvi söhbət**. Bu metod tətbiq edilərkən uşaqlar keçirdikləri hisslərdən, iştirakçısı olduqları hadisələrdən danışırlar. Tərbiyəçi əvvəlcə özü bir hadisə barədə danışmağa başlayır, sonra dairəvi oturmuş uşaqlar onu növbə ilə davam etdirirlər. Bu metoddan istifadə etdikdə uşaqlarda başqalarını dinləmək, məsələnin mahiyyətini başa düşərək öz fikrini düzgün çatdırmaq qabiliyyəti inkişaf edir. Mövzu və qarşıya qoyulan məqsədlə əlaqədar olaraq başlanğıc verilir (Mən o vaxt kədərlənirəm ki, ...), uşaqlar növbə ilə həmin fikri tamamlayırlar. Fikirlər təkrar olunmamalıdır.

Məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətlərindən biri budur ki, onlar yuxarı yaşlı uşaqlardan fərqli olaraq daha çoxsaylı və geniş əhatəli arzularla yaşayırlar. Buna görə də dairəvi söhbət zamanı onların arzularını dinləmək daha maraqlı olur. Belə söhbətlərdə tərbiyəçi hər bir uşağın daxili aləmini özü üçün kəşf etmiş olur. Bu vaxt uşaqlar onları əhatə edən insanlar, təbiət, bitki və heyvnlar aləmi, bir-biri ilə, başqa insanlarla münasibətdə meydana çıxan düşüncə və arzularını ifadə edirlər.

**Söz assosiasiyaları.** Bu metodu tətbiq edərkən məşğələnin əvvəlində tərbiyəçi öyrəniləcək mövzu ilə əlaqədar bir söz deyir, sonra uşaqlara tapşırır ki, sözü eşitdikdə ağıllarına gələn sözləri dərhal desinlər, məsələn, "Dovşan" dedikdə ağlımıza nə gəlir? – heyvandır, tüklüdür, uzun qulaqları var, ağ və boz olur, evdə və meşədə yaşayır və s. Fikirlər bir-birini təkrarlamamalıdır.

Bundan başqa, bu metoddan istifadə edərkən bir sözün başqa sözləri, oxşar məfhumları çəkib gətirməsi nəzərdə tutulur. Bu metodla işləyərkən istedadlı uşağın lüğət fondunun zənginliyi daha qabarıq şəkildə üzə çıxır. Bir məfhumun baş-

qa sözləri çəkməsi istedadlı uşaqlarda başqalarına nisbətən qat-qat artıq olur: nəqliyyat vasitələri deyəndə bunlar yada düşür – *maşın, avtobus, taksi, yük maşını, qatar, gəmi, təyyarə və s.*

**Zəncirvari metod.** Təlim-tərbiyə prosesində zəncirvari metodla hekayə və şəkillər üzərində işləmək uşaqların ən sevimli məşğuliyyətlərindən biridir. Tərbiyəçi bu metoda mövzu ilə əlaqədar müraciət etməlidir. Burada birinci uşaq hekayənin və ya nağılın ilk cümləsini deyir, digər uşaqlar bu cümləni davam etdirərək ümumi bir hekayə qurmağa çalışırlar. Bu zaman hər uşaq yalnız bir cümlə deyir. Ola bilər ki, uşaqların biri yazı taxtasında nəzərdə tutduğu şəklin bir hissəsini çəkir, ikinci uşaq birincinin fikrini müəyyənləşdirib, ona əlavə edir. Beləliklə, hər kəs şəklin bir hissəsini çəkir və nəticədə süjetli bir şəkil alınır. Hər uşaq özündən əvvəlkinin fikrini dəqiq müəyyənləşdirməlidir ki, şəkil mənalı alınsın. Uşaqların biri yazı taxtasında ağacın gövdəsini çəkir, digər uşaqlar müəyyənləşdirirlər ki, birinci uşaq ağac çəkmək istəyir, sonra onlar bir-bir gələrək ağacın budaqlarını, yarpaqlarını, meyvələrini və s. çəkirlər.

**Klaster (şaxələndirmə).** Klaster hər hansı bir mövzu və ya fikrin müəyyən qədər açılmasına, uşaqların bu mövzu ətrafında geniş, sərbəst düşünmələrinə şərait yaradan metoddur. Şaxələndirmə strategiyasından həm düşünməyə yönəltmə, həm də düşünmə mərhələsində istifadə etmək olar. Məşğələnin əvvəlində uşaqların fikrini cəmləşdirmək və əvvəlki bilikləri yada salmaq üçün istifadə oluna bilər. Bu metodun tətbiqi zamanı fikirdən fikir, mövzudan mövzu doğur, yeni assosiasiyaların yaranması imkanı genişlənir. Klaster metodu həm fərdi, həm cütlərlə, həm də kiçik qruplarla həyata keçirilə bilər. Onun tətbiqi çox sadə və yaddaqalandır.

Şaxələndirməni həyat keçirmək üçün iri kağız götürülür, kağızın mərkəzində mövzuya uyğun şəkil yapışdırılır. Həmin şəkildən şaxələr ayrılır və müxtəlif şəkillərin içindən mövzuya uyğun şəkillər uşaqlar tərəfindən bir-bir seçilib yapışdırılır.



**Venn diaqramı.** Venn diaqramı kəsişən iki və ya daha artıq çevrə üzərində qurulur. Çevrələrin üst-üstə düşdüyü hissədə yazmaq üçün kifayət qədər yer olmalıdır. Venn diaqramı vasitəsilə əşya və cisimlərin oxşar və fərqli cəhətləri verilir.

Uşaqlar qruplara bölünür, tapşırıq verilir. Tərbiyəçi diaqramı yazı taxtasında çəkir. Mövzu ilə bağlı diaqramın kənar hissələrində fərqli cəhətlər, üst-üstə düşən hissədə isə oxşar cəhətlər yazılır. Tərbiyəçi qrupun fikirlərini ümumiləşdirərək yazı taxtasında qurulmuş Venn diaqramında qeydlər edir və son nəticəni söyləyir. Bu diaqramdan bütün məşğələlərdə istifadə etmək olar.




**Açar söz.** Mövzu ilə əlaqədar uşaqlara üç açar söz verilir, həmin sözlərə əsasən mövzu müəyyənləşdirilir. Açar söz metodundan, əsasən, məşğələnin motivasiya hissəsində istifadə edilir, məsələn, məşğələnin mövzusu çörəyə həsr olunmuşsa, tərbiyəçi qrupa müraciət edərək üç açar söz verir: yeyilir, bərəkətdir, tapdalamaq olmaz.

**BİBÖ.** Tərbiyəçi yazı taxtasında cədvəl çəkir:

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

Uşaqlardan ev heyvanları haqqında nə bildikləri soruşulur və cədvəlin "Bilirəm" hissəsində yazılır. Sonra ev heyvanları haqqında nə bilmək istədikləri soruşulur və "İstəyirəm biləm" hissəsinə qeyd edilir. Tərbiyəçi bilmək istədikləri ba-

rədə uşaqlara məlumat verir, məşğələnin sonunda uşaqların bu gün öyrəndiklərini soruşur və "Öyrəndim" hissəsinə qeyd edir.

**Auksion.** Tərbiyəçi öyrəniləcək cisim və ya hadisəni müəyyən edir. Uşaqlar öyrənilən cisim və ya hadisənin xüsusiyyətlərini ardıcıl şəkildə sadalayırlar. Hamı növbə ilə cisim və ya hadisə haqqında fikir söyləyir. Hər bir fikirdən sonra tərbiyəçi sayır: "Bir, iki ..." Bu zaman başqa iştirakçı tez fikrini söyləyir. Sonuncu fikir qalib sayılır. (Axırıncı cavabı verən auksionun qalibi olur) Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun görə də hamı bir-birini dinləyir, məsələn, tərbiyəçi uşaqlara lampa göstərir. Uşaqlar:

– İşıq saçır.
– Şüşədən düzəldilib.
– Yerə atsan, sınar.
– Əl vursan, səslənər.
– Formasına görə armuda oxşayır.
– Şəffafdır.

Tərbiyəçi:

– Şəffafdır 1, şəffafdır 2 və s.

Uşaq:

– Müxtəlif formalarda olur.

**Karusel.** Tərbiyəçi uşaqları 4 qrupa ayırır, hər qrupa iri ağ kağız və müxtəlif rəngli qələmlər verir. Mövzu müxtəlif nəqliyyat vasitələri haqqındadırsa, I qrupa quru nəqliyyatı, II qrupa hava nəqliyyatı, III qrupa dəmiryol nəqliyyatı, IV qrupa isə su nəqliyyatı vasitələrini çəkmək tapşırılır. İşin yerinə yetirilməsinə 5 dəqiqə vaxt ayrılır. I qrup şəkilləri çəkib, işi II qrupa ötürür, II qrup şəkli çəkib III qrupa, III qrup IV qrupa ötürür. Beləcə, bütün qruplar verilən 4 növ nəqliyyat vasitəsinin şəkillərini çəkirlər. Sonda hər qrupun 1-ci çəkdiyi şəkil özünə qayıdır və qrup liderləri işləri təqdim edirlər.

### Ədəbiyyat


1. Y. Kərimov. Təlim metodları. Bakı, "RS poliqraf" MMC, 2009.
2. "Məktəbəqədər və ibtidai təhsil jurnalı", 2003 №3, 2008 №1.
3. Z.Veysova. " Fəal interaktiv təlim" (müəllimlər üçün vəsait.)


### Интерактивные методы обучения, внедряемые в дошкольных учреждениях


**Резюме**

В статье говорится о значении интерактивных методов обучения в дошкольных учреждениях, о формах обучения на занятиях и отмечаются механизмы проведения каждого метода.

Статья предназначено для педагогических работников дошкольных учреждений.


### The use of preschool education interactive training methods


**Summary**

Methods of active interactive training used in pre-school educational institutions in the article the author speaks about the importance of the methods of interactive training applied in pre-school educational institutions, affair forms of the active training and methods of training used in the seminars.

The article is useful for pedagogical workers working in the kindergartens.

# İNKİŞAFETDİRİCİ TƏLİMİN TƏŞKİLİ TƏCRÜBƏSİNDƏN

**Fərida Hümbətova,**
Bakı şəhəri, 16 nömrəli liseyin sinif müəllimi

***"Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indiki gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır".***

**Heydər Əliyev**



***Açar sözlər:*** *inkişafetdirici təlim, milli kurikulum, təlimin təşkilat formaları, nəzəriyyə ilə təcrübənin vəhdəti, müəllim-şagird əməkdaşlığı, interaktiv təlim, qruplarla iş.*

***Ключевые слова:*** *развиваюшая обучение, национальный курикулум, организационные формы обучения, сочетание теории и практики, сотрудничество школьника и преподавателья, интерактивное обучение, работа в группах.*

***Key words:*** *developmental education, national curriculum, the organizational form of training, a combination of theory and practice, co-students and teachers, interactive training, work in groups.*

Milli kurikulumun, fəal təlimin, yeni qiymətləndirmə qaydalarının I-III siniflərdə tətbiqi, bununla əlaqədar istifadə olunan yeni nəsil dərslik komplekti, prosesini daha səmərəli təşkil etməyə geniş imkanlar yaratmışdır.

Bu imkanları gerçəkləşdirmək üçün müəllim daha çox öyrənməli, öyrəndiklərini öz işində yaradıcılıqla tətbiq etməyi bacarmalı, özünün və şagirdlərinin fəaliyyətini elə təşkil etməlidir ki, inkişafetdirici təlim sistemini yaratmış olsun.

İnkişafetdirici təlim tədris prosesinin bütün təşkilat formalarını kompleks şəkildə özündə birləşdirir. Bu sistemə dərs və dərsdənkənar məşğələlər (yuxarı siniflərdə fərdi, qrup, dərnək və fakültativ məşğələlər), digər sinifdənxaric və məktəbdənkənar tədbirlər daxildir. Bu təşkilat formalarının hər biri məzmun və məqsədinə görə təhsil prosesinin keyfiyyətcə yüksəldilməsinə xidmət edir.

İnkişafetdirici təlimin təşkili prosesində müəllim şagirdlərə öyrənməyi öyrətməklə yanaşı, onlarda müstəqil düşünmək, yeni biliklər əldə etməyə təşəbbüs göstərmək, başqasının fikrinə münasibət bildirmək, sərbəst rəy söyləmək, öz fikrini əsaslandırmaq və s. bacarıqlar aşılayır, onların təfəkkürünün tənqidiliyi, müstəqilliyi, çevikliyi və kreativliyinə (yaradıcılığına) zəmin yaradır.

Canlı təbiətin inkişafı sağlam ekoloji mühitdən asılı olduğu kimi, şagirdin bir şəxsiyyət kimi formalaşması və inkişafı da düzgün qurulmuş təlim-tərbiyə prosesindən, müəllimin şəxsi keyfiyyətlərindən, pedaqoji ustalığından, müəllim-şagird mü-

nasibətlərinin bərabərhüquqlu tərəf-müqabil kimi səmərəli və məhsuldar qurulmasından asılıdır.

Təlim-tərbiyə prosesinin keyfiyyəti bu prosesin əsas iştirakçıları olan müəllim və şagirdlərin fəaliyyəti ilə, yəni fənnin tədris keyfiyyəti, şagirdlərin təlim göstəricilərinin səviyyəsi ilə müəyyən edilir.

Qədin yunan filosofu Aristotel dərsi nəzəriyyə ilə təcrübənin vəhdəti kimi xarakterizə etmişdir. Bunu nəzərə alaraq dərs və dərsdənkənar məşğələləri müəllim-şagird əməkdaşlığının, onların birgə fəaliyyətinin nəticəsi, tədris prosesinin təşkilində əsas amillərdən biri kimi qiymətləndirirlər.

Bu məqsədlə mən istər dərs və dərsdənkənar məşğələlərdə, istərsə də sinifdənxaric və məktəbdənkənar tədbirlərdə müəllim-şagird, şagird-şagird əməkdaşlığını səmərəli qurmaq, onu daha da inkişaf etdirmək məqsədilə fəal təlimin üstünlüklərindən faydalanır, mövzuya müvafiq iş formasını, yollarını qabaqcadan müəyyən edirəm. Bu zaman dərs və məşğələlərdə şagirdlərin maraqlarının təmin edilməsini nəzərə alır, onların qabiliyyətlərini inkişaf etdirməyə çalışıram.

Bu işi səmərəli həyata keçirmək üçün növbəti dərs ilində I sinfə qəbul olunacaq uşaqların pedaqoji-psixoloji imkanlarını müəyyənləşdirməyə çalışıram. Bu məqsədlə məktəbin ərazisindəki məktəbəqədər təhsil müəssisələri ilə əlaqə saxlayır, vaxtaşırı böyük və məktəbə hazırlıq qruplarının məşğələlərində iştirak edir, tərbiyəçilərlə birgə kompleks məşğələlər hazırlayıb keçiririk.

Bildiyimiz kimi, I sinfə qəbul olunan uşaqların az bir qismi məktəbəqədər müəssisələrdən, digər hissəsi məktəbdə təşkil edilmiş hazırlıq qruplarından, əksəriyyəti isə heç bir hazırlıq görmədən birbaşa ailədən gəlir. Nəticədə, müxtəlif hazırlıq səviyyələrinə, fərqli pedaqoji-psixoloji imkanlara malik bu uşaqların məktəbə alışmaları, tədris prosesinə qoşulmalarındakı kəskin fərq müəyyən çətinliklərin yaranmasına səbəb olur.

İlk günlər bəzi uşaqlar yersiz qorxu, həyəcan hissi keçirirlər. Bunun aradan qaldırılması üçün fəal təlim əsasında qurulmuş dərs və dərsdənkənar məşğələlərin imkanlarından bacarıqla faydalanmaq müəllim və şagirdlərin birgə fəaliyyətinə təsir göstərir. Bu işi yüksək səviyyədə təşkili müəllimdən peşəkarlıq, səbir tələb edir.

Bu məqsədlə mən ilk dərs günündə şagirdlərdə məktəb haqqında müsbət təsəvvür yaratmaq, tədris prosesinə maraq oyatmaq üçün V sinfə yola saldığım şagirdlərin ibtidai təhsil pilləsindəki fəaliyyətləri barədə danışır, onların müxtəlif tədbirlərdə iştirakını, əl işlərini, başqa nailiyyətlərini nümayiş etdirir, videolentə baxış təşkil edirəm.

Təbii ki, bu zaman şagirdlərin diqqət və marağını artırmaq məqsədilə filmdəki hər bir süjetlə əlaqədar onlara suallarla müraciət edir, lazımi cavabları alır, gələcəkdə onlarla da belə maraqlı dərs və tədbirlərin keçiriləcəyini, hətta onları daha maraqlı hadisələr gözlədiyini bildirirəm.

Filmin nümayişindən sonra şagirdləri məktəblə tanış etmək məqsədilə ekskursiya təşkil edirəm. Məktəbin onlara aid olan hissəsi, həmin hissənin tərtibatı

barədə izahat verir, şagirdləri həkim otağı, sanitar-gigiyenik qovşaq, məktəb bufeti, məktəb kitabxanası barədə məlumatlandırıram.

Şagirdlərdə məktəbin onlara aid hissəsinin dəhlizindən istifadə etmək vərdişlərini möhkəmləndirmək məqsədilə sonrakı bir neçə gün ərzində də daha qısamüddətli ekskursiya keçirirəm.

Təbii ki, bu günlərdə şagirdləri məktəb həyati və məktəbyanı ərazi ilə tanış etmək məqsədilə həyat bilgisi, təsviri incəsənət, texnologiya fənlərinin tədrisində mövzuya uyğun olaraq dərsin müəyyən hissəsini açıq havada keçirirəm. Bu zaman dərsin məzmunu ilə əlaqədar şagirdlərə müəyyən məlumatlar çatdırıram. Sinfə qayıtdıqdan sonra onlara yeni tapşırıqlar verirəm. Şagirdlər tapşırıqları yerinə yetirdikdən sonra onların yeni məlumatları necə yadda saxladıqlarını, müşahidə etdikləri əşya və hadisələrlə bağlı hansı bilikləri əldə etdiklərini müəyyənləşdirirəm. Onlarda aldıqları bilikləri əsaslandırmaq bacarığını inkişaf etdirmək məqsədilə yerinə görə *nəyi?, necə?* və *nə üçün?* suallarından istifadə etməyi tapşırıram.

İlk günlərdən belə müşahidə-dərslərin təşkili şagirdlərin tədris prosesinə həvəslə qoşulmalarına, onlarda eşitdikləri ilə gördükləri arasında oxşar və fərqli cəhətləri əsaslandırmaq, öyrəndikləri yeni bilikləri şifahi nitq (gələcəkdə yazılı nitq) vasitəsilə çatdıra bilmək bacarığını inkişaf etdirir. Belə-dərslər işin forması və metodu baxımından sınaq və tədqiqatçılıq elementləri ilə bağlıdır. Belə dərslər gələcəkdə şagirdlərin lazımi biliklər əldə etmək, verilmiş kiçikhəcmli tapşırıqların mənbələrini müstəqil axtarıb tapmaq, onları mənimsəmək və əqli nəticə çıxarmaq bacarıqlarının formalaşmasına kömək edir.

Bu gün tədris prosesində interaktiv təlimi təmin edən dərslərdə ən geniş yayılmış formalardan biri qruplarla işdir. I sinifdə bu iş formasından istifadə edərkən şagirdlərin təşkilatlanmaq qabiliyyətinin zəif olduğunu nəzərə alıram.

Bildiyimiz kimi, məktəbə yeni qədəm qoymuş I sinif şagirdləri üçün qruplarla iş forması məzmun və məqsədi, iş metodu baxımından onların məktəbəqədər təhsil müəssisəsində adət etdikləri didaktik oyunlardan fərqlidir. İş prosesində bunun yeni bir fəaliyyət növü olduğunu nəzərə alıram. Buna görə də şagirdləri qrupdaxili birgə fəaliyyət vərdişlərinə alışdırmaq lazımdır. Əks təqdirdə onlardan yüksək nəticələr gözləmək olmaz. Bu yeni əməkdaşlıq formasına şagirdlərdə maraq oyatmaq, onlarda tədricən fəaliyyət vərdişləri yaratmaq üçün müəyyən vaxt lazımdır. Belə ki, I sinif şagirdlərinin pedaqoji-psixoloji inkişaf səviyyəsi onların diqqətini birdən-birə 20-25 dəqiqə ərzində bir tapşırığa yönəldərək səmərəli nəticə əldə etmələrinə imkan vermir. Onların hər dəfə başqa qrup daxilində işə cəlb edilmələrinin də dərsin səmərəsinə mənfi təsir göstərə biləcəyini nəzərə almaq vacibdir. Bundan əlavə, I siniflərdə qruplarla işin ayrı-ayrı elementlərindən istifadə etməklə tədricən şagirdlərdə qrup daxilində səmərəli fəaliyyət vərdişləri yaradılmalıdır. Qruplarla iş formasını seçərkən onlara sadə tapşırıqlar verilməlidir ki, həm sagirdlər tapşırıqları yerinə yetirə, qrup daxilində müəyyən qədər işlə-

mək təcrübəsi qazana bilsinlər, həm də onlarda təhliletmə qabiliyyəti inkişaf etsin.

Bundan sonra tədricən verilən tapşırıqların çətinlik dərəcəsini artırmaq, onları daha mürəkkəbləri ilə əvəz etmək olar. Bu, hər bir müəllimdən səbir və böyük ustalıq tələb edir.

***Mövzu:** S, s səsi və hərfi.*

***Standartlar:** 4.1.1; 2.2.1; 2.2.2*

***Məqsəd:***

- *S,s səsi və hərfini tanımağı və fərqləndirməyi öyrətmək;*
- *"S" səsini heca daxilində ayrıca tələffüz etməyi öyrətmək;*
- *"S" səsini hecalarda birləşdirib oxumağı öyrətmək.*

***Dərsin tipi:*** induktiv

***İş forması:*** kiçik qruplarda iş

***İş metodları və priyomları:*** müsahibə, əqli hücum, təqdimat

***Resurslar:*** kitab,karandaş, yazı taxtası, flipcart, marker, işçi vərəqləri, yapışqanlı kağız və s.

**Dərsin mərhələləri:**

***Motivasiya:*** problemin qoyulması (və ya problem–situasiyanın yaradılması)

Uşaqlara vatman kağızı üzərində yazılmış tapmaca oxunur:

Çiy olanda acıdır,
Sarımsaqla bacıdır.

– Kim bu tapmacanın açmasını deyər?

Fərziyyələr dinlənir və "soğan" cavabı alınır.

– Bu sözü tələffüz edərkən əvvəl hansı səsi eşidirik? (s *səsini.*)

***Tədqiqat sualı:***

– S səsini hansı əlamətlərinə görə fərqləndirmək olar? Bu səsin nə kimi xüsusiyyətləri var? Səsin deyilişi hansı səsin tələffüzünü xatırladır?

***Tədqiqatın aparılması:***

Şagirdləri hər birində 3-6 nəfər olmaqla qruplara ayırıram. Hər qrupa işçi vərəqi təqdim etdikdən sonra tapşırıqlar şagirdlərə izah olunur. Tapşırıqların yerinə yetirilməsinə 15 dəqiqə ayrıldığını şagirdlərin diqqətinə çatdırıram.

Şagirdlər işçi vərəqlərində təqdim olunan tapşırığı kiçik qruplarda müzakirə edərək yerinə yetirirlər.

***I qrup***

1. S, s hərfi işlənən sözləri seçərək, sözün əvvəlində, ortasında və axırında işlənməsinə görə qruplaşdırıb cədvələ yazın.

| *əvvəldə* | *ortada* | *axırda* |
|---|---|---|
| | | |

2. *Sərin, sap, asta, saat, Sona* sözlərini hecalara bölməklə uyğun sxemlərdə yerləşdirin, məsələn:

| | | | |
|---|---|---|---|
| *s* | *a* | *a* | *t* |

***II qrup***

1. Verilmiş mətni davam etdirin.

2. Çiçəyi sarı rənglə rəngləyin.

***III qrup***

1. Verilmiş cümlədəki sözlərdə buraxılmış hərfləri tapıb oxuyun. Bu sözlər arasında fərqi göstərin.

2. S səsinin necə səs olduğunu müəyyən edin.

***IV qrup***

1. *Ana, dayı, tar, ot, ata, baba, bibi, arı, un, nal, nənə, bala* sözlərindən dairə içərisində olan sözə uyğun olanlarını seçərək şaxələr üzrə yazın:




2. Buraxılmış hərflərin yerinə uyğun gələn hərf yazıb, sözləri oxuyun:

*...arı, sə...ət, sı...a, sa..., Sa...a*

***Məlumat mübadiləsi (15 dəqiqə):***

Hər bir qrup işini təqdim edərkən digər qruplar diqqətlə dinləyir, düzəliş verir, lazım gəldikdə əlavələr edir, təkliflər irəli sürürlər.

***Məlumatın müzakirəsi və təşkili:***

– S səsi necə səsdir?

– S səsini sözlərin harasında işlətmək olar?

– S səsi digər səslərdən nə ilə fərqlənir?

***Nəticə:***

Şagirdlərin diqqəti tədqiqat sualına yönəldilir. Siniflə birlikdə müzakirəyə yekun vurulur:

– S səsi samit səsdir.

– Sait səslərə qoşulduqda heca əmələ gətirir.

– S səsi eşidiləndə və tələffüz edəndə səs, yazıldıqda və gördükdə isə hərfdir.

– S, s səsi və hərfi sözün əvvəlində, ortasında və sonunda gəlir.

***Yaradıcı tətbiqetmə:***

Dərslik üzrə iş aparılır.

***Ev tapşırığı:***

S, s hərfi ilə başlanan beş adam adı yazın və onları cümlələrdə işlədin.

***Qiymətləndirmə:***

| *Meyarlar* | *I qrup* | *II qrup* | *III qrup* | *IV qrup* |
|---|---|---|---|---|
| Sait, samit səsləri fərqləndirir. | | | | |
| Sözləri hecalarla oxuyur. | | | | |
| Sözü cümlədə işlədir. | | | | |
| Əməkdaşlıq edir. | | | | |

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİNDƏ UŞAĞIN MÜŞAYİƏT DƏFTƏRİ

**Nərminə Alnağıyeva,**
Azərbaycan Respublikası Təhsil Nazirliyi məktəbəqədər təhsil sektorunun müdiri



Müşayiət yalnız uşaqların sağlamlığının qorunması və möhkəmləndirliməsi, onların təhsil və inkişafına xidmət edən şəraitin yaradılması deyil, eyni zamanda onların sağlamlığı, təhsili və inkişafı üzrə fərdi planlaşdırmanın işlənməsinə kömək edir.

Uşaq məktəbəqədər təhsil müəssisəsinə qəbul olunan andan onun üçün fərdi müşayiət dəftəri tərtib olunur. Müşayiət dəftəri uşaq haqqında tərbiyəçilər tərəfindən müntəzəm qeydlər aparılan, onun inkişafı və sağlamlığının keyfiyyəti və dinamikasını, fərdi xüsusiyyətlərini, mütəxəssislərin tövsiyələrini özündə əks etdirən fərdi sənətdir.

Müşayiət dəftəri beş bölmədən ibarətdir: sosial xarakterli məlumatlar; uşağın sağlamlığının vəziyyəti; uşağın psixoloji-pedaqoji statusu; fiziki-sağlamlaşdırıcı fəaliyyət; uşağın ümumi xarakteristikası və tövsiyələr.

I bölmə **"Sosial xarakterli məlumatlar".**

Bu bölməyə aşğıdakı bəndlərdən ibatər anketin doldurulması daxildir:

- Uşağın soyadı, adı, atasının adı.
- Doğum tarixi.
- Ünvanı, telefon nömrəsi (qeydiyyata görə, faktik yaşadığı yerə görə).
- Ailə tərkibi: ananın və atanın soyadları, adları, atalarının adları, doğum tarixləri, təhsilləri, iş yerləri və telefon nömrələri.
- Mənzil şəraiti.
- Uşağın getdiyi qrup: ümumi (kütləvi), loqopedik, sanator (lazım olanın altından xətt çəkmək).

I bölmənin doldurulmasına dair izahat və tövsiyələr:

Bu bölmə uşağın getdiyi qrupun tərbiyəçisi tərəfindən doldururlur. 4-cü bənddə uşaqla birlikdə yaşayan ailə üzvləri qeyd olunur. Ailənin sosial statusunu və ailə münasibətlərinin xarakterizə edən digər məlumatlar da bu bənddə öz əksini tpmalıdır, məsələn, ata ailə ilə yaşamır. 5-ci bənddə mənzil şəraiti qeyd olunur, məsələn, şəxsi ev, mənzil, otaq, yataqxana və s.

II bölmə **"Uşağın sağlamığının vəziyyəti".**

Bu bölməyə daxildir:

- Uşağın məktəbəqədər təhsil müəssisəsinə daxil olarkən həkimin müəyyən etdiyi diaqnoz.
- Ümumi somatik vəziyyət.
- Sağlamlıq qrupu.
- Fiziki mədəniyyət qrupu.
- Xüsusi məlumatlar.
- Uşağın qrupda və ailədə vacib olan şərtlərə riayət etməsi ilə bağlı tərbiyəçilərə və valideynlərə verilən tövsiyələr.

II bölmənin doldurulmasına dair izahat və tövsiyələr:

Bu bölmə tibb işçiləri tərəfindən doldurulur. 2-ci bənddə ya norma, ya da xroniki xəstəliklərin mövcudluğu qeyd olunur: məsələn, kəskin reseptor xəstəliklərə meyillilik. 5-ci bənd həkim tərəfindən doldurulur. Uşaq orqanizminin müəyyən qüsurları, məsələn, görməsi zəif və s. Bu və ya digər xəstəliklərə meyillilik. 6-cı bənddə uşağın xüsusi şəraitə ehtiyacı olması barədə tərbiyəçi və valideynlərə tövsiyələr verilir: məsələn, müəyyən fiziki hərəkətlərdən azad olunması.

III bölmə **"Uşağın psixoloji – pedaqoji statusu".**

Bu bölmədə aşağıdakı xarakteristikalar verilir.

1. *Psixi proseslərin xüsusiyyətləri:*
   yaddaş, diqqət, qavrama, təfəkkür, nitq fəaliyyəti.
2. *Emosional vəziyyətin xüsusiyyətləri:*
   narahatçılığın səviyyəsi; aqressiyanın səviyyəsi; özünüqiymətləndirmə.
3. *Ünsiyyətin xarakteristikası:*
   sosiometrik status; ünsiyyətqurmanın səviyyəsi.
4. *Təhsil proqramında verilən materilalların mənimsənilməsi səviyyəsi:*
   ətarf mühitlə tanışlıq; savad təlimi və nitqin inkişafı; sadə riyazi təsəvvürlərin formalaşması; musiqi fəaliyyəti; təsviri-incəsənət fəaliyyəti.
5. *Maraqları və üstünlük verdikləri nədir?*
6. *Hansı dərnəklərə gedir?*
7. *Davranış və ünsiyyət xüsusiyyətləri.*
8. *Xüsusi məlumatlar.*

III bölmənin doldurulmasına dair izahat və tövsiyələr:

1-3-cü bəndlər tərbiyəçi-psixoloq tərəfindən, nitq fəaliyyəti yarımbəndi tərbiyəçi-loqoped tərəfindən, 4-8-ci bəndlər qrup tərbiyəçiləri tərəfindən doldurulur. 4-cü bəndə başqa yarımbəndlər də əlavə edilə bilər. Bu, uşaqların yaş səviyyəsindən və məşğul olduqları bölmələrindən asılıdır (məsələn, erkən və ya kiçik qrup uşaqları üçün belə yarımbəndlər əlavə edilə bilər: "Motorikanın xüsusiyyətləri" və ya "Mədəni-gigiyenkik vərdişlər", "Özünəxidmət vərdişləri"). Bütün məlumatlar cədvəl 1-ə daxil edilir.

*Cədvəl 1*

**Uşaq haqqında psixoloji-pedaqoji məlumat**

| **xarakteristikalar** | **ilin əvvəlində Olan məlumat** | **ilin ortasında aparılan təhlilər barədə məlumat** | **ilin sonuna olan məlumat** | **tövsiyələr** |
|---|---|---|---|---|
| | | | | |

Cədvəlin axırıncı sütununda korreksiya-inkişafetdirici oyunlar və hərəkətlər, eyni zamanda onların kim tərəfindən həyata keçirilməsi qeyd olunur. Əgər

uşaqla fərdi və ya yarımqrupla korreksiya-inkişafetdirici məşğələlərin keçirilməsi zəruridirsə (məsələn, müəllim-loqoped və ya müəllim-psixoloq tərəfindən), bu məlumatlar da həmin sütuna daxil edilir.

8-ci bənddə uşaq haqqında xüsusi məlumatlar (məsələn, xoşagəlməz vərdişlərin mövcudluğu), çətinliklərin olması, formalaşmamış vərdişlər, uğurlar, nailiyyətlər və s., yəni təlim-tərbiyə prosesində nəzərə alınmlı məlumatlar göstərilir.

IV bölmə **"Fiziki mədəniyyət-sağlamlaşdırıcı fəaliyyət"** aşağıdakı bəndləri əhatə edir:

fiziki hazırlığın xarakteristikası; sağlamlaşdırıcı tədbirlər; xüsusi məlumatlar; tövsiyələr.

IV bölmənin doldurulmasına dair izahat və tövsiyələr:

Bu bölmə tərbiyəçi tərəfindən doldurulur. 1-ci bəndə dair məlumatlar cədvəl 2-də "Uşağın fiziki hazırlıq səviyyəsinin göstəriciləri" sütunda qeyd olunur. Uşağın hərəki bacarıqlarının və fiziki keyfiyyətlərinin inkişaf səviyyəsi hər bir uşaq üçün fərdi şəkildə qiymətləndirilir, yəni onun əvvəlki nəticələri nəzərə alınır. Tərbiyəçi cədvələ uşaqların hərəki fəallığının inkişafı və korreksiyası üzrə aparılan tədbirləri qeyd edir. 2-ci bənddə uşaqlarla aparılan sağlamlaşdırıcı qaçış, təzadlı vannalar və s. qeyd edilir. 3-cü bənndə tərbiyəçi xüsusi məlumatları, uşağın çətinliklərini və uğurlarını qeyd edir: məsələn, uşaq su prosedurlarından imtina edir və ya hər hansı əsas hərəkət növü üzrə gözəl göstərici nümayiş etdirir. 4-cü bənddə tövsiyələrin məzmunu şərh edilir, bu tövsiyələrin kim tərəfindən və kimə verildiyi qeyd olunur.

*Cədvəl 2*

**Uşağın fiziki hazırlıq səviyyəsinin göstəriciləri**

| **xarakteristikalar** | **göstəricilər** | | |
|---|---|---|---|
| | **ilin əvvəlində** | **ilin sonuna** | **korreksiya-inkişafetdirici fəaliyyət** |
| | | | |

V bölmə **"Uşağın ümumi xarakteristikası və tövsiyələr".** Bu bölmə, əsasən, tərbiyəçi tərəfindən digər müşayiətedici mütəxəssislərin rəyləri və tövsiyələri əsasında doldurulur.

Müşayiət dəftərinin bütün bölmələri tədris ilinin əvvəlində və sonunda hər bir yaş qrupunda yazılır. Lazım gəldikcə, il ərzində müəyyən düzəlişlər edilə bilər. Uşaq bir qrupdan digərinə keçirildikdə onun müşayiət dəftəri həmin qrupun tərbiyəçisinə təhvil verilir və uşağı müşayiət davam etdirilir.

Müşayiət dəftərində uşaq məktəbəqədər təhsil müəssisəsinə qəbul olunduğu andan məktəbə gedənədək onun haqqında olan məlumatlar toplanır. Sonda müşayiət dəftəri valideynə təqdim olunur. Valideynlər müşayiət dəftərini uşağın təhsil alacağı məktəbə təqdim edirlər.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA TƏBİƏTƏ MƏHƏBBƏT TƏRBİYƏSİ

**Mehriban Şirzadova,**
pedaqogika üzrə fəlsəfə doktoru

*Təbiətin uşaqlara göstərdiyi şən, güclü tərbiyəedici təsiri heç bir şey əvəz edə bilməz.*
***K.D.Uşinski***

***Açar sözlər:*** *təbiətlə tanışlıq, ekologiyanın qorunması, müşahidəçilik qabiliyyəti, təbiət hadisələri, su, hava, torpaq, günəş, oksigen, ekskursiya, əqli inkişaf.*

***Ключевые слова:*** *знакомство с природой, охрана окружающей среды, навыки наблюдения, природные процессы, вода, воздух, земля, солнце, кислород, экскурсия, психическое развитие.*

***Key words:*** *online nature, environmental protection, observation skills, mental development, natural processes, live-dead nature, water, air, oil, sunlight, oxygen, excursion.*



Məktəbəqədər yaşlı uşaqları hərtərəfli inkişaf etdirmək üçün, bəzilərinin düşündükləri kimi, onlara yalnız şeir əzbərlətmək, nağıl danışmaqla kifayətlənmək olmaz. Bu gün uşaqlarımız müşahidə aparmağı, müqayisə, təhlil etməyi, hər hansı əşya və hadisəyə münasibət bildirməyi, müstəqil rəy söyləməyi və ümumiləşdirməyi bacarmalıdırlar. Uşaqların dünyagörüşünün genişlənməsində təbiətlə tanışlığın müstəsna rolu vardır.

Məktəbəqədər təhsil müəssisələrində ən mühüm vəzifələrdən biri uşaqlarda təbiətə qayğıkeş münasibətin formalaşdırılmasıdır. Onların təbiət hadisələri ilə tanış edilmələri hər şeyi öyrənməyə daxili ehtiyac yaradır. Təbiətlə tanışlıq zamanı uşaqların müşahidəçilik qabiliyyəti artır, lüğət ehtiyatı zənginləşir. Uşaq təbiətdəki gözəlliyi gördükdə onun haqqında danışmağa can atır. Beləliklə onların rabitəli nitqi inkişaf edir. Doğma təbiətdə baş verən dəyişiklikləri görmək, onların səbəbini axtarmaq, təbiəti dərk etmək, onun gözəlliyini duymaq, ondan həzz almaq qabiliyyəti uşaqlarda məktəbəqədər yaş dövrünün ilk mərhələlərindən inkişaf etməyə başlayır.

Uşaqların müşahidəçilik qabiliyyətinin inkişafı isə, K.D.Uşinskinin dediyi kimi, onların əqli inkişafında mühüm rol oynayır. Məhz buna görə də tərbiyəçilər gəzinti və ekskursiyalardan geniş surətdə istifadə edirlər. Onlar eyni bitkinin hər bir fəsildə necə dəyişdiyini uşaqların nəzərinə çatdırırlar. Bu məqsədlə eyni bitki üzərində bütün fəsillərdə onların müşahidələrini təşkil edir, bununla uşaqlarda ümumiləşdirmə, əqli nəticə çıxarma qabiliyyətlərinin inkişafı üçün təməl yaratmış olurlar. Nəhayət, uşaq ümumi nəticəyə gəlir

ki, ağac payızın sonunda saralmış yarpaqlı, qışda çılpaq budaqlı, yazda tumurcuqlu, çiçəkli, yarpaqlı, yayda, payızın əvvəlində isə meyvəli olur. Uşaqlarda bu cür müşahidəçiliyin yaradılması üçün tərbiyəçi müntəzəm, ardıcıl iş aparmalıdır.

Çiçəklərin və meyvələrin rəngi, forması, ətri, quşların nəğməsi, xəzəlin və qarın ayaq altında xışıldaması – bütün bunların hamısı uşağın təbiəti hiss etməsinə imkan yaradır, onların bədii tərbiyəsi üçün zəngin material verir. Canlı təbiət guşəsində, parkda, bağda, zooparkda, heyvanları müşahidə etmək uşaqları fərəhləndirir, onlarda şən əhvali-ruhiyyə yaradır.

Bağça illərində uşaqlar sadə həyat həqiqətləri ilə tanış edilməli, təbiət hadisələri haqqında, cüzi də olsa, məlumatlandırılmalıdırlar. Bu barədə məlumatlar ana dili, təsviri fəaliyyət və təbiət məşğələləri zamanı verilir, uşaqlar üçün maraqlı olan söhbətlər aparılır. Bağçamızda uşaqların ağac və çiçəklərlə tanış edilmələrinə dair apardığımız bir neçə məşğələni nümunə göstərək:

**Proqram məzmunu:**

Uşaqların ekoloji tərbiyəsini inkişaf etdirmək. Doğma təbiətə maraq və məhəbbət hissləri tərbiyə etmək. Canlı-cansız təbiət haqqında təsəvvürləri möhkəmləndirmək. Flora və fauna haqqında bilikləri genişləndirmək.

**Təchizat:**

Canlı və cansız təbiətə aid nümunələr. Canlı təbiət: otaq bitkiləri, vəhşi və ev heyvanları təsvir olunmuş şəkillər. Cansız təbiət: daş, günəş, torpaq, su, bulud və s. təsvir olunmuş şəkillər. Göygöz Kosanın libası, təbiət səsləri yazılmış disk.

**Məşğələnin gedişi:**

Uşaqların bəziləri gülləri sulayır, bəziləri ağacların yarpaqlarını silir və s. Göygöz Kosa gəlir.

Göygöz Kosa:

– Bu nədir, görəsən? Burada nə baş verir? Uşaqlar burada nə edirlər? Siz burada neyləyirsiniz?

Tərbiyəçi:

–Göygöz Kosa, bizim uşaqlar burada təcrübə aparır, təbiətin sirlərini öyrənirlər.

Göygöz Kosa gülür :

– Mən 100 ildir təcrübə aparıram, təbiətin sirlərini hələ də öyrənə bilməmişəm, bu bir parça uşaqlar nə öyrənəcəklər?

Tərbiyəçi:

– Sən nə danışırsan, ay Göygöz Kosa? Sən lap Nuh əyyamında qalmısan ki. İndi əsrimiz kosmos, kompyuter əsridir. Bax, bu düyməni basmaqla bü-

tün dünyadan xəbər tutmaq olar. Bizim uşaqlar artıq bu texnika ilə də işləməyi bacarır, təbiətin sirlərini öyrənirlər.

Göygöz Kosa:

– Sirlərini öyrənirlər? Hər şeyi bilirlər? Mən sizə inanmıram. Mən indi gedirəm. Öz sehrli güzgümün köməyi ilə buradakı hadisələri izləyəcəyəm. Sizə öz suallarımı göndərəcəyəm. Suallara düzgün cavab tapmasanız, sizi də, uşaqları da daşa döndərəcəyəm.

Tərbiyəçi:

– Uşaqlar, Göygöz Kosa yaman hirsləndi, qəzəbləndi. O elə bilir ki, siz heç nə bilmirsiniz. Gərək biz çox diqqətli olaq, fikrimizi bir yerə cəmləyərək onun göndərdiyi suallara düzgün cavab verək. İndi isə, uşaqlar, Göygöz Kosa suallarını göndərincə sizə ekologiya haqqında danışmaq istəyirəm. Ekologiya nədir? Gəlin bu sözü aydınlaşdıraq. Ekologiya bizi əhatə edən hava, su, torpaq, meşələrimiz, çaylarımız – bir sözlə, təbiətdir. Bizim hər birimiz özümüzə belə bir sual verə bilərik: sən doğma təbiəti qorumaq üçün nə etmisən? Uşaqlar, təbiət bizim ümumi evimizdir. Bu evdə yaşayan hər kəs təbiətin qorunması üçün əlindən gələni etməlidir. Mənasız görünən adi bir ağacda bizim rahat nəfəs almağımız üçün böyük rol oynayır. O, insan orqanizmi üçün zərərli olan karbon qazını udur, əvəzində bizi təmiz oksigenlə təmin edir. Uşaqlar, biz hava ilə nəfəs alırıq, bizim udduğumuz hava gözə görünürmü?

Uşaqlar:

– Xeyr!

Tərbiyəçi:

– Onda gəlin, bunu sübut edək. Hər bir insan orqanizmində hava var. (Uşaq şarı üfürür)

Tərbiyəçi:

– Uşaqlar, biz şarı nə ilə doldurduq?

Uşaqlar:

– Hava ilə.

Tərbiyəçi:

– İndi isə gəlin havanı buraxaq, görək, nə baş verəcək? Görürsünüz, hava çıxandan sonra onun ətrafında da hava olduğu üçün şar fırlanıb, yerə düşdü. (2 uşaq gəlir yaylığın uclarından tutaraq, qaldırıb, endirirlər). Görürsünüzmü, yaylığın ortası hava ilə doldu və ətrafında da hava qatı olduğu üçün yaylığı astaca yerə endirdi. İnsan orqanizmində də hava vardır. Bax, bu udduğumuz havanı çirkləndirmək olmaz, çünki çirkli hava hər bir canlı orqanizmi zəhərləyə bilər və bizi xəstələndirər.

Tərbiyəçi suyu göstərərək uşaqlardan soruşur:

– Stəkandakı nədir?

Uşaqlar:

– Sudur.

Tərbiyəçi:

– Suyun əlamətlərini kim sayar?
Uşaqlar:
– Suyun bir tərəfindən baxanda, o biri tərəf görünür.
– Su rəngsizdir.
– Şəffafdır, durudur.
– Su dadsızdır.
Tərbiyəçi:
– İnsanlar necə suyu içirlər?
Uşaqlar:
– Təmiz suyu.
Tərbiyəçi uşaqlara iki qabda su göstərir:
– Bu, təmiz sudur, bu isə çirkli. Balıq necə suda yaşayar?
Uşaqlar:
– Təmiz suda.
Tərbiyəçi:
– Uşaqlar, təbiətdə bizim ətrafımızda kimlər yaşayır?
Uşaqlar:
– İnsanlar, heyvanlar, quşlar, böcəklər.
Tərbiyəçi:
– Afərin! Bu canlıların hər biri təbiəti daha da gözəlləşdirir. Əgər dənizlərin, çayların suyunu çirkləndirsək, nə baş verər?
Uşaqlar:
– Balıqlar məhv olar.
Tərbiyəçi:
– Düzdür. Suda yaşayan bütün canlılar məhv olar. Çəməndə çiçəkləri məhv etsək, kəpənəklər yoxa çıxar, arılar şirə toplamaq üçün çiçək tapmaz. Təbiətin nizamı pozular. Kim mənə təbiət ünsürlərini göstərər? (Uşaqlar gəlib göstərirlər: su, torpaq, günəş, bulud).
Tərbiyəçi:
– Gəlin təsəvvür edək ki, günəş var, torpaq var, bulud var (uşaq suyun şəklini götürür), amma su yoxdur. Onda fikirləşək, görək nələr baş verəcək? Biz susuz yaşaya bilərikmi?
**Uşaqlar:**
– Su olmasa, susuzluqdan yanarıq, ağaclar, heyvanlar, balıqlar olmaz. (Uşaq günəşi götürür.)
Tərbiyəçi:
– Günəş yoxdur. Günəşsiz bu dünyanı təsəvvür etmək mümkündürmü?
Uşaq:
– Günəş olmasa, hər yan qaranlıq olar, soyuqdan donarıq, bitkilər olmaz, canlı təbiət məhv olar. (Uşaq torpağı götürür.) Torpaq olmasa, əkib-becərə bilmərik və acından ölərik, bitkilər bitməz, heyvanlar olmaz.

Tərbiyəçi:

– Deməli, bizim təbiətdə yaşamağımız üçün bu ekoloji amillərin rolu böyükdür. Biz təbiətin hər daşının, hər qarış torpağının qədrini bilməli, onu qorumalıyıq. Bu amillərdən biri olmadan təbiəti təsəvvür etmək mümkün deyil. Bu amillər hamısı bir-biri ilə sıx bağlıdır.

Tərbiyəçi:

– Yaxşı, uşaqlar, indi kim deyər: təbiət neçə hissəyə bölünür?

Uşaqlar:

– İki hissəyə: canlı və cansız təbiət.

Tərbiyəçi:

– Afərin, uşaqlar. Yaxşı, bəs canlı təbiət neçə hissəyə bölünür?

Uşaqlar:

– Bitkilər və heyvanlar aləminə.

– Doğrudur, uşaqlar. Bitkilər aləminə *flora*, heyvanlar aləminə *fauna* deyilir. Uşaqlar, indi ki, siz təbiətin neçə hissəyə bölündüyünü tapdınız, gəlin biz də iki komandaya bölünək. Bir komandanın adı bitkilər aləmi, yəni «Flora», o biri komandanın adı isə heyvanlar aləmi – «Fauna» olsun. Bu cür biz Göygöz Kosanın suallarına daha tez cavab tapa bilərik.

(Bu vaxt qapı döyülür, içəri bir qutu gətirirlər.)

Tərbiyəçi:

– Bu qutuda müxtəlif əşyalar var. Siz bunların əlamətlərini sadalamaqla onların nə olduğunu tapmalısınız.

1. O çox bərkdir, ağırdır, müxtəlif formada olur, ondan hasar, ev tikirlər.

Uşaqlar:

– Daş.

Tərbiyəçi:

2. O nədir ki, şəffafdır, rəngsizdir, dadsızdır, onsuz həyat yoxdur?

Uşaqlar:

– Su.

Tərbiyəçi:

3. O nədir ki, səhər çıxır, axşam batır? Öz hərarəti ilə həm təbiəti yaşadır, həm də məhv edir?

Uşaqlar:

– Günəş.

Tərbiyəçi:

– Düzdür, uşaqlar, baxmayaraq ki, Günəş bütün canlılara həyat verir, onun istisi həddindən artıq olsa, hər yeri yandırar. Afərin, uşaqlar, Göygöz Kosanın suallarına düzgün cavab tapdınız. Yaxşı, bəs bu tapdığınız cavablar hansı təbiətə aiddir?

Uşaqlar:
– Cansız təbiətə.

Qapı açılır, Göyərçin uça-uça gəlir:
– Bunu sizə Göygöz Kosa göndərib.

Tərbiyəçi:
– Bu nədir belə, ay uşaqlar? O bizi çaşdırmaq istəyir. Uşaqlar, diqqətli olun.

Bunlardan hansı canlı təbiətə aiddir?
1 – Torpaq, daş, it. (cavab – it)
2 – Günəş, insan, ay. (cavab – insan)
3 – Dəniz, ağac, səma. (cavab – ağac)

Tərbiyəçi:
– Uşaqlar, bəs bu tapdığınız cavablar hansı təbiətə aiddir?

Uşaqlar:
– Canlı təbiətə.

Tərbiyəçi:
– Yaxşı, uşaqlar, bayaqdan deyirik: canlı təbiət, cansız təbiət. Bəs bu canlı, cansız təbiətin bir-birindən fərqi nədir? O şey ki, nəfəs alır, qidalanır, böyüyür, inkişaf edir, artır, məhv olur, canlı təbiətə aiddir. Hərəkət etmirsə, nəfəs almırsa, qidalanmırsa, böyümürsə, artmırsa, məhv olmursa, deməli, cansız təbiətə aiddir.

Bu vaxt Qarğa gəlir:
– Bunu sizə Göygöz Kosa göndərib. (Kartoçkaları verir.)

1-ci test. İt, at, tülkü, pişik – bunlardan hansı vəhşi heyvandır? (tülkü)
2-ci test. Canavar, ayı, pişik, pələng – bunlardan hansı ev heyvanıdır? (pişik)
3-ci test. Vəhşi heyvanlar və ev heyvanlarının bir-birindən fərqi nədir?

Uşaqlar:
– Vəhşi heyvan meşədə, çöldə yaşayır, özü qidalanır, yırtıcı olur, yəni başqa canlılara hücum çəkir, ətini yeyir. Ev heyvanları həyətlərdə, evlərdə yaşayır, insanlar onlara qulluq edir. Onlar insanlara xeyir verirlər.

4 - cü test. Hansı heyvan nə ilə qidalanır (kartoçkaları qoymaq)?
5 - ci test. Ev heyvanları insanlara nə kimi xeyir verir?

Uşaqlar:
– Onların ətini, yumurtasını yeyir, yunundan paltar, südündən yağ, pendir hazırlayırıq.

**İdman dəqiqəsi:** «Evsiz dovşan».

Arı və Kəpənək mücrü gətirirlər.
– Bəh-bəh, bura nə gözəldir?! Gör necə gözəl ağaclar, güllər, çiçəklər var?! Görəsən, bura haradır belə?

Tərbiyəçi:

– Bura bizim bağçamızdır. Gördüyünüz bu ağaclara, güllərə bizim uşaqlar qulluq edirlər.

Kəpənək:

– Bəs sizin uşaqlar bizim haqqımızda şeir, mahnı bilirlər?

Tərbiyəçi:

– Əlbəttə, bilirlər. Siz özlərindən soruşun.

Uşaq:

Əsdi küləklər,
Soldu çiçəklər.
Uçdu baharda
Ağ kəpənəklər.

Göygöz Kosa gəlir:

– Uşaqlar, bayaqdan sehrli güzgünün köməyi ilə sizi seyr edirdim. Siz məni heyran etdiniz. Mən indi başa düşdüm ki, iş yaşda deyil, başdadır. Siz təbiətin çox sirrini açmısınız. Mən istəyirəm ki, siz təkcə təbiətin sirlərini öyrənməklə kifayətlənməyəsiniz, həm də onu sevəsiniz, qoruyasınız, qayğı göstərəsiniz.

Tərbiyəçi:

– Göygöz Kosa, bizim uşaqlar təbiəti çox sevirlər, qayğısını çəkirlər, gördüyünüz bu bağ-bağçanı salmaqda da onlar bizə kömək ediblər.

Mahnı:

Bizim gözəl bağçamıza,
Bizim gözəl bağçamıza
Qonaq gəlin, ay uşaqlar!
Ay uşaqlar, ay uşaqlar,
Görün bizim bağçamızda
Var nə qədər oyuncaqlar!

## Bağçamızın oranjereyasına ekskursiya

**Məqsəd:** Uşaqları oranjereyadakı bitkilərin inkişafı ilə tanış etmək.

**Vəzifələr:** Oranjereyada böyüyən bitkilər haqqında təsəvvürləri genişləndirmək (onların müxtəlifliyi, qulluq və s.), bitkiləri müşahidə etmək və

onlara maraq oyatmaq, güllərin gözəlliyini uşaqların nəzərinə çatdırmaq və onları qorumağın vacibliyini başa salmaq.

Uşaqlar böyüklərlə birlikdə oranjereyaya gedir, güllərə baxır, bəzilərini tanıyırlar (qızılgül, qərənfil, nərgiz). Hər birinin özünəməxsus qoxusu olduğunu öyrənirlər. Çiçəklərə aid şeir deyir və mahnı oxuyurlar. Sonra tərbiyəçi güllərdə olan fərqli və ümumi əlamətləri söyləməyi uşaqlardan xahiş edir. Güllərə qulluq etməyi öyrədir. Qrupa qayıtdıqdan sonra tərbiyəçi uşaqlardan xoşladıqları gülün şəklini çəkməyi xahiş edir.

## Maket «Meşədə»

Bağçamızda nağılları əks etdirən maketlər düzəltmişik. Bu maketlərin səhnəsi fırlandıqca tərbiyəçi baş verən hadisələri uşaqlara danışır. Uşaqlar sevimli nağıllara («Qoğal», «Qırmızıpapaq», «Maşa və ayı», «Cırtdan», «Şəngülüm, Şüngülüm, Məngülüm») qulaq asmaqla bərabər meşədə bitən ağac, kol və bitkilərlə də tanış olurlar. Tərbiyəçi, yeri gəldikcə, bu ağac və bitkilər haqqında məlumat verir, onların xeyrindən danışır, sonra isə nağılı davam etdirir. Səhnə fırlandıqca uşaqlar hadisələri maraqla izləyirlər.

## Ədəbiyyat

1. Селский детский сад. Москва, «Просвещение», 1972.
2. Труд и наблюдения в природе. Москва, «Просвещение», 1967.
3. Смоленская Р.И. Участок детского сада. Москва, «Просвещение», 1977.
4. «Дошкольное воспитание». 2010, № 4.

## Воспитание любви к природе у детей дошкольного возроста

### Резюме

В статье раскрываются требования, предъявляемые развитию детей дошкольного возраста. Конкретными примерами указывается воспитание чувства любви к природе у детей дошкольного возраста. Указываются методы и приемы, влияющие на формирование естетического вкуса детей дошкольного возраста.

## Education of love to nature at children of preschool age

### Summary

In artical the requirements, that present to development of children of preschool age are describe. The concrete examples indicate the education of feeling of love to nature at children of preschool age. The methods influencing on formation of aesthetis taste at children of preschool age are defined.

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏDƏ ƏTRAF ALƏMLƏ TANIŞLIQ ÜZRƏ İŞİN SİSTEMİ

**Almaz Adışirinova,**
AMİ – nin Şəki filialının kredit kabinetinin müdiri



***Açar sözlər:*** *ətraf aləm, intensiv və məhsuldar dövr, harmonik inkişaf, cansız təbiət, canlı təbiət, əqli inkişaf xüsusiyyətləri, təhlil etmək, nəticə çıxarmaq, gigiyena qaydaları.*

***Ключевые слова:*** *окружающий мир, интенсивныйи продуктивный период, гармоническое развитие, живая природа, особенности интеллектуальной развитии, проанализировать, сделать выводы, правила гигиены.*

***Key words:*** *environmental world, the intensive and productive life, the harmonious development and sluggish nature, live nature,the development ofintellectual properties, to analyze,infer, hygiene.*

Ölkəmizdə demokratik, dünyəvi təhsil quruculuğu istiqamətində həyata keçirilən və real nəticələr verən islahatların məqsədi Avropa təhsil sisteminin mütərəqqi cəhətlərini məqsədyönlü şəkildə – milli düşüncə tərzini, mənəvi dəyərləri, sosial problemləri nəzərə almaqla təhsilimizə gətirməkdir.

Əsrimiz rəqabətədözümlü, dövrün tələbləri ilə ayaqlaşan, hərtərəfli marağa və yüksək intellektə malik, müstəqil düşünməyi bacaran, yaradıcı, təşəbbüskar insanlar tələb edir. Təhsilin ilk pilləsi olan məktəbəqədər təhsil altıyaşlıları məktəb təliminə hazırladığından bu reallıqlardan kənarda qala bilməz, çünki bu yaş mərhələsi uşaqların inkişafının ən intensiv və məhsuldar dövrü olub, onun şəxsiyyət kimi yetişməsinin əsasını təşkil edir. İnsanın sonrakı həyatı üçün zəruri olan bilik, bacarıq, vərdişlərin, xarakterik keyfiyyətlərin əsası qoyulur. Uşaqlar böyük inkişaf yolu keçir, fərdi fərqlər tədricən özünü göstərir, psixi inkişaf sürətlənir, öyrənmə və biliklərin toplanması prosesi təkmilləşir, maraq, tələb, ehtiyaclar yaranır. Məhz bu dövrdə qazanılan fiziki, psixoloji və sosial imkanlar uşaqların inkişafının əsas göstəricisinə çevrilir və onların məktəb təliminə hazırlığını təmin edir. Cəmiyyətin ən kiçik üzvlərinin elmə, texnikaya marağı, həyata dəyişən münasibəti, onu dərindən dərk etmək istəyi məktəbəqədər təhsili müasir cəmiyyətin maraqlarına uyğunlaşdırmaq zərurəti yaradır, onlara daha ciddi münasibət tələb olunur.

Bu baxımdan məktəbəqədər təhsilin yenidən qurulması məqsədilə kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin 12 aprel 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi proqramı" islahatların həyata keçirilməsi istiqamətində real nəticələr əldə olunacağına böyük ümidlər verir.

Proqramın əsas istiqamətlərindən biri məktəbəqədər təhsilin məzmunca yeniləşməsi məsələsidir ki, bu da öz növbəsində milli kurikulumun və müvafiq proqramların hazırlanması, yeni forma və texnologiyaların tətbiqi tələbini qoyur. Uşağın şəxsiyyət kimi formalaşmasını, onun təlimin subyektinə çevrilməsini məqsəd hesab edən, fəallığı, müşahidəçiliyi, tədqiqatçılığı inkişaf etdirən, fəal, yaradıcı düşüncə tərzini, biliklərə müstəqil yiyələnmə qabiliyyətini aşılama yollarını əhatə edən yeni sistemin yaradılması ehtiyacı özünü aydın göstərir.

Məktəbəqədər təhsilin yeniləşməsi ilk növbədə uşaqlara veriləcək bilik, bacarıq və vərdişlərin həcmini müəyyənləşdirən proqram materiallarının müasirlik nöqteyi-nəzərindən məzmunca təkmilləşməsi səviyyəsi ilə ölçülür. Milli proqramın aparıcı bölmələrindən biri hesab edilən ətraf aləmlə tanışlıq gündəlik həyatla, təbiət və cəmiyyət hadisələri ilə bağlı olduğundan müasir dövrün daim dəyişən, yeniləşən xarakteri, davamlı inkişafı nəzərə alınaraq işlənilmişdir.

Uşaqlara təbiət və cəmiyyətlə bağlı sosial biliklər və həyati bacarıqlar aşılayan, real elmi dünyagörüşü elementləri formalaşdıran ətraf aləmlə tanışlığın məktəbəqədər təhsil sistemində xüsusi yeri var. Məktəbəqədər yaşlı uşaqların inkişafında mühitin rolu bu yaş dövrünün özünəməxsus xüsusiyyətləri ilə bağlıdır. Hələ oxumağı və yazmağı bacarmayan bu uşaqların dünya ilə ilk tanışlığı onlar üçün yeganə bilik mənbəyi olan ətraf mühitdən başlayır. Uşaqların gün ərzində naməlum əşya və hadisələrlə qarşılaşmaları qaçılmazdır. Onlarla tanışlıq uşaqları tədricən yaşadıqları canlı həyata daxil edir. Adətən, uşaqlar onlara yaxın şeylərlə tanışlığa can atır, sadə uşaq marağından irəli gələn, öyrənmə həvəsinin təzahürü olan çoxlu suallar verirlər. Uşaqların hadisələri düzgün qiymətləndirməkdə, səbəb-nəticə əlaqələrini başa düşməkdə çətinlik çəkdiklərini nəzərə alaraq onların sualları yetərincə aydın cavablandırılmalıdır. Tərbiyəçi uşaqları narahat edən məsələlərə aydınlıq gətirməli, fakt və məlumatların ayırd edilməsində yardımçı olmalıdır. Öyrənmə prosesində biliklərin genişlənməsi və zənginləşməsi uşaqlara gerçəkliyi düzgün, həyati, elmi, estetik şəkildə qavramaq imkanı verir.

Həyatın birinci altı ilində təlim fəaliyyətinin ilkin elementləri yaranır, uşaqlarda ətraf aləmə bələd olmaq səyi, şəxsi fəallıq özünü göstərir. Təlim tədricən sosial təcrübənin mənimsənilməsinin, biliklərin dəqiqləşməsinin və genişlənməsinin əsas amilinə çevrilir. Uşaqlar onları əhatə edən mikromühitlə bağlı zəruri məlumatlar əldə edir, təkcə görünən və hiss olunan əlaqə və münasibətləri deyil, gizli, qapalı cəhətləri ayırd etməyi də öyrənirlər. Həyatdan aldıqları məlumatlar böyüklərlə ünsiyyətdə aydınlaşır və təkmilləşir.

Daha çox praktikyönümlü tanışlıq işləri uşaqların əqli inkişaf səviyyələrinə, dərketmə imkanlarına uyğun, yerli şərait, regional xüsusiyyətlər, milli-mənəvi dəyərlər, daxili imkanlar əsas götürülməklə planlaşdırılır. Öyrəniləcək material mövsümə və vaxta görə elə bölüşdürülməlidir ki, uşaqlar bilikləri müəyyən olunmuş sistem üzrə, ardıcıl və əlaqəli formada mənimsəyə bilsinlər.

Ətraf aləmlə tanışlığın vəzifələri aşağıdakılardır:

• ətraf aləmi bütün gözəlliyi və zənginliyi ilə uşaqlara çatdırmaq, təbiət və cəmiyyət haqqında təsəvvürləri zənginləşdirmək, düzgün münasibət tərbiyə etmək;

• uşağı milli-mənəvi dəyərlərlə tanış etmək, uşaq şəxsiyyətinin milli ruhda tərbiyəsini, harmonik inkişafını təmin etmək;

• ictimai mühitlə tanışlıq, ətraf mühitə bələdliyi artırmaq;

• insanlararası münasibətlərin formalaşdırılmasına, uşaqlarda ünsiyyət mədəniyyətinin, sadə əmək vərdişlərinin tərbiyəsinə nail olmaq.

Təlim-tərbiyə prosesində qazanılmış təsəvvür və biliklər uşaqların şüurunda əhatə olunduğu canlı və cansız aləmin vahid, bütöv, bölünməz obrazını yaradır. Ətraf aləmlə bağlı biliklər təbiəti baxımından bir-biri ilə mütləq şəkildə əlaqədardır. Əsas məqsəd uşaqlara naməlum olanları görmək, təbiət, cəmiyyət hadisələrini anlaya bilmək, dərk etmək,onlara münasibət bildirmək, dəyişən şəraitə tez uyğunlaşmaqda yardım etməkdir.

Məktəbəqədər müəssisələrdə ətraf aləmlə tanışlıq işi iki istiqamətdə gedir:

1. Təbiətlə tanışlıq:

a) Cansız təbiətlə tanışlıq:

– ekoloji amillərlə ;
– təbiət hadisələri ilə;
– fəsli dəyişikliklərlə;
– vaxt anlayışı, günün hissələri, həftənin günləri, ilin fəsilləri ilə.

b) Canlı təbiətlə tanışlıq:

– bitkilərin növləri, onların təsnifatı ilə;
– heyvanların növləri, onların təsnifatı ilə.

2. Ətraf mühit və ictimai həyat hadisələri ilə tanışlıq:

a) Ətraf mühitlə tanışlıq:

– məişət və məişət əşyaları, əmək və əmək alətləri ilə;
– ərazi, uşaq bağçası, küçə, kənd, qəsəbə, şəhər, respublika ilə;
– ailə, qohumluq əlaqələri, uşaq bağçasının əməkdaşları ilə;
– ictimai binalar, nəqliyyatın növləri, küçə hərəkəti qaydaları ilə.

b) İctimai həyat hadisələri ilə tanışlıq:

– doğma diyar, xalqın tarixi, dili, dini;
– dövlət, dövlət rəmzləri, dövlət xadimləri, ictimai-siyasi hadisələrlə;
– xalq qəhrəmanları, milli qəhrəmanlar, Milli Ordu ilə;
– milli-mənəvi dəyərlər, bayram və mərasimlərlə;
– peşə, sənət, milli xalq sənəti, yaşlıların əməyi ilə

Ən güclü bilik mənbəyi olan ətraf aləmlə tanışlığın səciyyəvi cəhəti onun yalnız qrup daxilində, təlim prosesində deyil, həm də binadan kənarda – uşaqların gündəlik həyatı və fəaliyyəti ilə birgə öyrənilməsi, gün rejimi əsasında tənzimlənməsidir. Uşaqlar tərbiyəçi ilə birgə ətraf aləmin tədqiqatçısına çevrilir, dünyanı başa düşməyin, bilik və təcrübəni reallaşdırmağın yollarını öyrənir, əsrlər boyu qazanılmış elmi biliklərə, ictimai-tarixi təcrübəyə yiyələnirlər.

Təlim prosesinin istiqamətinin, məqsəd və məzmununun, tərbiyəçi–uşaq münasibətlərinin müəyyənləşdirilməsində başlıca amillərdən biri olan prinsiplərin düzgün seçimi də uğurlu nəticəni təmin edən cəhətlərdən biridir. Proqram materialı iki prinsipə əsasən müəyyənləşdirilir:

– uşaqların əqli inkişaf xüsusiyyətlərinin və biliklərə yiyələnmə imkanlarının nəzərə alınması;

– təbiət və cəmiyyət hadisələri haqqında təsəvvürlərin uşaqların yaşadıqları mühitlə, milli-mənəvi dəyərlərlə əlaqəli aşılanması.

Uşaqların psixoloji durumu, diqqətin ixtiyariliyi, sabitliyi, davamlılığı, həcmi, duyğu, qavrayış, hafizənin yaşa uyğun vəziyyəti, nitq və təfəkkürünün inkişaf səviyyəsi diqqət mərkəzində saxlanılmalı, təlim prosesinin mütəhərrikliyini təmin edən iş formaları, təlim texnologiyaları seçilməli, hər bir uşağa özünütəsdiq imkanı yaradılmalıdır.

Pedaqoji prosesin keyfiyyət və səmərəliliyi proqram tələbləri və müasirlik baxımından düzgün, savadlı planlaşdırmadan da çox asılıdır. Plan iş sistemi üzrə proqram bölmələri, təlim və fəaliyyət növləri arasında məntiqi əlaqəni təmin etməli, qrupun maraq və imkanlarına görə real olmalı, həyata keçirilmə yollarını müəyyən vaxt çərçivəsində əhatə etməlidir. Eyni zamanda məktəbəqədər yaş dövrü üçün xarakterik fiziki və psixi inkişafın intensivliyi, fəaliyyətin müxtəlifliyi və dinamikliyi, tərbiyəedici imkanlar, fərdi fərqlər ön plana çəkilməlidir.

Təlim prosesinin elmi-didaktik baxımdan düşünülmüş formada təşkili məqsədilə tərbiyəçi ilk növbədə aşağıdakı cəhətlərə diqqət yetirməlidir:

- müasir tələblərə cavab verən məzmun;
- məqsədin müəyyənləşdirilməsi, təlim yükünün uşaqların imkanlarına uyğunluğu;
- uşaqların psixofizioloji və yaş xüsusiyyətlərinin, fərdi fərqlərinin, potensial imkanlarının, meyil, maraq və ehtiyaclarının təhlili və nəzərə alınması;
- intellektual səviyyənin və ilkin təcrübənin müəyyənləşdirilməsi;
- metod, vasitə, iş və qiymətləndirmə formalarının məqsədəuyğunluğu və müasirliyi;
- proqramın bölmələri arasında əlaqə;
- mövzunun sosial mühit və təcrübə ilə əlaqələndirilməsi;
- dəstəkləyici təlim mühitinin yaradılması;
- tərbiyəçi–uşaq münasibətləri, birgə fəaliyyətin şəxsiyyətyönümlü və nəticəyönümlü model əsasında qurulması;
- vaxtdan səmərəli istifadə olunması.

Bütün yaradıcılıq səyləri ilk növbədə yeni pedaqoji yanaşmaları və təlim metodlarını əks etdirən iş sisteminin yaradılmasına yönəldilməlidir. Ətraf aləmlə tanışlıq üzrə iş gün rejiminə əsasən təlim və müxtəlif xarakterli fəaliyyət növlərində aparılır. Uşağın əhatəsində olduğu hər bir hadisə, canlı-cansız obyekt

tanışlıq işi üçün mövzu ola bilər. Eyni mövzunu müxtəlif formalarda və fərqli yollarla öyrətmək mümkündür.

1. Təlim:

– qrup daxilində məşğələ;

– binadan kənarda məşğələ (ekskursiya).

2. Fəaliyyət növləri:

– məqsədli gəzinti;

– oyun (didaktik, rollu-süjetli, su və qum ilə);

– əmək (məişətdə, canlı guşədə, təbiətdə);

– asudə vaxt (kitab oxumaq, kino, təbiət və məişət bayramları, mövsümi əyləncələr, təbiət materialları ilə yaradıcılıq fəaliyyəti).

Ətraf aləmlə tanışlıq nəticəsində uşaqlar hadisələrə münasibət bildirməyi, təhlil etməyi, nəticə çıxarmağı, fərziyyələr irəli sürməyi, təbiətdəki müxtəlif səsləri eşitməyi, fərqləndirməyi, gözəllikləri qiymətləndirməyi və zövq almağı öyrənirlər. Ətraf aləmlə tanışlıq prosesində uşaqlar insanlararası və ailədaxili münasibətləri başa düşür, davranış normalarına, gigiyena qaydalarına riayət etməyə alışır, milli-mənəvi və ümumbəşəri dəyərlərə bələd olur, onlara hörmətlə yanaşırlar. Canlı və cansız təbiətin insan həyatında rolunu dərk edən uşaqlarda onu mühafizə etmək arzusu yaranır.

İctimai həyat hadisələri ilə tanışlığa həsr olunmuş məşğələ.

**Mövzu:** "Taxılçıların əməyi"

**Məqsəd:**

– çörəyin əldə olunması haqqında təsəvvürləri genişləndirmək və dəqiqləşdirmək;

– elin qiymətli sərvəti olan çörəyin müqəddəsliyini uşaqların diqqətinə çatdırmaq, onlarda torpağa, çörəyə ehtiram hissi tərbiyə etmək;

– taxılçıların əməyinin məzmunu və xarakteri ilə uşaqları tanış etmək, onlara əməyə və əməkçi insanlara hörmət hissi aşılamaq;

– qazanılmış bilikləri təcrübə ilə əlaqələndirmək.

**Metodlar və priyomlar:** əqli hücum, müsahibə, BİBÖ, müstəqil iş

**Resurslar:** kaset, şəkillər, oyuncaq maşınlar, kəsmə əlifba

**Məşğələyə hazırlıq:**

– taxıl zəmisinə ekskursiya.

– çörək mağazasına məqsədli gəzinti;

– xəmirin hazırlanması üzrə əmək məşğələsi;

**Məşğələnin gedişi**

**Motivasiya:** M.Seyidzadənin "Sünbülüm" şeri səsləndirilir. Uşaqlar anadan olduqları fəsillərə uyğun dörd qrupa ayrılırlar. Qruplara şerin məzmununa uyğun suallar verilir:

– Uşaqlar, dinlədiyiniz şeirdə nədən bəhs olunur?

– Deyə bilərsinizmi, hamımızın hər gün və ən çox istifadə etdiyimiz ərzaq hansıdır?

– Çörəyin növlərini saya bilərsiniz?
– Çörək harada və nədən hazırlanır?
– Bəs un nədən alınır?
Cavablar ümumiləşdirilir

**Şəkil üzrə müsahibə:**

–Uşaqlar, hər bir ailədə çörəyin yetərincə olması üçün çoxlu miqdarda buğda lazımdır. Buğdanı taxılçılar yetişdirirlər. Yazı taxtasına asılmış bu şəkillərə diqqətlə baxın: "Yaz səpini", "Yayda tarlada", "Məhsul yığımı". Şəkillərdə təsvir olunanlar haqqında nə deyə bilərsiniz? Hər üç şəkildən görürük ki, buğda əldə etmək üçün insanlar il boyu fasiləsiz işləyir, gərgin əmək sərf edirlər. Bu işdə insanlara texnika – kənd təsərrüfatı maşınları kömək edir, onların əməyini yüngülləşdirir. Aşağıdakı suallara cavab verin:

– Şəkildə hansı fəsil təsvir olunub?
– Nədən bilirsiniz?
– Şəkildə kimləri və nələri görürsünüz?
– Onlar nə iş görürlər?
– Ekskursiya zamanı gördüklərinizi yadınıza salmağa çalışın, şəkildə gördüklərinizlə əlaqələndirin.

**BİBÖ:**

– Uşaqlar, siz taxılın necə yetişdirildiyini, buğdanın necə əldə olunduğunu öyrəndiniz. Bəs deyə bilərsinizmi, keçmişdə, hələ maşınlar olmayanda bizim ulu babalarımız taxılı necə əldə ediblər? (Uşaqların cavabı)

– Bəs bu haqda öyrənmək istərdiniz? (Uşaqların cavabı)

– Onda bu şəkillərə diqqətlə baxın. Şəkildə sizə tanış olan nə isə varmı?

Tərbiyəçi şəkillərə istinadən iş prosesi haqqında izahat verir. Çörəyin necə bişirilməsini aydınlaşdırmaq üçün təndir, üzərində sac olan ocaq maketlərini uşaqlara göstərir.

Tərbiyəçilər:

– Uşaqlar, deyə bilərsinizmi, bu gün yeni nə öyrəndiniz?

– Sizcə, keçmişdə buğda yetişdirmək asan idi, yoxsa indi? Nəyə görə? (Uşaqların cavabı)

**Müstəqil iş:**

Uşaqlar yeni öyrəndikləri sözləri kəsmə əlifba ilə düzür və ucadan oxuyurlar.

**Nəticə:**

– Uşaqlar, insanlar həmişə çörəyi, buğdanı müqəddəs sayıblar, əməyi yük-sək qiymətləndiriblər, onun şərəfinə sözlər qoşublar: "Torpaq çörəyi, insan əməyi ilə tanınar", "İstəyirsən bal-çörək, al əlinə bel-kürək", "Çörək bol olarsa, basılmaz vətən".

– Çörək müqəddəsdir, insanların and yeridir, ona hamı ehtiram göstərməlidir.

– Çörəyə görə onun əldə olunmasında iştirak edən zəhmətkeş insanlara minnətdar olmalıyıq.

– İstədiyiniz qədər çörək yemək olar, amma onu atmaq, heyvanlara yedirtmək olmaz.

**Qiymətləndirmə:**

– Kim daha tez və düzgün cavablar verə bilirdi?

– Hansı yoldaşınızın cavabına əlavə edə bilərsiniz?

– Nəticənin müqayisəli qiymətləndirilməsi.

## Ədəbiyyat


1. "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı". Bakı, 1998.
2. В.И.Ядешко, Ф.А.Сохина. "Дошкольная педагогика". Москва, 1986.
3. A.Həsənov "Məktəbəqədər pedaqogika". Bakı, 2000.
4. Н.Н.Поддякова,Ф.А.Сохина. "Умственное воспитание детей дошкольного возраста" Москва, 1988.
5. Р.И.Жуковская, Н.Ф Виноградова, С.А.Козлова. "Родной край" . Москва, 1981.


## Организация работы по ознакомлению с окружающей средой в дошкольных учреждениях


**Резюме**

Знакомство с окружающей средой, будучи одним из отделений Национальной программы и связанным с природными и общественными событииями, повседневной жизнью, разработано с учетом постоянно меняющимся, обновляющимся характером современного мира, продолжительного развития. Работа по знакомству с окружающей средой определена с учетом требований программы, уровня умственного развития детей, возможностями восприятия, условий, региональных особенностей, сезона.


## The organization works to familiarize with the environment in preschool


**Summary**

Being one of the branches of the National program connected with natural and public events, daily life, the acquaintance of environment is developed with the account constantly varying and updated character of the modern world, long development. Aquaintance of environment is determined in view of the requirements of the program, level of intellectual development of children, opportunities of perception, conditions, regional features, season.

# UŞAQLARIN HƏRTƏRƏFLİ İNKİŞAFINDA OYUNUN ROLU

**Oksana Rəsulzadə,**
ADPU-nun magistrantı



***Açar sözlər:*** *hərtərəfli inkişaf, oyun prosesi, yaşlıları təqlid, psixoloji inkişaf, emosionallıq, əqli inkişaf xüsusiyyətləri, yaradıcı fantaziya, əqli tərbiyə vasitəsi, kollektivçilik tərbiyəsi.*

***Ключевые слова:*** *всестороннее развитие, процесс игры, имитация взрослых, психологическое развитие, эмоциональность, развитие интеллектуальных особенностей, творческое воображение, способ умственной подготовки, воспитание коллективизма.*

***Key words:*** *all -round development, the process of the game, simulating the elderly, and psychological development, emotionality, intellectual features of the development ofcreative imagination, through mental training, education of collectivism.*

Məktəbəqədər yaşlı uşaqların həyatında onların əsas fəaliyyət növü hesab olunan oyunun müstəsna əhəmiyyəti vardır. Oyunda varlığın obrazlı, təsirli inikası baş verir. Uşaqlar oynayarkən həyatın müxtəlif hadisələrini təsvir edir, böyükləri təqlid edirlər.

Uşaqlar üçün oyun ciddi tərbiyə vasitəsidir. Uşaq oyun prosesində həyatı dərk etməyi öyrənir. Uşaqlar oynayarkən materialın rəngini, formasını xassələrini, məkan və zaman münasibətlərini, kəmiyyətini öyrənir, bitkilər, heyvanlar haqqında müəyyən təsəvvürlər əldə edirlər. Başqa sözlə, uşaqların dünyagörüşü genişlənir, təfəkkürü, nitqi və hafizəsi zənginləşir. Bu zaman onlar yeni-yeni biliklər qazanmaqla yanaşı, həm də əvvələr mənimsədikləri məlumatlara əsaslanaraq düşünür, analiz və sintez aparır, ümumi nəticəyə gəlirlər.

A.S.Makarenko uşaqların inkişafında oyunun çox böyük rol oynadığını bildirərək, onu yaşlıların həyatında əməyin oynadığı rola bərabər hesab edirdi. Böyük pedaqoq bu barədə yazırdı: "Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq hansı əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun bir o qədər vacib və əhəmiyyətlidir".

Məktəbəqədər yaş dövründə oyun uşağın diqqətini daha çox cəlb edir. Oyun onun əsas məşğuliyyəti olmaqla, həm də onların həyatının mənasını təşkil edir. Oyun prosesində uşaqlar həyatın müxtəlif hadisələrini təsvir edir, yaşlıları təqlid etməyə çalışırlar.

Məktəbəqədər yaş dövründə oyun uşaqlıq illərinin yol göstəricisi kimi qeyd olunur. Onlar oyun prosesində öz təəssüratlarını daha sərbəst və emosional şəkildə ifadə etməyə çalışırlar. Bu və ya digər oyunda uşaqlar yaşlıların fəaliyyətini izləməyə, onu öyrənməyə çalışarkən həm də ətraf aləmlə tanış olurlar. Oyun prosesində əşyaları müşahidə etmək, onlara toxunmaq, onları ələ götürmək, hərəkətə gətirmək kimi arzular, yaranır. Bu mənada, demək olar ki, oyun uşaq həyatını qidalandırır, rəngarəng və maraqlı edir.

Pedaqoji və psixoloji ədəbiyyatda bir çox pedaqoq və psixoloqlar, bu sahədə tədqiqat aparan alimlər uşaq oyununun mahiyyətini, müxtəlif yaş qruplarında onların həyatında tutduğu mövqeyi, oyunun təşkili və ona rəhbərlik məsələlərini geniş işıqlandırmışlar.

Azərbaycanın görkəmli pedaqoqu, professor M.Muradxanov oyunu iki mənada qəbul etmiş və göstərmişdir ki, birinci – uşağın oyuncaqla və oyuncaqsız məşğul olması; ikinci – uşağın bütün həyatının – məişətinin, işinin, təlimdən kənar bütün yaşayışının oyun şəklində təşkil edilməsidir.

Məktəbəqədər dövrdə uşaq həyatının çox hissəsini oyunla, oynamaqla keçirir. Bununla belə, bəzi xırda vəzifələri də yerinə yetirir (akvariumun suyunu dəyişir, oyuncaqlarını səliqəyə salır, balıqlara yem verir və s.). Bu işləri o, çox vaxt oynaya-oynaya yerinə yetirir. Başqa sözlə, uşaq oyunla əmək arasında fərq qoymaqda çətinlik çəkir. Əmək tapşırığını yerinə yetirərkən özünü oyunda hesab edir.

Oyun uşağın psixoloji inkişafında özünəməxsus əhəmiyyət kəsb edir, onda fikri fəallığı artırır. Oyun zamanı fəaliyyət, iradi səy, diqqət formalaşır. Həyata nikbin baxış, emosionallıq inkişaf edir. Beləliklə, uşaq əhatə olunduğu mühitin zənginliyini hiss edir.

Məktəbəqədər uşaqlıq dövrü qısa, amma çox mühüm əhəmiyyətə malik dövrdür. Ona görə ki, şəxsiyyətin formalaşması bu dövrdən başlayır. Həyatın birinci altı ili ərzində uşaq ətraf aləm haqqındakı ilkin biliklərə yiyələnir, onda insanlara, əməyə, təbiətə münasibət formalaşmağa başlayır, düzgün davranış üçün adət və vərdişlər yaranır, xarakter tərbiyə olunur.

Oyunda uşaq şəxsiyyəti bütün sahələr üzrə formalaşır. Onun psixikasında böyük dəyişikliklər baş verir. Bütün bunlar oyunun mühüm tərbiyəvi imkanlara malik olduğunu göstərir. Psixoloqlar oyunu məktəbəqər yaşlı uşaqların inkişafının aparıcı fəaliyyəti hesab edirlər.

Oyun – sərbəst fəaliyyətdir. Uşaq oyunda müəyyən həyəcanlar keçirir. Uşaqlar özləri də sərbəst oyunlar keçirirlər. Belə oyunlar zamanı heç bir fəaliyyətdə ciddi qayda, idarəedici davranış olmur, lakin bütün oyunlara tərbiyəçi nəzarət edir. Uşaq oyunları başqa tərbiyə vasitələri kimi onun həyatına və pedaqoji prosesin təşkilinə uyğun qurulmalıdır. Tərbiyəçi qabaqcadan bilməlidir ki, uşaqlarla

necə oynamalıdır, onun oyunda iştirakı və rəhbərliyi özünü necə büruzə verməlidir.

Uşağın oyuna olan tələbinin səbəbi barədə İ.M.Seçenov deyirdi ki, ətrafdakıları anlamaq səyi uşaqlarda, adətən, onların yaşlılara müraciət etdikləri suallarda, oyunda fəallıqlarında ifadə olunur. Uşağın oyuna olan marağı, onun həyati hadisələri təqlidetmə meyli ilə bağlıdır; İ.M.Seçenovun fikrincə, bu hal onun əqli və əxlaqi inkişafı üçün çox mühümdür. Eyni hərəkətlərin, sözlərin dəfələrlə təkrarı möhkəm əlaqələr yaradılmasına, fikirlərin, davranışların formalaşmasına kömək edir.

Uşaq sevimli qəhrəmanını təsvir edərkən əvvəlcə onun diqqətini cəlb edən xarici cəhətlərini, sonra danışıq və davranışlarındakı cəhətləri, əxlaqi keyfiyyətlərini təqlid edir. O, özünü sevimli obrazla birləşdirir, onun hissləri ilə yaşayır, xeyirxah hisslərin, səylərin onun şüurunda tez-tez təkrar edilməsi uşağın özündə həmin keyfiyyətlərin yaranmasına və inkişaf etməsinə səbəb olur. Ona görə də oyunun məzmunu, ifa olunan rol şəxsiyyətin formalaşmasına, onun əqlinin inkişafına böyük təsir göstərir.

Beləliklə, hər bir uşağa ətrafdakılarla tanış olmaq, yaşlıları təqlid etmək səyi məxsusdur. Bu səy isə öz əksini ən çox oyunlarda tapır. Uşaqların inkişaf surəti hər şeyi öyrənmə meyli orqanizmə məxsus olan hərəkət tələbi, fəallıq cəldlik şənlik onların oyuna olan tələbatını artırır.

Məktəbəqədər yaşlı uşaqların əqli inkişaf xüsusiyyətlərinin öyrənilməsi “Nə üçün uşaq oynayır?” sualına cavab tapmağa kömək edir.

Oyunun əsas psixoloji xüsusiyyəti ondan ibarətdir ki, o, uşaq şəxsiyyətinin bütün cəhətlərinə toxunur: onda fikirlər fəal işləyir, o, emosiyalarla zəngindir, fəal fəaliyyət, iradi səy tələb edir. Oyun uşaqların fiziki və əqli fəallığını artırır.

Pedaqogikada oyun yaradıcılığına tərbiyənin bütün istiqamətlər üzrə nəticəsi kimi baxırlar. Uşaqlarda onun məzmununa dair təsəvvür zənginliyi bilikdən, təcrübədən, tərbiyə işindən asılıdır. Yaradıcı fantaziya oyunda birdən-birə deyil, həyatdan, nağıllardan, hekayələrdən, mənzərələrdən və s. digər hadisələrdən alınan təəssüratların təsiri ilə tədricən yaranır və inkişaf edir.

Oyunun maraqlı, keyfiyyətli təşkili nəticəsində bəzən uşaq oyuna elə aludə olur ki, onu həqiqətlə qarışdırır, özünün təyyarəçi, kuklasının canlı qız olduğuna inanır. Bununla belə, çoxsaylı müşahidələr göstərir ki, uşaqlar, adətən, oyunu həqiqi həyatdan fərqləndirirlər. Əbəs deyildir ki, bütün uşaqlar “düzü”, “elə bil”, “qəsdən” sözlərini işlədirlər, lakin oyunda uşaqların hissləri gerçək, həyəcanları həmişə səmimi olur. Uşaqlar baş verənlərə heç vaxt laqeyd qalmırlar.

Beləliklə, məktəbəqədər pedaqogika oyunu fəal, yaradıcı məqsədyönlü fəaliyyət hesab edir. Oyunun mahiyyəti, onun təhlili və ümumiləşdirmələrin aparıl-

ması bir daha deməyə imkan verir ki, uşağın hərtərəfli inkişafı, tərbiyəsində oyun böyük əhəmiyyət kəsb edir.

Oyun həm də əqli tərbiyənin vasitələrədindən biridir. Oyunun mahiyyətindən onun uşaqların əqli tərbiyəsi üçün böyük əhəmiyyətə malik olduğu zahirə çıxır. Ətrafdakılar haqqında təəssürat oyunlarda əks olunur, bunun sayəsində təsvir olunanlar haqqında təsəvvür və anlayışlar daha da inkişaf etdirilir, dəqiqləşdirilir, əqli qabiliyyətlər təkmilləşdirilir. Oyunda məqsədə nail olmaq mərkəzləşdirilmiş diqqətin, yaddaşın gərgin işini, təxəyyül, zirəklik, hazırcavablıq tələb edir. Oyunda uşaqlar işlətdikləri əşyaların xassələri ilə tanış olurlar: kuklalar ölçülərinə, hazırlandıqları materiala görə fərqlidir; tikinti materialları müxtəlif formaya malikdir; oyuncaqlar müxtəlif cür rənglənib.

Uşaqların nitq və təfəkkürlərinin inkişafında oyunun rolu böyükdür. Uşağın hər bir fəaliyyəti kimi oyun da, sözlə müşayiət olunur. Hətta ən kiçik uşaqlar öz hərəkətlərini sözlərlə ifadə edir, obrazlar yaradırlar. Bu prosesdə onlar doğma dilin zənginliyi ilə tanış olurlar. Kollektiv şəkildə keçirilən oyunlarda nitq xüsusilə böyük əhəmiyyət kəsb edir, burada söz uşaqlar üçün ünsiyyət, hərəkətlərin razılaşdırılması, oynayanlar arasında razılıq vasitəsidir. Hər bir oyunda uşaq öz fikirlərini yoldaşları üçün aydın ifadə etməli, ifadəli danışmalıdır. Ona görə də oyun nitqin inkişafına, lüğət fondunun zənginləşməsinə kömək edir.

Oyun və əyləncələr uşağa məcburi yük deyil, əksinə, onların arzu və istəklərindən irəli gələn fəaliyyətdir. Ona görə də onların bu prosesdə dil açmaları, nəyin isə adını yaşlılardan, o cümlədən, tərbiyəçidən xəbər almaları, nə isə öyrənmələri, fikrini başqalarına çatdırmaq məqsədilə müvafiq söz tapmaları, onu cümlələrlə ifadə etmələri üçün əlverişli şərait yaranmış olur.

Oyunda uşaqlara xas olan sıxıntı, utancaqlıq aradan qalxır. Onlarda axtarıcılıq, çeviklik artır. Bununla da əqli qabiliyyətləri inkişaf edir, lüğət fondu zənginləşir. Bununla belə, uşaqlar heç də həmişə yoldaşını oyunda iştirak etməyə dəvət edə, oyunun mənasını ona izah edə, oyuncağı, materialı, rolları bölüşdürə, münaqişəni həll edə bilmirlər. Ona görə də tərbiyəçi uşaqlara oyunda yoldaşı düzgün seçməyi, yaşıdları ilə canlı ünsiyyətə girməyi, kollektivdə davranmağı, yarış xarakterli oyunlarda ancaq özü üçün deyil, həm də qrup üçün düşünməyi nəzakətli müraciət etməyi öyrənir.

Oyun maraqlı təşkil olunarsa, qarşıya qoyulmuş vəzifələr anlaşıqlı olarsa, uşaq ondan daha çox faydalanacaq, onun məzmununu öyrənməklə əqli cəhətdən də inkişaf edəcəkdir. Nəticədə nitq ünsiyyətinə girməyi öyrənmiş uşaq da istər – istəməz eşitdikləri haqqında fikirləşəcək və əqli fəaliyyətdə olacaqdır. Oyun sadəcə əyləncə olmayıb, uşaqları düşündürə biləcək prosesdir. Bütün bunlar oyunun uşaqların məntiqi təfəkkürünün və lüğət ehtiyatının zənginləşdirilməsi üçün çox etibarlı, əlverişli vasitə olduğunu göstərir, çünki məktəbəqədər yaşlı uşaqla-

rın lüğət ehtiyatının zənginləşdirilməsi onların ətraf aləmlə tanışlığı ilə paralel gedir.

Oyun və əyləncə uşaqların təsəvvürlərini inkişaf etdirir. Onlar hər bir sözü eşidərkən onun nəyə aid olduğunu müəyyənləşdirməyə çalışırlar. Bu zaman onlar həmin sözün arxasında hansı əşya və hadisənin durduğunu bilmək istəyirlər. Uşaqlarda buna meyl olmasa, tərbiyəçi özü maraqlanmalı, onlara belə bir vərdişi təlqin etməlidir. Əks halda, uşaqlar sözləri yerli-yersiz, mexaniki şəkildə işlətməyə adət edər, mənalarını başa düşməzlər. Maddi əsası olmayan sözlərin işlədilməsi isə təfəkkürün inkişafını ləngidə bilər.

Oyunda uşaqlarda kollektivçilik hissi və kollektiv həyatın ilk vərdişləri tərbiyə edilir. Tərbiyəçi, uşaqlara oyunda yoldaşları ilə hesablaşmağı, onların qayğısına qalmağı, kollektivin fəaliyyətini qiymətləndirməyi və sevməyi, mübahisəli məsələləri ədalətlə həll etməyi öyrədir.

Oyunun təşkilində başlıca cəhətlərdən biri də rolların uşaqlar arasında düzgün bölüşdürülməsidir. Baş rollarda hər bir uşağın iştirak etməsinin təmin olunması yaxşı nəticə verir. Hər bir uşağı kollektivin fəal üzvü kimi tərbiyə etmək lazımdır. Oyunda bunun üçün böyük imkanlar var, lakin onlardan düzgün istifadə etmək diqqətli, bacarıqlı rəhbərliyin olmasını tələb edir.

## Ədəbiyyat


1. Məktəbəqədər pedaqogika. Bakı, 1964.
2. Salmanova S. Kiçik qrupda didaktik oyunlar prosesində lüğət üzrə iş. Metodik vəsait. Bakı, 1994.
3. Axundova S. Uşaq bağçasında qaydalı oyunlar. Bakı, 1972.
4. Makarenko A.S. Seçilmiş əsərləri. Bakı, 1983.
5. Məmmədova A., Əsədova Z.Uşaq bağçasında fiziki mədəniyyət. Bakı, 2008.


## Роль игры во всестороннем развитии детей

### Резюме


В статье рассматриваются вопросы, тесно связанные со всесторонним развитием детей дошкольного возраста. Отмечается важность игры в становлении детей. Очевидно, что дети дошкольного возраста много времени проводят с играми. В этом отношении в статье раскывается методика и содержание ряда игр, которые проводятся с детьми. Приводятся высказывамия методистов об организации и проведении разного рода игр. Следует учитывать также возможности восприятия детьми разных игр.


## The role of games in the comprehensive development of children

### Summary


The article deals with issues closely related to the comprehensive development of preschool children. Notes the importance of play in the development of children. Obviously, the pre-school children spend much time with games. In this regard, the article raskyvaetsya methodology and content of some games that are conducted with children. Given vyskazyvamiya Methodists to organize and conduct all sorts of games. It should also be possible perception of children of different games.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏMƏK TƏRBİYƏSİ

**Şəhla Məmmədova,**
Yasamal rayonu, 121 nömrəli körpələr
evi – uşaq bağçasının müdiri



***Açar sözlər:*** *məktəbəqədər yaş, əmək tərbiyəsi, fiziki əmək, zehni əmək, əmək və oyun.*

***Ключевые слова:*** *дошкольный возраст, трудовое воспитание, физическое воспитание, умственный труд, труд и игра.*

***Key words:*** *preschool age, labour education, physical education, intellectual work, work and game.*

Məktəbəqədər yaşlı uşaqların ahəngdar inkişafında əmək tərbiyəsi mühüm rol oynayır. Bu dövrdə əmək tərbiyəsi uşaqlarda əməyə, əmək adamlarına rəğbət hissi yaratmaq, zəhmətsevərliklə yanaşı, dözümlülük, işgüzarlıq, çətinlikdən qorxmamaq, cəsarət, dostluq, qayğıkeşlik, xeyirxahlıq, vətənpərvərlik və s. kimi əxlaqi keyfiyyətlər formalaşdırır.

Düzgün təşkil olunan və məqsədyönlü həyata keçirilən əmək məktəbəqədər yaşlı uşağın bütün şəxsi keyfiyyətlərinə müsbət təsir göstərir, onun gələcək həyat yolunun müəyyənləşdirilməsində həlledici rol oynayır.

Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsini səmərəli təşkil etmək üçün ilk növbədə tərbiyəçi onun mahiyyətini bilməlidir.

Məhəmməd Peyğəmbər əmək və əməyə münasibət haqqında demişdir:

– Özünə və özgəsinə xeyirli iş görməyən insana Allahdan heç bir əcr olmayacaqdır.

– Allah yolçuluqla deyil, öz əməyi ilə dolananlara mərhəmət göstərir.

– İbadət yetmiş qapıdır (qisimdir), bunlardan ən üstünü halal ruzi qazanmaq üçün çalışmaqdır.

– Qazancın ən təmizi insanın öz əməyi ilə əldə etdiyi qazancdır.

– İnsanın öz əlinin əməyi ilə qazanıb yeməsidən daha xeyirli heç bir yemək olmaz.

Dahi Azərbaycan şairi, böyük mütəfəkkir Nizami Gəncəvi əmək tərbiyəsinə böyük əhəmiyyət verirdi. Onun əsərlərində əməyə məhəbbət, zəhmət adamlarının üstünlüyü vəsf olunmuşdur. Nizamiyə görə, insan öz əməyi ilə qanını südə və bala çevirməlidir. Şair həyatının bütün mənasını əməkdə görür, halal zəhmət hesabına yaşamağı böyük nemət hesab edirdi. O, əməyin tərbiyələndirici təsirini yüksək qiymətləndirir, insana xoşbəxtlik və səadət nəsib etdiyini bildirir, avaraçılığı insan üçün ən böyük qüsur sayırdı. Şair «Kərpickəsən kişinin dastanı»nda qoca kərpickəsənin dili ilə gənc oğlana deyir:

Onunçun öyrətdim ki, əlimi bu sənətə,
Bir gün sənə əl açıb, düşməyim xəcalətə.

Azərbaycanın görkəmli maarifpərvəri H.Zərdabi yazırdı: «Fiziki əmək, necə deyərlər, xəstəlikləri müalicə edir, şərə qalib gəlir, insanda intibah əmələ gətirir.»

İsveçrə pedaqoqu Y.H. Pestalotsinin fikrincə, insan şəxsiy-yətinin ahəngdar inkişafı əqlin, qəlbin və əllərin inkişafını tələb edir. İnsanın mənəvi qüvvələrinin və qabiliyyətlərinin inkişafı yalnız əmək sayəsində mümkündür. Əmək tərbiyəsi əqli və əxlaq tərbiyəsindən ayrı həyata keçirilə bilməz.

Fransız pedaqoqu J.J. Russo da əmək tərbiyəsinə böyük yer verirdi. Onun fikrincə, əsil insan əməkdən kənarda formalaşa bilməz. O, fiziki əməyə qabil olmayan adamı natamam şəxsiyyət hesab edirdi. O, uşağı ilk növbədə kənd təsərrüfatı əməyinə hazırlamağı və ona bir neçə peşə öyrətməyi lazım bilirdi. İnsanın müxtəlif hərəkətlərini, fiziki qüvvə və qabiliyyətlərinin geniş inkişafını təmin edən əl əməyini daha məqbul sayırdı. Onun fikrincə, əməkdə bilavasitə iştirak etmək əmək tərbiyəsi üçün əsas vasitədir. Əmək həm tərbiyə vasitəsi, həm də azad adamın ictimai vəzifəsidir.

Rus pedaqoqu K.D. Uşinski uşaqlarda əməyə məhəbbət tərbiyə etməyi tələb etmiş, fiziki əməklə zehni əməyin birləşdirilməsini faydalı hesab etmişdir. O, təlimi əmək adlandırır və uşağı təlimin çətinliklərinə alışdırmağın zəruri olduğunu bildirirdi. Zehni əmək ağır olduğuna görə uşaqları ona tədricən alışdırmağı lazım bilirdi.

Tərbiyəçi uşaqlarda əməyə məhəbbət tərbiyə etmək üçün görkəmli klassiklərimizdən, müasir şair və yazıçıların yaradıcılığından nümunə gətirməlidir. Uşaqlar əməyin insanı ucaltdığını bilməlidirlər.

Y.A.Komenski uşağı kiçik yaşından namuslu əməkdə, xeyir-xah işlərdə çalışdırmağı, bununla da onda müsbət adət və vərdişlər tərbiyə etməyi tələb edirdi: «Xeyirxahlıq boşboğazlıq sayəsində deyil, iş görmək nəticəsində inkişaf edir.»

Tərbiyəçi uşaqlarda əməyə maraq oyatmalı, ona həyati tələbat kimi baxmağı öyrətməlidir. Uşaqlarda əməyə maraq yarandıqda onda əməksevərlik kimi əlamətlər özünü göstərməyə başlayır. Bunun üçün uşaqlarda yaşlarına müvafiq əqli və fiziki əmək vərdişləri yaratmaq lazımdır. Uşaq yaşlı nəslin istehsal əməyinin əhəmiyyətini dərk etməli, özü də təlim əməyi nümunəsində inkişaf etməyə, sayılmağa, hörmət qazanmağa nail olmalıdır.

Məktəbəqədər yaşlı uşaqlarda əməyə maraq yaradılmasında yaşlıların əməyi ilə tanışlıq mühüm rol oynayır. Uşaqları yaşlıların əməyi ilə aşağıdakı yollarla tanış etmək olar: yaşlıların əməyi ilə bağlı söhbətlərlə; əməyi tərənnüm edən şeirlər, hekayələr və nağıllar oxumaqla; əməyə həsr olunmuş televiziya verilişlərinə, sənədli filmlərə, şəkillərə tamaşa etməklə; əmək prosesini müşahidə etdirməklə; yaşlılarla uşaqların birgə əmək fəaliyyətini təşkil etməklə.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində əməyə şüurlu münasibət və məsuliyyətlə yanaşmaq böyük əhəmiyyət kəsb edir. Tərbiyədə əsas amil müəyyən məqsədə yönəldilmiş ictimai-faydalı, kollektiv əməkdir. A.S. Makarenko deyirdi: «Yalnız birgə əmək səyi, kollektiv içərisində işləmək, bir-birinə əmək yardımı göstərmək və daim qarşılıqlı əmək asılılığında olmaq, insanlar arasında bir-birinə düzgün münasibət tərbiyə edə bilər.»

Məktəbəqədər yaşlı uşaqların əməyi çox vaxt oyunla əlaqədar olur. Bəzən oyun yaşlıların əməyini əks etdirir, bəzən də əmək elementləri oyunda əks olunur, məsələn, «Peşələr» oyununda uşaqların müxtəlif peşələr haqqında bilik və təsəvvürləri genişləndirilir, yaşlıların əməyinə hörmət və maraq tərbiyə edilir. Ona görə də tərbiyəçi uşaqların əmək tərbiyəsində oyun elementlərindən də geniş istifadə etməlidir.

Məktəbəqədər yaşlı uşaqların əməksevərlik tərbiyəsində folklor nümunələrindən istifadə etmək olar: «Bu günün işini sabaha qoyma», «İstəyirsən bal-çörək, al əlinə bel, kürək», «Tənbəllik bədbəxtliyin açarıdır», «İş insanın cövhəridir», «İşləməyən dişləməz», «İşlənməyən dəmir pas atar», «Sənət qola bilərzikdir», «İnsanı şöhrətləndirən əməkdir», «Başladığın işi yarımçıq qoyma», «Yayda yatan qışda dilənçilik edər» və s. Bu atalar sözləri vasitəsilə tərbiyəçi uşaqlara başa salır ki, insan çalışqan olmalı, əməyi sevməlidir. Əmək yaşayış mənbəyidir, o, insanı asılılıqdan qurtarıb müstəqil edir. Tənbəllik isə adamı ac, xəstə, bədbəxt edir. Odur ki, insan zəhmətdən qorxmamalı, işdən boyun qaçırmamalıdır:

*Tüstülənər bacalar,*
*Ocaq üstə sac olar.*
*Zəhmək sevən gün görər,*
*Tənbəl hər vaxt ac olar.*

Belə bayatı və mahnıların mənasının uşaqlara izah edilməsi uşaqlarda əməyə və əmək adamlarına rəğbət hissinin yaranmasına kömək edir.

Məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyətinin təşkili işin planlaşdırılmasından çox asılıdır. H.Zərdabi əməyin düzgün planlaşdırılmasına yüksək qiymət verərək yazırdı: «Düzgün təşkil edilən və şüurlu surətdə müəyyən məqsədə doğru yönəldilən əməklə əxlaqca pozulmuş adamları, hətta cinayətkarları da tərbiyə etmək mümkündür».

Tərbiyəçi uşaq əməyini planlaşdırarkən mövcud olan çətinliklərin uşağın həyat təcrübəsinə və qüvvəsinə müvafiq olmasını nəzərə almalı və onların aradan qaldırılması yollarını qabaqcadan müəyyən etməlidir. Əmək görüləcək işin ardıcıl icrası ilə bağlı olaraq planlaşdırılır. Nəyi əvvəl, nəyi sonra, nə üçün başqa cür deyil, belə işləmək kimi problemlər işi sistemlə qurmağı tələb edir.

Məktəbəqədər yaşlı uşaq əmək prosesində müəyyən nəticə əldə etməlidir. Əmək bacarığı və vərdişlərinin qazanılması, keçirilən tədbirlərin pedaqoji cəhətdən düzgün təşkili, uşağın marağı, səyi, iş qabiliyyəti və s. fərdi fərqlərdən asılı olaraq əməyin nəticəsi müxtəlif ola bilər. Əmək prosesində işin müvəffəqiyyətlə başa çatdırılmasına nail olmaq uşaq üçün vacib şərtdir. Bu, tərbiyəçinin uşağın əmək fəaliyyətindəki müsbət cəhətləri vaxtında görməsi və onları qiymətləndirməsindən çox asılıdır.

Uşağı daha yaxşı işləməyə ruhlandırmaq üçün rəğbətləndirmədən istifadə olunmalıdır. Uşaqda öz əmək qabiliyyətinə inamın artmasında işin müstəqil icrası mühüm rol oynayır. Əmək bacarığı və vərdişlərinin qazanılması üçün əmək prosesində tədricilik tələbinə riayət etmək lazımdır.

Beləliklə, məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında əməyin böyük əhəmiyyəti var. Əmək insanın sosial dəyərlərinin mühüm göstəricisidir. Sözün əsl mənasında, əmək şəxsiyyətin başlıca tərbiyəçisidir. Tərbiyəçi bütün imkanlardan müntəzəm, sistemlə, kompleks şəkildə istifadə etməklə uşaqların əmək tərbiyəsini müvəffəqiyyətlə həyata keçirməlidir.

### Ədəbiyyat


1. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1983.
2. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı, «Maarif», 1983.
3. Həsənov A. Məktəbəqədər yaşlı uşağın əmək tərbiyəsi. Bakı, 1993.
4. Muradxanov M. Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, «Azərnəşr», 1947.


### О трудовом воспитании детей дошкольного возраста


**Резюме**

В статье отмечается большая роль труда в многостороннем развитии детей дошкольного возраста. Отмечается, что труд является важным показателем социальной значимости человека. Труд, в прямом смысле этого слова, является главным воспитателем личности. Используя эффективные приемы, учитель в комплексной форме и может добиться желаемых результатов.


### About labour education of children of preschool age


**Summary**

In clause the large role of work in multilateral development of children of preschool age is marked. The work is by the important parameter of the social importance of the man is marked, that. The work, in direct sense of this word, is the main tutor of the person. Using effective receptions, the teacher in the complex form also can achieve desirable results.

# OXU DƏRSLƏRİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏ ETMƏKLƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİ

**Mətanət Sadıqova,**
TPİ-nin elmi işçisi

***Açar sözlər:*** *interaktiv təlim, təlim metodları, müstəqil iş.*
***Ключевые слова:*** *интерактивная обучения, методы обучения, самостоятельная работа*
***Key words:*** *interactive lesson, teaching methods, indepenolend ivorm.*



Son illər respublikamızda, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də yeniliklər həyata keçirilir. Belə ki, cəmiyyətdə baş verən köklü dəyişikliklər milli təhsil sisteminə də öz təsirini göstərir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra təhsil sahəsində islahatlar aparmaq aktual problemlərdən birinə çevrilmişdir. Qloballaşma prosesində mühüm rol oynayan təhsil, dövrün tələblərinə uyğun olaraq, ölkələrarası inteqrasiya tələb edir. Yeni təhsil sistemi dərsin səmərəli təşkili tələbini irəli sürür. Bu da öz növbəsində yeni təlim metodlarından istifadəni ön plana çəkir.

Təlim elə təşkil edilməlidir ki, müəllimlə şagird birlikdə axtarış aparsınlar. Təlim yalnız şagirdi deyil, müəllimin özünü də inkişaf etdirməli, dərsdə təkcə kommunikasiya yox, həm də qarşılıqlı ünsiyyət yaratmalıdır. Bu mənada şagirdləri axtarışlar aparmağa vadar edən metodlar içərisində interaktiv təlim metodları xüsusi əhəmiyyət kəsb edir.

Şagirdlərin düşünmələrinə, bilikləri müstəqil əldə etmə qabiliyyətlərinə əsaslanan müasir təlim metodları ənənəvi təlimin çatışmazlıqlarını aradan qaldırmağa imkan verir. Ənənəvi təlim zamanı istifadə edilən interaktiv təlim metodlarının qeyri-mütəhərrik olması təhsilin inkişafının qarşısını alan problemlərdən biri idi. Çox zaman ənənəvi təlim metodlarının tətbiqi prosesində şagirdlərin fəaliyyəti qeyri-fəal təkrarlama xarakteri daşıyır.

İnteraktiv təlim müəllim və şagirdin qarşılıqlı əlaqəsi, ünsiyyəti prosesidir. Bu zaman müəllim tərəfindən problem qoyulur, problemin həll olunması prosesində şagirdlər fəal tədqiqatçı mövqeyi tuturlar. Müəllim tərəfindən şagirdlər üçün yeni olan biliklərin müstəqil əldə edilməsi, mənimsənilməsi şəraiti yaradılır. Müəllimin əsas vəzifəsi şagirdlərə yol göstərmək, istiqamət vermək, müəyyən çətinlik meydana çıxarsa, onlara yardımçı olmaq, ən başlıcası isə «öyrənməyi öyrətməkdir». Bu zaman müəllim hər bir şagirdə hör-

mətlə yanaşmalı, bilik səviyyəsindən asılı olmayaraq inam göstərməli, onlara bu biliklər əsasında müstəqil nəticələrə gəlməyi öyrətməli, bilikləri müstəqil əldə etmək və genişləndirmək bacarıqları aşılamalıdır. Bu işin əsası ibtidai siniflərdən qoyulmalıdır.

İbtidai siniflərdə hərf, söz və cümlələrlə bağlı bütün kommunikasiyalar canlı danışığın formalaşmasına xidmət edir. Başqa sözlə, dərsin xarici mühitlə canlı əlaqəsinin təmin edilməsi onun fəallığını artırır. Ona görə də, haqlı olaraq bir çox müəllimlər müasir dərsə, interaktiv təlim metodlarına böyük üstünlük verirlər.

İnteraktiv təlim prosesində bir çox metod və priyomlardan istifadə olunur: insert, BİBÖ, beyin həmləsi, cütlərlə və qruplarla iş, əqli hücüm, istiqamətləndirilmiş mühazirə, klaster, ziqzaq, dəyirmi masa, maraq dərsi, semantik əlamətlərin təhlili, iki hissəli gündəlik, karusel, bilim taksonomiyası və s. Buna görə də şagirdlərə təlim keçməzdən əvvəl onları təlimə hazırlamaq, şüurlu özünüdərk şəraiti yaratmaq zəruridir. Müasir təhsilin əsas məqsədi şagirdlərə hazır bilikləri öyrətmək deyil, onlarda faktlar və hadisələrlə sərbəst işləmək və təhlil etmək, müstəqil nəticələr çıxarmaq bacarığını inkişaf etdirməkdir. Əgər hər bir müəllim interaktiv təlim metodlarının qarşıya qoyduğu əsas məqsədə nail olarsa, şagirdlərin oxu səviyyəsi xeyli yüksələ bilər.

İnteraktiv təlim metodları şagirdlərə aşağıdakı keyfiyyətləri aşılayır:

– müstəqil düşünməyi, sərbəst fikir söyləməyi;

– öz təcrübəsini və biliyini təhlil etmək, qiymətləndirmək qabiliyyətini;

– əməkdaşlıq etməyi, başqaları ilə işləmək bacarığını;

– ümumi məqsədə çatmaq üçün işi bölüşdürməyi;

– başqalarını dinləməyi, müxtəlif fikirlərə hörmət etməyi və dözümlü olmağı;

– öz fikrini arqumentlərlə izah və sübut etməyi;

– məntiqi təfəkkürün inkişafını;

– kollektiv surətdə problemin həlli yollarını müəyyənləşdirməyi və qərar çıxarmağı.

Yaxşı məlumdur ki, biliksiz yaradıcılıq mümkün deyil. Yaradıcı fəaliyyət təcrübəsi iş prosesində, problem məsələlərin həlli yolu ilə mənimsənilir. Şagird biliyi tətbiq etməklə bir tərəfdən bilikləri təkrarlayır, şüurlu mənimsəyir, bacarıq və vərdişləri möhkəmləndirirlər. Biliklər şagirdlərin hafizəsində uzun müddət qalmazsa, təlim prosesində heç bir səmərə əldə etmək mümkün olmaz.

Yaradıcı faktlar məhz oxu fənni ilə bağlı problem məsələlərin həllində daha çox üzə çıxır. Oxu dərslərində şagirdlərə düzgün, şüurlu, ifadəli və sürətli oxumağı, uşaqların nitqini inkişaf etdirməyi, ideya-siyasi, estetik tərbiyə vəzifələrini həyata keçirməyi ön plana çəkmək, onları müstəqil fikir yürütməyə alışdırmaq, tədqiqatçılığa, yaradıcılığa cəlb etmək mümkündür.

Tədqiqatçılıq metodu problem məsələlərin şagirdlər tərəfindən bütövlükdə həllini nəzərdə tutur, lakin bu proses şagirdlər tərəfindən bəzən bütünlük-

lə bir dəfəyə mənimsənilə bilmir. Mürəkkəb əməliyyatlar hissə-hissə mənimsənilir.

Tədqiqatçılıq metodunun tətbiqi müəllimdən yüksək səviyyədə pedaqoji ustalıq tələb edir. Bu prosesdə müəllimin məharəti ondan ibarətdir ki, şagirdlərin müstəqilliyini məhdudlaşdırmadan onların fikrini lazımi istiqamətə yönəltsin, düzgün olmayan cavabı inandırıcı surətdə təkzib etsin. Müəllim şagirdlərin səhv mülahizələrini dinləyərkən cavab verəni düşünməyə vadar edən münaqişə situasiyası yaratmalıdır.

Oxu dərslərində tətbiq olunan metodlardan biri də dərsdə şagirdlərin müstəqilliyinin və təşəbbüskarlığının təmin edilməsidir. İbtidai siniflərdən başlayaraq şagirdlərə yeni bilikləri müstəqil surətdə əldə etmək, mühakimə yürütmək, hadisələrin mahiyyətini, qanunauyğun əlaqələri yarada bilmək, kiçik «kəşflər» etmək bacarığı aşılanmalıdır.

Şagirdlərin materialı müstəqil öyrənmələri üçün zəruri bilik, bacarıq və vərdişlərə verilən tələbləri aşağıdakı dioqramda aydın görmək mümkündür.




Müşahidələr göstərir ki, şagirdlərin oxu dərslərində problemli vəziyyətə salınması onların hazır, çeynənmiş bilikləri əzbərləməsindən qat-qat faydalıdır. Əgər şagird yeni biliyi mənimsəmək üçün özünü əziyyətə salmaq istəmirsə, onda müəllimin də zəhməti hədər olacaqdır. Dərsdə axtarıcılıq imkanının olması müəllimdən çox asılıdır.

Oxu təliminin səmərəliliyi və keyfiyyəti şagirdlərin yalnız proqram materiallarını dərindən mənimsəmələri ilə deyil, həm də şagirdlərin oxusunun inkişaf səviyyəsi ilə müəyyən edilir. Oxu təlimi təfəkkür inkişafı ilə bilavasitə bağlıdır.

Şagirdlərin fəallığı şəraitində tədris olunan dərsin hər mərhələsi öyrədici xarakter daşımalı, vaxtın boş keçməsinə yol verilməməlidir. Dərsdə müəllim üç vəzifəni yaddan çıxarmamalıdır:

a) şagirdlərə möhkəm bilik vermək;
b) onların dünyagörüşlərini inkişaf etdirmək,

c) onlarda müstəqil işləmək bacarığını və əqli fəallığı artırmaq, müstəqil əqli mühakimələr yürütmək vərdişlərini inkişaf etdirmək.

Müəllimlər dərsdə şagirdlərin fəallığını təmin etsə, mövzuya maraq oyada bilsə, yuxarıda göstərilən mühüm vəzifənin öhdəsindən gəlmiş olarlar.

Müəllim dərsə hazırlaşarkən şagirdlərin yeni materialı necə qavrayacaqları və onları fəallaşdırmaq üçün müstəqil işlərin hansı növündən istifadə etmək lazım gəldiyini qabaqcadan müəyyən etməlidir.

Şagirdin dərsdə müstəqil fəaliyyət göstərməsi üçün ona mövzunu öyrənməyin metod və priyomlarını öyrətmək, daha sonra yeni müstəqil iş tapşırmaqla öyrənilmiş priyomun möhkəmləndirilməsinə şərait yaratmaq lazımdır. Şagird öyrəndiyi priyomu hər yeni mövzuya tətbiq etməklə bacarıq əldə edir. Bu zaman hətta təfəkkürü yaxşı inkişaf etmiş şagirdlərin hər biri öyrəndikləri priyomu özünəməxsus yolla tətbiq edir, yaradıcı fəaliyyət göstərirlər. Belə priyomun tətbiqi bacarığı tez-tez təkrarlanaraq vərdişə çevrilir və bu vərdiş uzunmüddətli olur. İbtidai siniflərdə rəvan, şüurlu, ifadəli qiraətin möhkəm vərdiş halını alması təmin edilməlidir. Yeni proqramların tələbi üzrə şagirdlərin dərketmə imkanları tam şəkildə nəzərə alınmalı, bütün dərs boyu onların əqli qüvvəsinin intensiv işi təmin edilməlidir.

Şagirdlər I sinifdən etibarən gücləri çatan yüksək çətinlik səviyyəsində bir sıra nəzəri məsələləri elmi əsaslar üzrə, sistemli və sürətlə mənimsəməli, az vaxt ərzində çox şey öyrənməlidirlər. Onlar təlim prosesinin mahiyyətini başa düşməli, müqayisələr aparmalı, əşya və hadisələr arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirməli, müstəqil fikir söyləməli, öz fikrini sübuta yetirməli, əqli nəticəyə gəlməli, ümumiləşdirmələr aparmalıdırlar. Yeni mövzunun tədrisi prosesində belə imkanlardan istifadə nəticəsində şagirdin təfəkkürü inkişaf edir, onlar biliyi şüurlu qəbul etməyi öyrənirlər.

«Öyrənməyi öyrətmək» üçün verilmiş diaqramda olduğu kimi şagirdi iş fəaliyyətinə cəlb etmək mühüm əhəmiyyətə malikdir.



Müəllim «öyrənməyi öyrətmək» üçün özü öyrətməyi öyrənməlidir.




Müstəqil yerinə yetirilmiş bütün tapşırıqlara nəzarət edilməli, onlar yoxlanılmalı və qiymətləndirilməlidir. Bu cür dərslərin səmərəli keçməsi üçün şagirdlərin müstəqil işlərinin yerinə yetirilməsinə geniş yol açır.

Yeni bilik müəllim tərəfindən hazır şəkildə verildikdə və şagirdlərin müstəqilliyinə əsaslanmadıqda, dərsdə qarşıya qoyulmuş məqsədə nail olmaq çətindir. Hazır bilik, hazır nəticələr uşaqları maraqlandırmır, onların fikri fəaliyyətini oyatmır. Belə təlim şagirdlərdə doqmatik əqlin inkişafına gətirib çıxarır. Bu isə öz növbəsində şagirdlərin kitabdan kənara çıxmalarını, müstəqil mühakimə yürütmələrini çətinləşdirir. Əksinə, yaradıcı təlim əməyində iştirak etmək, yeni biliyi mənimsəmək işində şagirdlər üçün stimul rolunu oynayır. Mənimsəmə prosesində şagird nə qədər çox şəxsi səy göstərsə, biliyə bir o qədər dərindən və şüurlu yiyələnər. Qabaqcıl müəllimlər bunu nəzərə alaraq yeni biliyin mənimsənilməsi prosesində şagirdləri daha çox düşünməyə, fəallıq və müstəqillik göstərməyə sövq edirlər.

Müstəqil işdə şagirdləri diqqətli olmağa alışdırmaq lazımdır. Əgər şagird müəllimi diqqətlə dinləsə, işi müstəqil yerinə yetirə bilər. Müəllimlər oxu fənninin tədrisində yalnız müsahibə metodundan istifadə etməklə kifayətlənirlər.

Müasir təlim metodlarının işçi mexanizmlərinin ampluası çox genişdir. Bu

üstünlüklər rəngarəng metodların tətbiqini daha zəruri edir. Unutmaq olmaz ki, sual-cavab şagirdlərin qazandıqları bilikləri yalnız yadda saxlamağa daha çox kömək edir. Materialın fəal, sistemli möhkəmləndirilməsinin əsas metodlarından biri də təkraretmə və yadasalmadır. Bunlar şagirdlərin təfəkkürünü inkişaf etdirən, onları düşündürən, axtarışlar aparmağa sövq edən metodlardır. Müşahidələr göstərir ki, şagirdlər tədris materiallarının bəzilərini asanlıqla anlayırlar, lakin az müddətdən sonra onu tədricən unudurlar. Həmin materialın möhkəmləndirilməsi zərurətə çevrilir.

Dərs prosesində şagirdlər fəallaşdıqda, müstəqil işlədikdə öz qüvvələrinə inanırlar, dərs daha canlı və maraqlı keçir.

Şagirdlərin təfəkkürünü və nitqini inkişaf etdirmək üçün hər bir hissəyə aid sual qoymağı, hekayənin planını tərtib etməyi öyrətmək lazımdır. Onlar tədricən hekayəni müstəqil hissələrə bölür, hər hissəyə başlıq verir, tərbiyəvi nəticə çıxarır, qəhrəmanlardan nümunə götürür, onlar kimi olmağa çalışırlar. Müstəqil iş müəllim tərəfindən düzgün müəyyənləşdirilməyəndə təlim prosesinə mənfi təsir göstərir.

İnteraktiv dərsin ən mühüm və mürəkkəb mərhələlərindən biri motivləşmədir. Dərsin sonrakı gedişi məhz onun hansı motivdə qurulmasından asılıdır. Dərsin motivi isə proqram materialının yüz faiz mənimsənilməsi üçün şagirdlərin fəallaşmalarını təmin edir. Bu zaman hər bir dərsin motivi onun məqsədinin necə müəyyənləşdirilməsi ilə şərtlənir. Bu, o deməkdir ki, müəllim dərsin məqsədini onun motivinə uyğun olaraq müəyyənləşdirməlidir. Əks halda motivləşdirmə ideyası öz bəhrəsini verməyəcək və dərsin interaktivliyi kölgədə qalacaq. Dərsin hansı motivdə qurulması, demək olar ki, təlim müvəffəqiyyətinin əsas meyarı hesab olunur, çünki düzgün motivləşdirmə aydın məqsədin üzə çıxmasına səbəb olur. Məqsəd nə qədər aydın olarsa, dərsin interaktivliyi öz dinamik çalarları ilə seçilər. Bu zaman şagirdlərin tədqiqatçılıq qabiliyyətinin üzə çıxarılması üçün şərait yaratmaqla yanaşı, onlarla aparılan məlumat mübadiləsi daha effektli olar, interaktivlik böyük səmərə verər.

Fikrimizi praktik nümunə ilə izah etməyə çalışaq. Sabunçu rayonu, 311 nömrəli məktəbin IV sinfində oxu dərsinin gedişini qələmə aldıq.

**Mövzu:** «Babək».

**Məqsəd:**

- şagirdlərdə mübarizlik və vətənpərvərlik hissini inkişaf etdirmək;
- həm müstəqil, həm də qruplarda məlumatları əldə etmə bacarığını inkişaf etdirmək;
- lüğətin zənginləşdirilməsi;
- rabitəli nitqin inkişafı;
- yaradıcı təfəkkürü inkişaf etdirmək.

**Resurslar:** dərslik, flomaster, işçi vərəqləri, filipkart.

**Motivasiya:** (5 dəq.) «İgid ölər, adı qalar».

Müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir:
– Uşaqlar, bu atalar sözü haqqında nə deyə bilərsiniz?
– Bu atalar sözü kimlərə aid edilir?
– Xalq qəhrəmanlarımızdan hansılarını tanıyırsınız?

**Tədqiqat sualı:**
– Necə adama qəhrəman deyirlər? (Uşaqların fərziyyələri filipkarta yazılır).
– İndi gəlin, belə qəhrəmanlardan biri haqqında oxuyaq.

Uşaqlar mətnlə tanış olurlar. Sonra sinif 4 qrupa ayrılır, işçi vərəqləri paylanır.

**Tədqiqat işi:** (15 dəq.)
I qrup: Babək xalq arasında necə tanındı və xalq nə üçün ona inandı?
II qrup: Babək kimlərə qarşı və nə üçün mübarizə aparırdı?
III qrup: Babəkin xarakterində xoşunuza gələn xüsusiyyətlər hansılardır?
IV qrup: Erməni cəlladları ilə mübarizədə seçilən hansı qəhrəmanları tanıyırsınız?

**Məlumat mübadiləsi:** (15 dəq.)
Qruplar öz işlərini təqdim edirlər. Onların arasında məlumat mübadiləsi aparılır. Şagirdlər bir-birinə suallar verir və əlavələr edirlər. Qrupların işi qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticə:** (10 dəq.)
– Uşaqlar, biz hansı qərara gəldik?
– Necə adamlara qəhrəman deyilir?
– Babək kimi qoçaq, dürüst, elin etibarını qazanan, dar ayaqda xalqa kömək olan, onun yolunda canını belə əsirgəməyən, bir gün azad yaşamağı 40 il qul kimi yaşamaqdan üstün tutan mərd oğullar qəhrəman adlanır. Babək əsl qəhrəman idi. Bu gün də Azərbaycanımızın ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla vuruşan və canını qurban verən Mübariz kimi igid oğullarımız var.

**Tətbiqetmə:**
– Evdə qəhrəmanlığa aid şəkil çəkin.

Belə qənaətə gəlmək olar ki, dərsin motivinin düzgün müəyyənləşdirilməsi onun interaktivliyini təmin etmiş olur. Belə bir şəraitdə fəallaşan şagirdlər mövzunun bütün məziyyətlərini müstəqil qavramaqla yanaşı, nümunəvi, əxlaqi sifətləri nümayiş etdirməyə səy göstərirlər. Bu prosesdə təhsilin öyrədici, tərbiyələndirici imkanlarından istifadə etməklə yetişən nəslin hərtərəfli inkişaf etmiş bir şəxsiyyət kimi formalaşması işində müvəffəqiyyət qazanmaq olar.

Göründüyü kimi, ibtidai siniflərin oxu dərslərində interaktiv təlim metodlarının köməyi ilə təlimin həm təhsilləndirici, həm inkişafetdirici, həm də tərbiyələndirici funksiyaları özünü daha qabarıq şəkildə büruzə verir.

Apardığımız müşahidələr belə bir qənaətə gəlməyə əsas verir ki, hər bir şagirdin fərdi və bütövlükdə sinfin ümumi psixoloji xüsusiyyətlərinin və mənimsəmə imkanlarının nəzərə alınması zəminində tədris olunmuş materialların qavranılması və onların ideya məzmununun dərk olunması işini uğurla həyata keçirmək mümkündür.

## Ədəbiyyat

1. Mehrabov A.O. Keyfiyyətin idarə olunmasında və yüksəldilməsində interaktiv təlim metodlarının rolu. «Təhsil Problemləri» qəzeti, № 33-34, 2008.
2. Kərimov Y.Ş. Təlim metodları. Bakı, «RS Poliqraf» MMC, 2009.
3. Kazımov N.M. «Oxu», (IV sinif üçün dərslik) Bakı, «Çaşıoğlu», 2005.
4. İsmixanov M.A. İbtidai təlimdə şagirdlərin müstəqil işləri. Bakı, «Maarif», 1987.
5. Məmmədbəyova T. İbtidai siniflərdə müəllim – şagird əməkdaşlığı. «İbtidai məktəb və məktəbəqədər tərbiyə», Bakı, 2009, № 2.



### Организация самостоятельных работ учащихся на уроках чтения с использованием интерактивных методов

**Резюме**

В статье комментируются самостоятельные работы учащихся на уроках чтения с использаванием интерактивных методов обучения. Указывается, что правильная организация самостоятельных работ способствует рациональному проведению обучательных занятий и преодолению трудностей в процессе чтения.

### Organization of pipils independent woork at reading lessons by means of use interactive teaching methods.

**Summary**

The article deals with the independent woork at reading lessons by means of use interactive teaching methods.

It is noted that correct organization of independent woork assists for rational holding of school studies and getting over difficulties in reading process.


# РАЗВИТИЕ ТВОРЧЕСКИХ СПОСОБНОСТЕЙ МЛАДШИХ ШКОЛЬНИКОВ НА УРОКАХ РУССКОГО ЯЗЫКА


**Татьяна Соболева,**
старший научный сотрудник
Института Проблем Образования
Азербайджанской Республики





***Ключевые слова:*** *творчество, познавательная активность, кроссворд, мышление и самостоятельность.*

***Key words:*** *creativity, cognitive activity, a crossword puzzle, thinking, and independence.*


В настоящее время большое внимание уделяется творческой деятельности учащихся. Обучение должно проводиться таким образом, чтобы у учащихся пробуждался интерес к знаниям, развивалась инициатива и самостоятельность в работе, чтобы в процессе обучения учащиеся не только овладевали знаниями, умениями и навыками, но и развивали познавательные способности. Творческая познаватель-

ная деятельность учащихся включает в себя самостоятельность в решении поставленных вопросов, учащиеся в работе не ограничиваются запоминанием изученного материала, а самостоятельно ею осмысливают, в объяснение и пересказ материала вносят свои собственные мысли. Воспитание грамотного, творчески мыслящего поколения – задача, стоящая перед современной школой.

Творчество – это процесс, в результате которого возникает какой -либо новый, не существовавший ранее продукт. Естественно, что в учебной ситуации в процессе творчества создается продукт лишь субъективно (для учащегося) новый; тем не менее характер процесса от этого не перестает быть творческим.

Из языка может быть создан только один продукт – речь (текст). Любая творческая работа на уроках русского языка будет нести в себе элементы обучения и направлена на развитие речи учащихся.

В процессе развития творческих способностей детей особое внимание следует обращать на максимальную стимуляцию самостоятельной деятельности младших школьников, на формирование у них устойчивых творческих интересов. В этой связи необходимо искать наиболее адекватные методы обучения с учетом возрастных и индивидуальных особенностей учащихся.

В настоящее время много классоводов на уроках русского языка используют современные методы обучения, так как однообразие на уроках вызывает скуку, не оставляет живого следа в душах детей, не способствует формированию у них положительной мотивации и познавательной активности.

Избежать этого учитель может, применяя всевозможные виды творческих заданий, поскольку преобладание репродуктивной деятельности СПраведливо считают одним из главных недостатков современного урока в начальной школе. Задания творческого характера прежде всего предполагающие вариативность решения и рассчитанные на реализацию творческих возможностей учащихся. Такие задания направлены на развитие интеллекта.

Характерной чертой творческих заданий является наличие в них не кАкого-либо познавательного содержания, а скрытых путей решения игровой задачи, что требует от младшего школьника нестандартного творческого мышления. На уроке каждый ученик работает в меру своих сил, поднимаясь на свою посильную ему ступеньку: главное, чтобы ученики думали, мыслили, творили, чтобы у них появился интерес к учебной деятельности и интерес к русскому языку.

Оживить и активизировать работу учащихся на уроках русского языка классоводам помогут творческие формы изучения и проверки усвоения программного материала: например, словесные игры, кроссворды и др.

В процессе повторения изученного фонетического материала учитель может использовать **вопросы-шутки:**

В каком слове семь и «я» ? (семья)

Что находится в начале книги? (к.)

Чем кончается день и ночь? (ь.)

Как стол превратить в стул?

А как дом превратить в дым?

Заменив первую букву в слове *точка,* образуйте новые слова.

**Загадки.**

Замените П на С.

Убегу тот час же в лес (ли<u>п</u>а – ли<u>с</u>а)

**Шутки.**

Рауф спрашивает:

– Сабир, как писать – г<u>и</u>гант или г<u>е</u>гант?

Сабир:

– Пиши – великан.

Кроссворды не оставляют равнодушными учащихся любого возраста, но педагогически оправданным является использование таких кроссвордов, которые составлены на базе основного программного материала.

Работа с кроссвордами не требует особых усилий. Объяснив однажды учащимся, как их нужно решать, учитель будет постепенно предоставлять детям все большую самостоятельность и результаты не заставят долго ждать: ученики очень быстро увлекаются этим занятием, появляется элемент соревновательности, ребята начинают сами составлять свои кроссворды и предлагают их для решения на уроке.

Отличительной особенностью кроссвордов является и то, что они могут быть использованы на любом этапе урока и способны привлечь внимание к учебной деятельности даже не самых трудолюбивых учеников.

Вычерчивание кроссвордов относительная трудность для учащихся. Разрешить проблему можно:

- Предварительно на доске начертить кроссворд, а текстовое пояснение учитель читает устно.
- Показ проекции кроссворда через кодоскоп или эпидиаскоп.
- При индивидуальном применении эффективным будет использование многоразового трафарета с прорезами вместо букв, который накладывается на лист бумаги. Изготовление трафарета можно поручить родителям или учащимся старших классов.

Примерные кроссворды:

**Кроссворд 1.**

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| М | М | М | М | М | М | М | М | М | М | М |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

- двенадцатая часть года (месяц);
- подземная железная дорога (метро);
- мера времени (минута);
- шкаф, парта, стол, буфет (мебель);
- помещение для продажи товаров (магазин);
- вид транспорта (машина);
- овощ, содержащий каротин (морковь);
- сильный ветер со снегом (метель);
- напиток белого цвета, полезный детям (молоко);
- предмет из грубой ткани для хранения овощей (мешок);
- расписывает окна зимой (мороз).

**Кроссворд 2.**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | О | | | | О | |
| | | О | | О | | |
| | | | О | | | |
| | | О | | О | | |
| | О | | | | О | |

- инструмент, которым забивают гвозди (молоток);
- инструмент, которым рубят дрова (топор);
- малина, клубника, арбуз (ягоды);
- большой населенный пункт (город);
- овощ красного цвета (помидор).

## Кроссворд 3.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | а | | | | а | |
| | | а | | а | | |
| | | | а | | | |
| | | а | | а | | |
| | а | | | | а | |

- ударный музыкальный инструмент (барабан);
- сладкий продукт, получаемый из свеклы (сахар);
- школьное помещение (класс);
- домашнее животное (баран);
- небольшое художественное произведение писателя (рассказ).

**Игра. Кто больше?**

Условия игры. Учащиеся должны написать слова, оканчивающиеся на букву <u>а</u>. Все слова должны обозначать предметы классной обстановки, учебные принадлежности. Время на написание слов 5-7 минут. Побеждает тот, кто правильно написал наибольшее количество слов.

Полезно предложить ученикам и небольшой кроссворд, в результате решения которого они получат ряд существительных, отличающихся друг от друга первым согласным.



По горизонтали:
2. Порода охотничьих собак.
5. Плотная мягкая ткань.
6. Небольшая булочка.
8. Деталь с отверствием, имеющая винтовую резьбу.
По вертикали:
1. Водоплавающая птица.
3. Рубашка без рукавов.
4. Уменьшительное название животного из породы грызунов.
7. Деревянный сосуд с ручками. (лайка, байка, чайка, сайка, гайка, майка, зайка, шайка).

В заключении хочется отметить, что, чем больше в классе проводится работ, способствующих формированию у школьников творческого мышления, познавательной активности, тем эффективнее процесс обучения языку, интереснее и содержательнее уроки.

## Литература

1. Купалова А.Ю. Совершенствование методов обучения русскому языку. М., 1981.
2. Безрукова В.С. Все о современном уроке в школе: проблемы и решения. М., 2004.
3. Пичугин С.С. К вопросу о развитии творческих способностей учащихся. М., 2009.

## Развитие творческих способностей младщих школьников на уроках русского языка
## Резюме

В статье говорится о развитии творческих способностей младщих школьников на уроках русского языка.

В качестве примера приводятся материалы, которые учителя начальной школы могут использовать на уроках русского языка.

## Creative talents of schoolchildren mladschih in the Russian language lessons
## Summary

The article says about the development of creative abilities of primary school children in the Russian language lessons.In the example used is that elementary school teachers can use in the Russian language lessons.

# İNTERAKTİV TƏLİM VƏ YÜKSƏK KEYFİYYƏT

**Şəlalə Həsənova,**
Ucar şəhər, 3 nömrəli orta məktəbin müəllimi

***Cəmiyyətimizin inkişafı müasir təhsildən çox asılıdır.***
**H.Əliyev**



1999-cu ildə ulu öndərin imzası ilə təsdiqlənən "Azərbaycan Respublikasının islahat proqramı" təhsilimizi uğurlu gələcəyə aparan bir addım oldu. Elə o vaxtdan təhsil sahəsində çox mühüm işlər görülür. Məqsəd təhsilin keyfiyyətinin yüksəldilməsi, ölkəmizin gələcək inkişafı və tərəqqisini təmin edəcək, tənqidi düşünən, müstəqil mühakimə yürüdə bilən, istedadlı və qabiliyyətli gənc nəsil yetişdirməkdir.

Yeni təlim metodlarından istifadə etdikcə şagirdlərdə yaradıcı düşüncə, müstəqil öyrənmə, tədqiqatçılıq və tətbiqetmə bacarıqlarının formalaşdığının şahidi oluruq.

Fəal təlimdə fərdi, cütlərlə, qruplarla iş formalarından, BİBÖ, beyin həmləsi, klaster kimi metod və priyomlardan, didaktik oyunlar, testlər, məntiqi çalışmalardan istifadə edərkən şagirdlər fəallaşır, dərsə maraq artır.

Belə dərslərdən birini – IV sinifdə "Xeyirli çay" mövzusunda dərs nümunəsini təqdim edirəm.

**Mövzu:** "Xeyirli çay"

**Məqsəd:**

- doğma yurda bağlılıq hissini möhkəmləndirmək;
- təbiətdə insan əməyinin rolunu başa salmaq;
- Kür çayının insanlara xeyrini açıqlamaq.

**İş forması:** kiçik qruplarla iş.

**Metod və priyomlar:** beyin həmləsi, müzakirə, müsahibə.

**Resurslar:** dərslik, vatman kağızı, kartoçkalar, işçi vərəqləri, kompyuter, proyektor, skoç.

## Dərsin gedişi

**Motivasiya:** Şagirdlərə vatman kağızı üzərində çəkilmiş, evləri dağıdan, ağacları yıxan, heyvanları aparan aşıb-daşan çay rəsmi göstərilir.

Müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir:

- Şəkildə nə təsvir olunub? (daşmış çay.)
- Çay nə üçün daşmışdır? (yağışlar nəticəsində)

– Sizcə, bu hansı çaydır? (Kür çayı.)

– Bu nə vaxt olmuşdur? (2010-cu ildə)

– İndi Kürün vəziyyəti haqqında nə deyə bilərsiniz? (Bəndlər tikilir, çayı dibi təmizlənir ki, yeni daşqınlar olmasın)

Müzakirədən sonra müəllim şagirdləri tədqiqat sualının qoyulmasına yönəldir.

**Tədqiqat sualı:** Kür çayının həyatımızda rolu nədən ibarətdir?

Tədqiqat sualı ətrafında şagirdlərin fərziyyələri dinlənilir.

**Tədqiqatın aparılması:** Kəsmə hərflərin (T,A, Ş,Q) köməyilə şagirdlər 4 grupa bölünürlər. Şagirdlərə açıqlayıram ki, qruplarınıza verilən adlar mövzumuzla əlaqədardır, onlar Kür çayının qollarıdır. Qruplara işçi vərəqləri paylanılır, suallar və tapşırıqlar səsləndirilir, verilmiş vaxt ərzində işin yerinə yetirilməsi tapşırılır.

I. Türyançay qrupu. Bənd qurulduqdan sonra nələr baş verdi?

II. Araz qrupu. Kür su mənbəyi kimi insanlara hansı xeyri verir?

III. Qudyalçay qrupu. Min illərdən bəri susuz qalmış səhralarımızın (Mil, Muğan, Şirvan) indiki vəziyyətini təsvir edin.

IV. Qanıx qrupu. Bu gün insan Kür çayının köməyi ilə hansı xariqələr yaratmışdır?

Qruplar tapşırıqları yerinə yetirdikdən sonra liderlər iş vərəqlərini yazı taxtasından asır və təqdimatlarını edirlər. Qrupların işlərinə əlavələr olunur, suallar verilir. Sonra qruplar nömrələnmiş üçbucaqları yazı taxtasında elə yerləşdirirlər ki, Kürün indiki vəziyyətinin təsviri alınsın. Yazı taxtasındakı hər iki şəkil (motivasiyada verilən şəkil və indiki təsvir) müqayisə edilir.

Yönəldici suallardan sonra şagirdlər Kürün indiki vəziyyətini əks etdirən slaydları proyektorda izləyirlər.

Sonda müəllim Kürün həyatımızda rolundan, bizim ona münasibətimizdən, çayın niyə "Ana Kür" adlandırıldığından danışır və Gülağa Məmmədovun ifasında "Ana Kür" mahnısı səsləndirilir. Dərsin axırında əvvəlcədən yazı taxtasında asılmış cədvəldə hər bir qrupun nəticələri meyarlara əsasən qiymətləndirilir.

**Yaradıcı tətbiqetmə:** Kür haqqında daha ətraflı məlumat toplamaq, Kürə aid şeir, tapmaca və mahnı öyrənmək.

# I SİNİFDƏ RİYAZİYYATDAN HƏNDƏSİ FİQURLARIN QRUPLAŞDIRILMASI

**Güləbətin Tağıyeva,**
Bakı şəhəri, 238 nömrəli məktəbin müəllimi



**Standartlar: 3.2.2., 3.2.3.**

3.2.2.Sadə həndəsi fiqurlarin əlamətlərinə (rənginə, formasina, ölçüsünə) görə təsnifatini aparir və təsnifatin nəticəsini şərh edir.

3.2.3.Məsələlərin həllində və sxematik təsvirində sadə həndəsi fiqurlardan istifadə edir.

**Məqsəd:**

- şagirdlərə sadə həndəsi fiqurları əlamətlərinə görə ayırmağı öyrətmək;
- həndəsi fiqurlari qruplaşdırmağı və nəticəni şərh etməyi öyrətmək;
- sxematik təsvirdə sadə həndəsi fiqurlardan istifadə etməyi başa salmaq.

**İnteqrasiya:** A.D, 1.2.1. ; İNF. 1.2.2. , 1.2.3. ; H.B. 1.1.1.

**İş forması:** kollektiv və kiçik qruplarla

**İş metodları və priyomları:** beyin həmləsi, müzakirə.

**Resurslar:** dərslik, kompyuter, proyektor, cd-rom"info-ko 1", plakatlar, işçi vərəqləri, qiymətləndirmə cədvəli, rəngli karandaşlar, yapışqan, qayçı, rəğbətləndirmə kartları, şəkillər.

**Dərsin tipi:** induktiv

## Dərsin gedişi

**Motivasiya:** "Patrik" cizgi filmi izlənilir. Cizgi filmində Patrik qırmızı topla oynayarkən topu həndəsi fiqurlara qarışır. O, topu tapa bilmir və dostlarından kömək istəyir. Dostları bütün həndəsi fiqurları rənglərinə uyğun ayırırlar. Patrik yenə topunu tapa bilmir. O, qırmızı fiqurları formasına görə qruplaşdırır və topunu tapır. Cizgi filmini izlədikdən sonra frontal sorğu təşkil edirəm .

– Uşaqlar, baxdığınız cizgi filmi haqqinda nə söyləyə bilərsiniz?
– Patrikin topu itir, dostları ona köməyə gəlirlər.
– Uşaqlar, dostları Patrikə necə kömək edirlər?
– Dostları eyni rəngdə olan fiqurları arabalarına yığırlar.
– Hansı rəngdə fiqurlar yerdə qalır?
– Qırmızı rəngdə olanlar. Axı Patrikin topu qırmızı idi. Dostları qrmızı fiqurları saxladılar ki, Patrik topunu tapa bilsin
– Patrik topunu necə tapdı?

– Patrik fikirləşib fiqurları formasına görə qruplaşdırdı və topunu yumru formada olan fiqurların içindən tapdı.

Dinlənilən fikirlərdən aydın oldu ki, Patrikin dostları fiqurları rənginə, özü isə formasına görə qruplaşdırdı. Biz bildik ki, həndəsi fiqurları əlamətlərinə görə qruplaşdırmaq olar.

Dərsin adı elan edilir.

Dərslikdə həndəsi fiqurların qruplaşdırılmasına aid verilmiş tapşırıqlar şagirdlər tərəfindən yerinə yetirilir. Şagirdlər bu tapşırıqlarda həndəsi fiqurları formasına, rənginə və ölçüsünə görə qruplaşdırırlar. Uşaqların fikirlərini həndəsi fiqurların qruplaşdırılmasının əhəmiyyətinə yönəltmək üçün tədqiqat sualı qoyuram.

**Tədqiqiat suali:** Bütün həndəsi fiqurlar eyni olsa idi, nə olardı?

Uşaqları dörd qrupa ayırır, onların hər birini bir həndəsi fiqurun adı ilə (üçbucaq, kvadrat, dairə, düzbucaqlı) adlandırıram. Qruplara həmin həndəsi fiqurların təsvir olunduğu kartları təqdim edirəm.

Qrupda iş qaydalarını və verilmiş vaxtı şagirdlərə xatırladıram. Hər bir qrup öz liderini seçir.



Qruplara işçi vərəqləri paylanılır.












Tapşırıqların yerinə yetirilməsinə 10dəqiqə vaxt verilir.
Hər qrupun təqdimatından sonra qrupun işi müzakirə olunur. Müzakirə kompyuterin köməyi ilə işiqlandırılır.
Qrupların işi qiymətləndirilir və onlara rəğbətləndirmə kartları təqdim olunur.

| Qruplar / Meyarlar | | | | |
|---|---|---|---|---|
| Həndəsi fiqurları əlamətlərinə görə qruplaşdırır. | | | | |
| Sxematik təsvirdə sadə həndəsi fiqurlardan istifadə edir. | | | | |
| Həndəsi fiqurların əlamətlərinə görə təsnifatını aparır, nəticəni şərh edir. | | | | |
| Əməkdaşlıq | | | | |
| Yekun | | | | |

 ———— Tam ödəyir.

 ———— Qismən ödəyir.

 ———— Ödəmir.

**Idman dəqiqəsi**. Uşaqlar xorla oxuyaraq musiqiyə uyğun hərəkətlər edirlər.

Biz hamımız sayırıq düzünə və tərsinə,
Toplama, çıxma ilə tanış oluruq həm də.
Çoxu azdan seçirik, bərabəri bilirik,
Bütün tapşırıqları asanca həll edirik.

***

Həndəsi fiqurları bir-birindən seçirik,
Düzbucağı, dairəni, kvadrat, üçbucağı.
Rəngli kağızlar ilə kəsirik biz, düzürük,
Şən keçir məşğələmiz, hey artır biliyimiz.

**Ümumiləşdimə :**

– Həndəsi fiqurlar hansı əlamətlərinə görə qruplaşdırılır?
– formasına görə;
– rənginə görə;
– ölçüsünə görə.

Slaydlar üzərində sorğu keçirirəm.



– Göstərilən slaydlarda həndəsi fiqurlar necə qruplaşdırılıb?.



ölçüsünə görə



rənginə görə



formasına görə

**Qruplararasi yarişma**

"İnfo-ko 1"-də işləmək . Kompyuterdə həndəsi fiqurların köməyi ilə klounun quraşdırılması nümayiş etdirilir.



Hər bir qrup "İnfo –ko 1" diskində konstruktor bölməsində bu klounu quraşdırır. Bunun üçün 3 dəqiqə vaxt verilir. Qalib qrup mükafatlandırılır.

**Nəticə:** Tədqiqat sualına qayıdaraq nəticəyə gəlirik. Şagirdlərin fikirləri dinlənilir.

"Bütün həndəsi fiqurlar eyni olsaydı.......".

- Patrik topunu tapa bilməzdi.
- Kloun quraşdıra bilməzdik.
- Maşın quraşdıra bilməzdik.
- Raket quraşdıra bilməzdik.
- Ev tikmək olmazdı.

Uşaqların fikirlərinə münasibətimi video kadrla bildirirəm. Göstərilən kadrlarda xalçalarımız, tarixi abidələrimiz, yeni tikililərimiz əks olunur. Kadrlara istinadən həndəsi fiqurların bu günkü həyatımızda yeri və əhəmiyyətini vurğulayıram.

Fikrimi yekunlaşdırıb uşaqlara müraciət edirəm:

– Bu bizim böyüklərimizin yaratdıqlarıdır. Bəs görək siz həndəsi fiqurları qruplaşdırmaqla balaca dovşana ev qura bilərsinizmi?

Slaydı nümayiş etdirərək tapşırıq haqqında məlumat verirəm:

– Balaca bir dovşan evsizdir. O bizdən kömək istəyir və deyir ki, biz ona bu köməyi riyazi biliklərimizlə göstərə bilərik.

**Dovşanın nağili :** Riyazi ifadələr yerinə yetirilərək fiqurlarin köməyi ilə dovşanın evi qurulur.








## Kompyuterdə testlər
















## Ev tapşiriği. (slayd)




Dərsi Qalileyin bir fikri ilə yekunlaşdırıram:

– Dünya riyaziyyat üzərində qurulmuş möhtəşəm, əzəmətli bir binadır. Bu binanın ilk işarələri həndəsi fiqurlardır. Bu gün biz o möhtəşəm binanın ilk işarələri olan həndəsi fiqurlar haqqında biliklərimizi zənginləşdirdik.

## II SİNİFDƏ HƏNDƏSİ FİQURLARLA İŞİN TƏŞKİLİ

**Aynur Kərimova,**
Bakıdakı 54 nömrəli məktəbin müəllimi



**Mövzu:** Həndəsi fiqurların bərabər hissələrə bölünməsi

**Məqsəd:** • həndəsi fiqurları verilən sayda hissələrə bölə bilmək;

- tələb olunan hissələri rəngləyib ayırmaq;
- hissələri tama nəzərən sözlə ifadə edə bilmək;
- hissələri müqayisə etmək.

**İnteqrasiya:** Azərbaycan dili 1.1.1, 1.2.1, 2.1.3; təsviri incəsənət 2.2.2;texnologiya 1.1.2.

**İş forması :** kiçik qruplarla iş, fərdi iş.

**Metod və priyomlar:** müşahidə, müzakirə, beyin həmləsi, təqdimat, klaster, rollu oyun.

**Resurslar:** dərslik, iş dəftəri, işçi vərəqləri, həndəsi fiqurlar, kompyuter, kartlar, pazl, qələmlər.

**Dərsin tipi:** induktiv

### Dərsin gedişi

Salamlaşma, sinif qruplara ayrılır, liderlər seçilir. Həndəsi fiqurlar düzüm lövhəsinə qoyulur. Beş nəfər gəlib, götürür. Qalan uşaqlar stolun üstünə qoyulmuş şəkillərdən həndəsi fiqurlara oxşayanları seçib, onların arxasında dururlar. Şagirdlər yerlərinə keçirlər.

**Qruplar:** Kvadrat, üçbucaq, düzbucaqlı, dairə, fiqurlar (kub, kürə, konus, düzbucaqlı prizma, silindr).

**Motivasiya:** Fiqurları biz neçə yerə bölmüşdük? (müstəvi, fəza).

Şagirdlər yazırlar:



Şagirdlərdən bu məlumatlar alındıqdan sonra qruplarla işə başlanır. Hər bir qrup öz işini təqdim edir. Şagirdlərin göstərdikləri fəallıq qiymətləndirilir.

– Siz qrup işlərində həndəsi fiqurları hissələrə böldünüz və rənglədiniz.

Mən bir almanı yeyə bilmirəm. Onu iki yerə bölürəm. Bu fikri başqa sözlə, necə ifadə edə bilərəm?

Uşaqların fərziyyələri:

–Yarıya bölmək.

– Əşyanı daha necə bölmək olar?

– Kiçik hissələrə.

–Siz hissəyə bölmək anlayışını misallar üzərində yerinə yetirdiniz.

Biz evdə və ya həyatımızda nələri hissələrə bölürük?

– Tortu, piroqu, çörəyi, torpağı, başqa əşyaları.

Düzbucaqlı çəkin, onu bərabər hissələrə bölüb, rəngləyin.

Kvadrat çəkin, onu hissələrə bölüb, rəngləyin.

Dairə çəkin, onu bərabər hissələrə bölüb, rəngləyin.

Üçbucaq çəkin, onu bərabər hissələrə bölüb rəngləyin.

Bayraq şəkli çəkin. Onu üç hissəyə bölüb, dövlət bayrağımızın rəngləri ilə rəngləyin.

**İnformasiya mübadiləsi.**

İşlər təqdim edilir. Qruplar bir-birini alqışlayır.

Hər qrupdan bir nəfərə alma verib, 4 yerə bölməyi tapşırıram.

**Tapşırıq**. Alma dilimlərindən neçəsini özünüz üçün götürür, neçəsini dostunuza, rəfiqənizə verərdiniz?

I qrup.



2 dilim dostuma,
2 dilim - özümə

II qrup



3 dilim – özümə,
1 dilim-dostuma

III qrup



3 dilim-dostuma,
1 dilim-özümə

IV qrup



hamısı
özümə

V qrup

hamısı
dostuma



Cavablar müzakirə edilir. Süallar verilir, məqsəd aydınlaşdırılır. Dərsliklə (riyaziyyat, səh.129) iş aparılır.

Oyun. Vərəqlər təqdim edilir, qatlama yerinə yetirilir.



İki cərgə kvadrat çəkin:

- bərabər; 

- bərabər olmayan. 

Tapşırığı həll edin.

Əgər a bərabərdirsə, b və c bərabərdirsə ç bəs d və e arasında münasibət necə olacaq?

Tapşırığı həll edin.

Əgər a bərabər deyilsə, b, və c bərabər deyilsə, ç bəs d və e arasındakı münasibət necə olacaq? Niyə?

Tapşırığı həll edin.

Əgər a böyükdürsə b və c böyükdürsə bəs ç və d e arasında münasibət necə olacaq? Niyə?

Tapşırığı həll edin.

İki cərgə kvadrat çəkin.

- iki dəfə böyüyənlər: 

- *iki dəfə kiçilənlər:* 

Əgər bu iki dəfə böyükdürsə, bu da iki dəfə böyükdür .

Belə isə və hansı münasibətdədir? Nə üçün?

Əgər bu iki dəfə kiçikdirsə, və iki dəfə kiçikdirsə, onda və arasında münasibət necədir?

**Nəticə.**

Dərs şagirdləri həndəsi fiqurlar üzərində bərabərlik və kəsr anlayışına hazırladı. Onlarda həndəsi fiqurların ölçüsünü müqayisə etmək və təxmin etmək təsəvvürləri formalaşdırdı. Uşaqlar eyni fiquru çox hissələrə bölərkən

hissələrin kiçildiyini, az hissələrə böldükdə isə hissənin nisbətən böyük olduğunu dərk etdilər. Bunu sözlə ifadə etməyi öyrəndilər.

Şagirdlərə razılığımı bildirib, nəticələri meyar cədvəlində qeyd edirəm. Hamı qalib hesab olunur.

**Ev tapşırığı.**

Mövzunu başa düşdüklərini nümayiş etdirmələri üçün iş dəftərinin 127-ci səhifəsi üzrə ev tapşırığı verilir.

**İşçi vərəqi**
**(I qrup)**

1. Alqoritmə görə əməlləri həll edin.

17-6= 7-3=
20:5= 65-13=



## İşçi vərəqi
## (II qrup)

1.Əqrəbləri elə çək ki, 6-nı göstərsin.



2. Hesabla və rənglə.




10 göy

8 qırmızı

6 yaşıl

## İşçi vərəqi
## (III qrup)

**1.**Hesabla və rənglə.

| | |
|---|---|
| 37+25= | 17-13= |
| 87-13= | 58-10= |

62 narıncı    30 sarı
74 çəhrayı    48 yaşıl

2. Məsələni həll et.



Məsələnin şərti. Məlumdur. Tapmalıyam: həlli, cavab.

İşçi vərəqi

1. Üç ədədin iştirakı ilə vurma və bölmə əməllərini yaz.




1. Məsələni həll et.
8 litrlik bidondan əvvəlcə 2 litrlik, sonra 1 litrlik banka ilə su götürdülər. Bidonda neçə litr su qaldı?

Hesabla:



İşçi vərəqi
(IV qrup)

1. Fiquru 4 yerə böl, bir hissəsini rənglə.



fiqur__________
neçə hissəi______
rəngli__________
rəngsiz__________

2. Hesabla və rənglə






Dərsin bütün mərhələlərində aparılan qiymətləndirmə «+», «-» işarələri ilə göstərilir.

| meyar | qrup | dinləmə | təqdimat | yaradıcılıq | əməkdaşlıq | nəticə |
|---|---|---|---|---|---|---|
| Kvadrat<br>Üçbucaq<br>Dairə<br>Düzbucaq<br>fiqurlar |  | | | | | |

Özünüqiymətləndirmə



– Dərsi yaxşı başa düşdüm və fəal idim.



– Dərsi yaxşı başa düşmədim, səhvlər buraxmışam.



– Heç nə başa düşmədim, çoxlu səhvlər buraxmışam.



– Dərsə qulaq asmadım.

# PEDOLOGİYA ELMİNİN LƏĞV OLUNMASININ SOSİAL - PSİXOLOJİ TƏHLİLİ

**Ramiz Əliyev,**
psixologiya elmləri doktoru, professor



***Açar sözlər:*** *pedologiya, şəxsiyyət, təhsil, psixoloji-pedaqoji şərait.*

***Ключевые слова:*** *педология, личность, образование, психолого-педагогические условия.*

***Key words:*** *pedology, personality, education, psychological and educational conditions.*

Zaman keçdikcə vaxtilə baş vermiş hadisələrə yenidən qayıtmaq zərurəti yaranır. Bu zərurət bir neçə səbəbdən baş verir: tarixi təcrübənin öyrənilməsi, yol verilmiş səhvlərin təkrarlanmaması,ədalətin bərpa olunması və s.

Mövcud olduğu 70 ildən bir qədər artıq vaxtda sovet hakimiyyəti vaxtaşırı yeni-yeni "xalq düşmənləri" obrazı yaratmış və xalqı ayıq-sayıq olmağa, onlarla mübarizə aparmağa çağırmışdır.

İnqilabın qələbəsindən sonra ağqvardiyaçılarla vətəndaş müharibəsi, sonra sinfi düşmən olan kapitalist və mülkədarlarla, daha sonra əqidə düşmənləri olan əsərlərlə, menşeviklərlə mübarizə aparıldı, nəhayət, növbə partiya yoldaşlarına – trotskiçilərə, buxarinçilərə, rıkovçulara çatdı. Kollektivləşmə dövründə sinfi mübarizə daha da şiddətləndi, hədəf qolçomaqlar oldu. Beləliklə, daim xalq düşmənləri, xarici ölkələrə işləyənlər, casuslar tapılırdı. Bir sözlə, az qala xalqın özü düşmənə çevrilirdi. İnsanlar daim qorxu, xof, təlaş içərisində saxlanılırdı.

1936-cı ildən başlayaraq hadisələr pik nöqtəsinə çatdı. Kütləvi repressiyalara start verildi. Eyni zamanda mücərrəd bir ideya ortalığa atıldı: marksizm-leninizm ideyalarına qarşı çıxanların ifşa və məhv edilməsi. Bu prosesdə ayrı-ayrı insanlarla yanaşı, elm sahələri də repressiyaya uğrayırdı. Bunların sırasında psixologiya və pedologiya da var idi. Psixologiya elmi bir təhər qorunub saxlandı. Pedologiya elmi isə "zərərli elm sahəsi" kimi məhv edildi. Sonralar həyat göstərdi ki, pedologiyanın ləğvinin özü zərərli imiş. Əlbəttə, bu günün gözü ilə baxıb, tarixi keçmişi qiymətləndirmək asandır, lakin prosesin daxilində olub onu qiymətləndirmək, həqiqəti demək çətin, təhlükəli, insanın həyatı bahasına başa gələn iş idi.

Bu yazıda biz pedologiyanın taleyinə həm də sosial-psixoloji, ictimai-tarixi proseslər baxımından yanaşaraq onu təhlil etməyə çalışacağıq.

*Pedologiya* yunan sözü olub, mənası *"uşaqlar haqqında elm"* deməkdir. Bu elm XIX əsrin sonlarında Avropada yaranıb. Az sonra Rusiyada qəbul olunub. Onun əsasını psixologiya və pedaqogikanın sintezi təşkil edir.

Maraqlıdır ki, bu dövrdə uşaqların öyrənilməsi pedologiya baxımından aparılırdı. Pedologiyanın yaradıcıları sırasına ingilis alimləri Darvin, Romanes, Selli, Bolduin, fransız alimləri Bine, Anri, alman alimləri Ebbinhauz, Erdman, Meyman, Vundt, Ştern və başqaları aid edilirlər. Rusiyada pedoloji ideyaların yaranması tarixi 1901-ci ildən götürülür. Həmin il A.P.Neçaev Rusiyada ilk eksperimental pedaqoji psixologiya laboratoriyasını yaradır. Onunla bərabər Moskva Pedaqoji Cəmiyyətinin nəzdində Pedologiya şöbəsi açılır. Pedologiya şöbəsinin əsasını qoyanlar arasında məşhur psixoloq Lazurski də vardı. Pedoloji şöbənin əsasında 1908-ci ildə A.P.Neçaev Pedaqoji Akademiya, V.M.Bexterev isə Pedoloji və Psixonevroloji İnstitutu yaradır. Bu sahədə çalışan psixoloqlar, həkimlər, fizioloqlar, gigiyenistlər pedoloji kadrlar hesab edilirdilər. Pedologiya uşaqları öyrənən bir elm sahəsi kimi öz fəaliyyətini dörd mühüm prinsip üzərində qururdu.

***Birinci prinsip.*** Uşaqları "hissələrə ayıraraq" öyrənməkdən imtina etmək. Yəni fizioloqlar, psixoloqlar, nevropatoloqlar uşaqları öz profillərinə uyğun olaraq ayrılıqda öyrənməməlidirlər. Pedoloqlar hesab edirdilər ki, bu yolla uşaq haqqında hərtərəfli bilik əldə etmək mümkün deyil.

***İkinci prinsip.*** Pedoloqlar qəbul edirdilər ki, uşaq daim inkişaf edən varlıq olduğundan, onu dinamik inkişafda öyrənmək lazımdır. Bu, genetik prinsipdir.

***Üçüncü prinsip.*** Uşaq mövcud olduğu sosial mühitdə inkişaf edir, formalaşır. Məişət şəraiti, ətraf aləm, ictimai mühit ona əsaslı təsir göstərir.

***Dördüncü prinsip.*** Pedologiya yalnız nəzəri deyil, uşaqla bağlı praktik fəaliyyəti qəbul edən elm sahəsidir. Məhz elə bu səbəbdəndir ki, pedoloqlar uşağın inkişafının psixoloji diaqnostikasını aparır, pedaqoji-psixoloji məsləhətlər verir, valideynlərlə əlbir işləyirdilər.

Pedoloji ideyalar getdikcə vüsət alır, beynəlxalq aləmdə qəbul olunur. 1911-ci ildə Brüsseldə pedoloqların I Beynəlxalq konqresi keçirilir. Konqresin işində dünyanın 22 ölkəsindən nümayəndələr iştirak edirlər.

Konqresdə belə bir qənaətə gəlinir ki, pedologiya biososial elm sahəsi olmaqla fəlsəfə, pedaqogika, tarix, psixologiya, fiziologiya elminə istinad edir. Başqa sözlə, pedologiya bu elmlərin vəhdəti əsasında yaranır.

XX əsrin 20-ci illərində Rusiyada pedologiya özünün intibah dövrünü yaşayır. Oktyabr inqilabının qələbəsindən sonra pedologiya bir elm sahəsi kimi geniş vüsət almağa başladı. Məhz həmin dövrdə pedologiya Azərbaycanda da təşəkkül tapır.

Rusiyada pedologiya ilə Basov, Blonski, Vıqotski, Zalkind kimi məşhur alimlər məşğul olurdular. 1928-ci ildə pedoloqların I Ümumittifaq qurultayından sonra L.S.Vıqotski yazırdı: "Bizdə pedoloqlar çoxdur. Müxtəlif pedoloji qruplar,

məktəblər, istiqamətlər, institutlar vardır, lakin hələ də sovet pedologiya elmi yoxdur".

Pedologiyanın metodoloji əsasları barədə pedoloqlar arasında fikir ayrılığı yox idi. Pedologiyanın ideoloji əsasının marksizm olmasını hamı qəbul edirdi. Fikir ayrılığı başlıca olaraq bu və ya digər konkret metodoloji oriyentasiya ilə bağlı idi. Bu yöndə diskussiyalar "Pedologiya" jurnalının səhifələrinə çıxarılır, fərqli mövqelər əsaslandırılırdı.

Pedologiyanın başlıca məsələlərinə dair diskussiyalar, mövqe ayrılığı tamamlanmamış ölkə həyatında baş verən ictimai-siyasi proseslər ona son qoydu.

20-ci illərin sonunda Stalin və onun tərəfdarları partiya və hökumətin yuxarı eşalonunda hakimiyyəti tamamilə ələ keçirdilər. Bununla da ölkədə totalitar rejim vüsət aldı. Əks fikirlilər yalnız ideoloji deyil, fiziki cəhətdən də məhv edilirdilər. Bütün sahələrdə olduğu kimi, sovet elmi də ideolojiləşdirilmişdi. P.P.Blonski, K.N.Kornilov, M.Y.Basov və digər görkəmli pedoloqlar marksizm-leninizm ideyalarından uzaq olmaqda, bir çox hallarda ona qarşı çıxmaqda ittiham olunurdular. Onlar özləri də səhvlərini etiraf edirdilər. Tarixin öz qanunları və qisası var. Həmin alimlər 20-ci illərin əvvəllərində nüfuzlu, yaşlı alimləri marksizmə zidd mövqe tutmaqda ittiham edirdilər. Əgər ideoloji-siyasi kompaniyanın birinci mərhələsində mücərrəd "xalq düşməni"ndən danışılırdısa, artıq 30-cu illərin ortalarında konkret adlar, ünvanlar göstərilirdi.

Marksizm-leninizm klassiklərinin ideyalarının kor-koranə, zorakılıqla elmin bütün sahələrinə gətirilməsi və tətbiq edilməsi, partiyanın ideoloji-siyasi xəttinin həyata keçirilməsi bəsit şəkildə qanuniləşdirilirdi. Hələ 1927-ci ildə L.S.Vıqotski marksizmə kor-koranə istinad edən "marksist psixologiyanı" ehkamçılıqda tənqid edirdi.

1931-ci ildən başlayaraq pedoloqlara təzyiqlər daha da şiddətlənməyə başladı. Artıq söhbət elmi mövqedən, diskussiyadan yox, təxribatdan, ideoloji-siyasi savadsızlıqdan gedirdi. A.P.Babuşkin A.A.Smirnovun "Uşaq və yeniyetmələrin psixologiyası" əsərini elmi yox, ideoloji-siyasi yönümdən təftiş edirdi. Hətta məqalənin başlığı da ideolojiləşdirilmişdi. A.P.Babuşkinin məqaləsi belə adlanırdı: "Sovet uşaq və yeniyetmələrinə eklektik və reaksion böhtan". A.P.Babuşkinə görə, A.A.Smirnovun kitabı ziyanlı olduğundan dərhal istifadədən çıxarılmalıdır. Müəllifə isə xəbərdarlıq olunur ki, əgər o, sovet psixoloq və pedaqoqlarının sırasında çalışmaq istəyirsə, özünü yenidən qurmalıdır.

Artıq 1932-ci ildə pedologiyanın bir elm sahəsi kimi mövqeyi zəifləyir, "Pedologiya" jurnalının nəşri dayandırılır. Pedologiyanın mövqeyi zəiflədikcə ona hücumlar da artır. Xüsusilə, pedaqoqlar pedologiyaya qarşı daha sərt mövqe tutur, təklif edirdilər ki, ali məktəb və texnikumlarda pedologiyanın tədrisi dayandırılsın.

20-30-cu illərdə pedologiyanın tətbiqi prosesində bir sıra səhvlər buraxılmışdı. Belə ki, pedoloqlar irsiyyətin rolunu hədsiz şişirdir, əqli inkişafı müəyyənləşdirmək üçün heç də həlledici olmayan, əsaslandırılmayan testlərin nəticələrini

qeyd-şərtsiz qəbul edirdilər. Digər nöqsanlara da yol verilirdi. Əlbəttə, bunlar heç də pedologiyanın bir elm sahəsi kimi ləğv olunmasını şərtləndirmirdi, lakin onların istinad etdikləri başlıca amil irsiyyətlə bağlı idi. Sovet ideologiyası isə irsiyyəti qəbul etmirdi. Deməli, pedologiya sovet ideologiyasına qarşı çıxırdı.

Maraqlıdır ki, pedologiyanın ləğvi ilə bağlı bir sıra rəvayətlər, miflər də yaranmışdı. Onlardan biri belə idi: "Məktəb pedoloqları Stalinin oğlu Vasilini testdən keçirir, onun əqli cəhətdən geri qaldığını müəyyənləşdirirlər. Stalin bundan xəbər tutur və testləşdirməni, eləcə də pedologiyanı "proletariatın alçaldılması və ona təzyiq edilməsi vasitəsi" elan edir. Bundan sonra onun ləğv olunması barədə qərar qəbul olunur.

Digər ehtimallar da var. Onlardan biri də siyasi xarakterlidir. Pedologiya Xalq Maarif Komissarlığının tabeliyində və himayəsində idi. Xalq Maarif Komissarlığına isə köhnə bolşeviklər A.Bubnov və N.K.Krupskaya rəhbərlik edirdilər. Başqa sözlə, pedoloqların "düşmən fəaliyyəti"nə onlar cavabdeh idilər. Dahi Leninin dul qadını Nadejda Konstantinovna təhlükə mənbəyi hesab olunurdu. O, partiyanın XVIII qurultayında hansısa ağlasığmaz ideyalarla çıxış edə bilərdi. Stalin də bundan ehtiyat edirdi, amma görünür nahaq yerə. Krupskaya ad gününün səhərisi, XVIII partiya qurultayından 12 gün əvvəl "qəflətən" dünyasını dəyişdi.

Uşağın yaşadığı sosial mühitin öyrənilməsi sovet hakimiyyəti üçün qəbulolunmaz idi. Ukraynadakı kütləvi aclıq və ölümlər, repressiya olunanların, güllələnənlərin ailələrinin səfaləti və s. uşaqların psixi inkişafına təsir etməyə bilməzdi. Bununla belə, pedoloqlar psixi geridəqalmanın səbəblərinin dərinliklərinə gedirdilər. Hadisələrin bu istiqamətdə inkişafına nə MK, nə də Stalin yol verə bilməzdi.

Belə ideoloji səbəblə yanaşı digər səbəb – irsiyyət qanunu da mövcud idi. Sovet sistemi ideoloji, siyasi baxımdan irsiyyəti qəbul edə bilməzdi. Deməli, irsiyyətin öyrənilməsinə, həm də dərindən, elmi əsaslarla öyrənilməsinə ciddi qadağalar qoyulmalı idi. Sovet adamı digər insanlardan fərqli olaraq "ağ lövhə" hesab edilirdi ki, orada kommunizm cəmiyyətinin qurucusuna lazım olan keyfiyyətləri yazmaq mümkün olsun. Belə bir şəraitdə hansı irsiyyətdən söhbət gedə bilərdi? Bu, birbaşa insanın bioloji və sosial fərqlərinin qəbul olunması demək idi. Həm birinci, həm də ikinci faktor yeni insanın formalaşdırılması ideyasına zidd idi.

1934-cü ildə N.K.Krupskaya öz çıxışında deyirdi: "Mən pedologiyanı bilməyən müəllimi yaxşı müəllim hesab etmirəm. Bunsuz müəllim uşağa təsir edə bilməz. Hər bir müəllim pedoloq olmalıdır". Bundan iki il keçməmiş hər bir müəllimin mənimsəməli olduğu pedologiya "yalançı elm" elan edildi.

Beləliklə, sovet pedologiya elmi qısa ömür sürdü. Mütəxəssislər onun yarandığı və fəaliyyət göstərdiyi müddəti dörd mərhələyə ayırırlar. Birinci mərhələyə 1928-ci ildə Moskvada Pedoloqların I Ümumittifaq qurultayının keçirilməsi, ikinciyə 1931-ci il, yanvarın 25- də ÜİK (b) P MK-nın fəlsəfə, ictimai və təbiət

elmlərinin "antileninçi ustanovka"sı ilə bağlı qərarının verilməsi, üçüncü mərhələyə 1932-ci ildə "Pedologiya" jurnalının bağlanması, dördüncü mərhələyə isə həmin dövrdən MK-nın 1936-cı il məlum qərarınadək olan dövr aid edilir.

Bu bölgü ilə yanaşı, digər yanaşmalar da mövcuddur. Belə ki, bir çox alimlər uşaq psixologiyası, pediatriya, pedaqogika və s. sahələri də pedologiyaya aid edirlər. Digər bir bölgüyə əsasən XVII əsrdə J.A.Komenskinin, filosof və pedaqoqlar C.Lokk, J.J.Russo və başqalarının əsərləri də pedologiyaya aid edilir. Başqa bir təsnifata əsasən pedologiya Q.Preyerlə başlayır, amerikan psixoloqu C.Xollun əsərlərində inkişafın pik nöqtəsinə çatır. C.Xoll hesab edirdi ki, uşağın öyrənilməsi pedaqoji praktikanın səmərəliliyindən asılıdır.

ÜİK (b) P MK-nın "Xalq Maarif Komissarlıqları sistemində pedoloji təhriflər haqqında" 1936-cı il, 4 iyul tarixli qərarı ilə pedologiya bir elm sahəsi kimi ləğv olundu. Bununla da marksist-leninçi metodologiyanın saflaşdırılması uğrunda aparılan ideoloji mübarizə başa çatdı. Bu qərarda pedologiyanın "yalançı burjua elmi" olduğu xüsusi vurğulanır: "Pedologiya uşaqlar haqqında antimarksist burjua elmidir"; "Pedologiyanın başlıca əksinqilabi vəzifəsi uşaqların taleyinə fatalistcəsinə yanaşmaq, onun bioloji, sosial və irsi amillərdən asılı olduğunu əsaslandırmaqdır"; "Pedoloqların "elmi ideyaları" sovet reallıqları və xoşbəxt balalarımız barədə zərərli dedi-qodular yaymaqdan ibarətdir"; "Pedoloqlar sübut etməyə çalışırlar ki, sosializm şəraitində "yararsız" uşaqların sayı durmadan artır" və s.

ÜİK (b) P MK-nın "Xalq Maarif Komissarlıqları sistemində pedoloji təhriflər haqqında" 1936-cı il, 4 iyul tarixli qərarı ilə həm ayrı-ayrı insanların, alimlərin taleyi təhlükəyə düşdü, həm də bir sıra elm sahələri repressiyaya məruz qaldı. Əgər 20-30-cu illərdə sovet pedologiya və psixologiya elmi dünya psixologiya elmi ilə sıx əlaqədə inkişaf edirdisə, 1936-cı ildən bu əlaqələr tamamilə qırıldı. Məlumdur ki, psixoloji tədqiqatlar iki istiqamətdə aparılır: psixofizioloji və sosial-fəlsəfi. 30-cu illərin ortalarından ikinci istiqamətdə aparılan işlər tamamilə dayandırıldı. Partiya və hökumət ictimai elmlərin qarşısında da belə bir vəzifə qoydu ki, Marks-Engels-Lenin-Stalin məktəbindən başqa heç bir məktəb ola bilməz. Psixoloq və pedaqoqları marksizm-leninizm ideologiyaları ilə silahlandırmaq hərəkatı başladı. İttifaqda, o cümlədən Azərbaycanda tənqid və özünütənqid geniş vüsət aldı. A.O.Makovelski, F.Ə.İbrahimbəyov, Ə.K.Zəkuyev kimi alimlər özünütənqidə geniş yer verərək, əvvəlki illərdə səhv yolda olduqlarını etiraf etdilər. Görkəmli psixoloq, psixologiya tarixçisi M.Q.Yaroşevski sonralar yazırdı: "MK-nın bu qərarı ilə yalnız insanlar deyil, psixologiya elminin özü repressiyaya uğradı". Görkəmli alimlərin bir qismi işdən qovuldu, bir qismi sürgün edildi, bir qismi dözə bilməyib dünyasını dəyişdi. "Zəmanə adamları" söz sahibinə çevrildilər. Əqidə sahibləri ya susdular, yaxud da öz fikirlərini sətiraltı mənalarla ifadə etməyə başladılar.

Ehtimal olunur ki, ÜİK (b) P MK-nın qərarı Xalq Maarif Komissarlığının fəaliyyətini şübhə altına almaq məqsədi daşıyırdı. Yəni Krupskaya, Bubnov, Epşteyn və b. "xalq düşmənləri"ni öz "qanadları altında" gizlədiblər. Krupskaya "qəflətən"

vəfat etdi, Bubnov və Epşteyn isə güllələndilər. Köhnə bolşevik, görkəmli pedoloq A.B.Zalkind isə "xalq maarifi sistemində əksinqilabçılar" damğasına dözməyərək MK-nın qərarının elan olunduğu gün ürək tutmasından vəfat etdi.

Pedologiyanın ləğvi psixologiyanın fəlsəfi istiqamətinə, "uşağın ruhi aləmi"nin öyrənilməsinə son qoydu. Buna cəhd olunması pedologiyanın təzahürü kimi qiymətləndirilir və ciddi cəza tətbiq olunurdu. Marksist pedaqogika isə uşağı məsləhət bildiyi kimi öyrənir, öyrədirdi.

50-ci illərdə psixologiya üzrə buraxılan dərsliklərdə müəlliflər çalışırdılar ki, mümkün qədər uşaq psixologiyası, pedaqoji psixologiya məsələlərindən bəhs etməsinlər, çünki bu, "pedologiyanın bərpası" mənasını daşıyır, qorxulu hal hesab olunurdu.

Əlbəttə, müasir dövrdə keçmişdə baş verənləri təhlil etmək, qiymətləndirmək xeyli asandır. Həmin dövrdə verilən qərarlar indi təəccüblü görünə bilər. Hər hansı bir elm sahəsini partiya təşkilatı və hökumət qərarları ilə necə ləğv etmək olar? Elmin "yalançı" və ya həqiqi olduğunu partiya təşkilatı necə müəyyənləşdirə bilər?

Pedologiyanın ləğv olunması ilə bağlı qərarda göstərilirdi ki, pedologiya sovet məktəblərinin fəaliyyəti üçün zərərlidir. Doğrudan da, 30-cu illərdə sovet məktəblərində vəziyyət heç də ürəkaçan deyildi. Belə uğursuzluqların bir sıra səbəbləri var idi. Onlardan birincisi təhsilin geniş sferası ilə bağlı idi. Təhsil az qala bütövlükdə ölkə əhalisini əhatə edirdi. Təbii ki, belə bir əhatəni kadrlarla təmin etmək, idarə etmək mümkün deyildi. İkincisi, ölkədə savadlı kadrların çoxu müharibə, inqilab, emiqrasiya nəticəsində məhv edilmişdi.

Pedoloq kadrların peşəkarlıq səviyyəsi çox aşağı, təhsil verənlərin çoxu azsavadlı idi. Bununla bağlı hələ 1934-cü ildə P.P.Blonski vəziyyəti təhlil edərək yazırdı ki, pedoloji tədqiqatların elmi səviyyəsi yüksək deyil, bir sıra hallarda isə xalturadır. Pedologiyadan dərs deyən müəllimlərin sırası zir-zibillə doludur və s.

Məşhur qərardan sonrakı yazılarda, eləcə də qərarda pedologiya pedoqogika ilə müqayisə olunur, pedaqogikanın üstünlüyü əsaslandırılırdı, tədqiqatların istiqaməti dəyişilirdi.

Psixoloqlar elə mövzular seçirdilər ki, sonradan başağrısına çevrilməsin. Həmin dövrdə A.O.Makovelski "Sinifdənxaric oxunu necə təşkil etməli?", S.Hacıyev "Dərsdə şagirdlərin diqqətini necə təşkil etməli?", Ə.K.Zəkuzadə "Manqanın komplektləşdirilməsi" və s. mövzuları işləmişlər. Belə mövqe həmin dövrdə sovet psixologiyası üçün xarakterik idi.

1936-cı ildə akademik İ.P.Pavlov və məşhur psixoloq L.S.Vıqotski dünyasını dəyişdi. Onları fiziki cəhətdən məhv etmək, sürgünə göndərmək mümkün olmadı. Əvəzində onların əsərlərinə, elmi ideyalarına qadağalar qoyuldu, amma 1950-ci ildə İ.P.Pavlovun elmi ideyaları partiya və hökumətə ideoloji mübarizə vasitəsi kimi lazım oldu. Bu, yalnız psixologiya ilə bağlı yox, əksər elm sahələri ilə bağlı idi. Bəzən elə hadisələr baş verirdi ki, elm adamları çıxılmaz vəziyyətlə-

rə düşürdülər. Bəzən dahi rəhbər Stalinin bircə sözü qəribə, acınacaqlı vəziyyət yaradırdı. Əlac yalnız susmağa qalırdı.

1950-ci ildə SSRİ EA və SSRİ TEA-nın "İ.P.Pavlovun fizioloji təlimləri"nə həsr olunmuş birgə sessiyası keçirilir. Mətbuatda "Pavlov sessiyası" ilə bağlı Stalinin təbrik məktubu çap olunur. Sessiyada akademik K.M.Bıkov və professor A.Q.İvanov-Smolenski məruzə edirlər. K.M.Bıkov tanınmış, nüfuzlu alim olsa da, A.Q.İvanov-Smolenski o qədər də nüfuz sahibi olmayıb, amma onların sessiyadakı çıxışı və sonrakı fəaliyyətləri barədə hamı susurdu.

Akademik A.V.Petrovski yazır: "Bir dəfə mən sadəlöhvcəsinə opponentim olmuş Nikolay Aleksandroviçdən professor N.A.Smolenski barədə soruşdum. Nikolay Aleksandroviç susdu, sonra sakit səslə dedi: "Fizioloqdur? Yox. Psixoloqdur. Yox, qoy olsun psixonevroloq. – Nikolay Aleksandroviç çox ehtiyatla danışırdı. – Gərək özün nəticə çıxarasan".

A.V.Petrovski digər bir hadisəni belə təsvir edir: "Ali məktəbi qurtarandan sonra psixologiya kafedrasının aspirantı oldum. Bir dəfə hansısa tədbirdən sonra təsadüfən sevimli müəllimimiz Y.B.Taqera ilə yol yoldaşı olduq. Söhbət ədəbi janrlardan düşdü. Mən dedim:

– Nəhayət ki, sosializm realizminin dəqiq elmi tərifi verildi. Əvvəllər bu, təsviri xarakter daşıyırdı.

Yevgeni Borisoviç mənə çəp-çəp baxdı, öskürdü və soruşdu:

– Onu kim müəyyənləşdirdi?

Mən təəccübləndim, sadəlöhvcəsinə dedim:

– Necə yəni kim? Georgi Maksimilianoviç Malenkov.

Yol yoldaşım bir qədər susdu və sonra qəribə bir tonla dedi:

– Hm... Malenkov. Qoy olsun Malenkov.

Onun sözlərində nəsə deyilməmişdi. Mən o vaxt bunları başa düşmürdüm. Onun qəribə reaksiyasının mənasını sonralar başa düşdüm".

Maksim Qorkinin "Qız və ölüm" hekayəsi barədə Stalin deyir ki, bu əsər Hötenin "Faust" əsərindən daha güclüdür. Bundan sonra məşhur alman mütəfəkkirinin yaradıcılığına heç kim qorxusundan müraciət etmir. Bu o qədər dəhşətli bir hadisə deyildi. Bundan daha dəhşətlisi o idi ki, Stalin özünün "Marksizm və dilçilik məsələləri" adlı əsərində göstərirdi ki, müasir rus dilinin kökləri Kursk-Orlov dialektinə bağlıdır. Dilçilik baxımından bu cəfəngiyyat idi. Bununla belə, Stalinin fikrinə qarşı çıxmaq olmazdı. Dilçilər dilemma qarşısında qalmışdılar: ya rus filologiyasını dağıdıb onu Stalinin formulirovkasına salmalı, ya da etiraz etməli. Hər kəs bilirdi ki, bu diskussiyanın sonu nə ilə qurtara bilər. Heç kim cəsarət edib etiraz bildirmək istəmirdi. Nəhayət, belə bir adam tapılır: dilşünas Q.Q.Sanjeyev. O, Stalinə məktub yazır, göstərir ki, rəhbərin dahiyanə əsərində kiçik, əhəmiyyətsiz bir qeyri-dəqiqlik var. Bu, rus dilinin tarixinin Kursk-Orlov dialekti ilə bağlı olmasıdır. Görkəmli dilçi alimlər, o cümlədən, akademik V.V. Vinoqradov bu təhlükəli hadisənin necə başa çatacağını qorxu içərisində gözlə-

yirlər. Hər şey yaxşı qurtarır. Stalin Sanjeyevə bir cümlədən ibarət cavab yazır: "Tarixi şərhə görə təşəkkür edirəm".

Həmin dövrdə partiya rəhbərləri ziyalılara, alimlərə istiqamət verməyi xoşlayır və özlərinə borc bilirdilər.

"Pavlov sessiyası" başlanğıcdan antipsixoloji xarakter daşıyırdı. Belə bir ideya irəli sürülürdü ki, psixologiya "ali sinir fəaliyyəti" ilə əvəz olunmalıdır. Bildirilirdi ki, fiziologiya dialektik materializm mövqeyində durur, psixologiya isə formal olaraq bu mövqedə olduğunu bildirir. Təbii ki, İ.P.Pavlov dünya şöhrəti qazanmış məşhur alim, böyük şəxsiyyət idi. Onu nəinki Rusiyada, dünyanın əksər ölkələrində qəbul edir, ona hörmətlə yanaşırdılar.

30-cu illərin əvvəllərindən başlayaraq qaragüruh insanlarda kütləvi xof, qorxu yaradırdı. Hamı susur və ya pıçıltı ilə narazılığını bildirirdi. Belə bir vaxtda İ.P.Pavlov susmur. Sonralar görkəmli psixologiya tarixçisi M.Q.Yaroşevski yazırdı: "İndi bizə məlum olur ki, İ.P.Pavlov yalnız görkəmli alim olmamış, həm də qeyrətli vətəndaş olmuşdur. O, 30-cu illərdə yeganə alim idi ki, hökumətə müraciət edərək bildirirdi ki, sistem insanı məhv edir, qul mənəviyyatı formalaşdırır, düşüncə qadağan olunur".

İ.P.Pavlov ali məktəb tələbələrinə ömrünün sonunadək "cənab tələbələr" deyə müraciət edib. O, ümumiyyətlə, heç vaxt "yoldaş" sözünü işlətməyib. Yəni İ.P.Pavlov başqa, "Pavlov sessiyası" başqa idi. Sovet hakimiyyəti "Pavlov sessiyası" ilə ideoloji siyasətini həyata keçirirdi. Hətta iş o yerə çatmışdı ki, istənilən mövzuda yazılan yazının hər səhifəsində Pavlovun adının neçə dəfə çəkilməsi qanuniləşdirilmişdi. "Pavlov sessiyası"nda irəli sürülən hər bir şeyin ali sinir fəaliyyəti ilə əlaqələndirilməsi, təbii ki, zorakılıq, özbaşınalıq idi. Ona qarşı kimi susur, kimi özünütənqidə başlayır, kimi də açıq-aşkar etiraz edirdi. L.A.Orbeli, İ.S. Beritaşvili və digərləri həyatlarını təhlükəyə ataraq etiraz edirdilər. Qəzet və jurnal səhifələrində, elmi seminar və konfranslarda yeganə düzgün elmi yolun Pavlov yolu olduğu bildirilirdi. "Pavlov sessiyası"ndan sonra psixologiya elminə, ayrı-ayrı psixoloqlara hücumlar başlayır. Az və ya çox dərəcədə etiraz edən şəxslərə təzyiq olunur. Ən yaxşı halda insanlar onlardan uzaq olmağa çalışırdılar.

Akademik A.V.Petrovski yazır ki, sessiyadan az sonra Psixologiya İnstitutunun böyük zalında keçirilən tədbirdə amfiteatrın üçüncü sırasında yalnız bir nəfər yaşlı adam – tibbi xidmət general-polkovniki əyləşmişdi. Bu şəxs məşhur akademik L.A.Orbeli idi. Heç kim onunla bir sırada əyləşərək özünü təhlükəyə salmaq istəmirdi.

İ.P.Pavlov özü rejimin qurbanı oldu. 1936-cı ildə İ.P.Pavlov xəstələnir. Xəstəni müalicə etmək üçün Kremldən həkimlər gəlir və Pavlov dünyasını dəyişir.

50-ci illərdə Pavlovun elmi ideyalarından hakimiyyət ideoloji silah kimi istifadə edirdi. Psixologiya elmi də çərçivəyə salındı. Pavlovun ideyaları ilə üst-üstə düşməyən yazılar, elmi istiqamətlər donduruldu. Pedaqoq və psixoloqlar çalışırdılar ki, məktəb təlimi Pavlov nəzəriyyəsi əsasında qurulsun. Başqa sözlə, şagirdlər birinci və ikinci siqnal sistemlərinə uyğun öyrədilsinlər.

Əgər pedologiya elmi zərərli elm sahəsi kimi ləğv olunmasaydı, fəaliyyətini davam etdirsəydi, təhsil sistemində, elm sahəsində hansı nailiyyətlərin qazanılıb-qazanılmayacağını söyləmək indi xeyli çətindir, lakin bu gün bir həqiqət danılmazdır ki, son dövrlərdə vaxtilə pedologiyanın gördüyü və görməli olduğu işlərə yenidən qayıdılır. Doğrudur, indi pedologiya yoxdur, lakin onun vəzifəsini yeni adlarla yaradılan elm sahələri: erqonomika, valiologiya, sistemotexnika və s. Yerinə yetirir. O ki, qaldı uşaq və yeniyetmələrin test vasitəsilə yoxlanılmasına, indi testlərdən kifayət qədər istifadə olunur. Hətta qorxulu olanı odur ki, son nəticədə testləşdirmə 30-cu illərdə pedologiyanın üzləşdiyi vəziyyətlə üzləşə bilər.

Digər bir həqiqət onunla bağlıdır ki, elmi yanaşmaların, diskussiyaların, fərqli mövqelərin həlli yolu zamandan və diskussiyalardan keçir. Kimin elmi mövqeyinin doğru olduğunu da zaman göstərir. Belə məsələlərin siyasi, ideoloji yolla, hökumət qərarları ilə həlli zərərlidir. Pedologiyanın ləğvi ilə bağlı qərar kimi.

## Ədəbiyyat

1. Əliyev R.İ. Psixologiya tarixi. Bakı, "Nurlan", 2006.
2. Əliyev R.İ., Mustafayev M.Q. Azərbaycanda psixologiya elminin inkişaf tarixindən. Bakı, "Nərgiz", 2006.
3. Саугстад П. История психологииФ. Самара, Бахрах, М., 2008.
4. Ярошевский М.Г. Нужно высококвалифицированное сообщество психологов. Психологический журнал, 1991, №2.

## Социально-психологический анализ о ликвидации педологической науки
## Резюме

В статье рассматриваются вопросы о появление педологической науки, стадии развития и наконец, социально-психологический анализ причины ликвидации ее и останавливаются на четырех важных принципах. Анализируются в связи с ликвидацией педологии идеологические влияния, политическая среда того времени. В статье в тоже время раскрываются причины политического давления на выдающихся научных деятелей.

## Social-psychological analysis of pedology science abolishment
## Summary

The article explores the emergence of pedology science, its development stages and eventually the social-psychological reasons of its abolishment. We stand for four significat principles. It investigates ideological impacts regarding with the abolishment of pedology, that period's political atmosphere. Likewise, there are conveyed the reasons of spectacular scholars exposing to political pressures.

# MƏKTƏBƏQƏDƏR XÜSUSİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFETDİRİCİ VƏ KORREKSİYAEDİCİ PROQRAMLARINDA «SAĞLAMLIQ» BÖLMƏSİNİN VACİBLİYİ

**Elmira Kərimova,**
ARTPİ – nin inklüziv təhsil şöbəsinin böyük elmi işçisi



***Açar sözlər:*** *korreksiya, sağlamlıq imkanları məhdud uşaqlar, pedaqoji kömək, bərpa, erkən diaqnostika.*

***Ключевые слова:*** *коррекция, дети с ограниченными возможностями здоровья, педагогическая помощ, реабилитация, ранняя диагностика.*

***Key words:*** *correction, children with the limited opportunities of health, pedagogical help, rehabilitation, early diagnostics.*

Son vaxtlar sağlamlıq imkanları məhdud uşaqların təlim –tərbiyəsinə diqqət artırılıb. Uşağın hərtərəfli inkişaf etməsi onun alınmaz hüququ olmaqla yanaşı, həm də təhsilin ən vacib məsələlərindən biridir. Uşaq sağlamlığı hər dövlətin iqtisadi, intellektual və mədəni potensialını müəyyən edən vacib göstəricilərdən biridir. Bu diqqət tələb edən bir məsələdir, çünki son vaxtlar sağlamlığında problemləri olan uşaqların sayı artmaqdadır.

Azərbaycanda ilk xüsusi məktəblər XX əsrin əvvəllərində fəaliyyətə başlamışdır. Bir əsrə qədər müddətdə ölkədə psixofiziki inkişafda problemləri olan məktəbəqədər və məktəbyaşlı uşaqlara sosial – pedaqoji dəstək göstərən və dövlətin himayəsi altında olan diferensial təhsil sistemi yaradılmışdır. Xüsusi təhsilin hüquqi əsasları və inkişaf yolları ölkənin əsas qanunu olan Konstitusiya ilə, «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (Xüsusi təhsil) haqqında qanun»u, Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi təhsilə dair bir sıra qərarları və xüsusi təhsilin 2005 – 2009- cu illər üçün nəzərdə tutulan inkişaf planı ilə tənzimlənir.

Hazırda respublikada xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqlar üçün 25 xüsusi və internat tipli məktəb fəaliyyət göstərir. Onlardan 18-i internat tipli müəssisə, 7-si xüsusi məktəbdir. Bu müəssisələrdə 5535 şagird təhsilə cəlb olunmuşdur. Onların təlim-tərbiyəsi ilə 1996 pedaqoji isçi məşğul olur. Qeyd olunan müəssisələrdən 16-sı Təhsil Nazirliyi sistemində, 2-si Əmək və Əhalinin Sosial Müdafiəsi sistemində, bir - neçəsi isə Səhiyyə Nazirliyi sistemində fəaliyyət göstərir. Təhsil Nazirliyi sistemində olan məktəblərdə 2906 şagird, Əmək və Əhalinin Sosial Müdafiəsi sistemində 366 uşaq təhsil və müalicə alırlar. Xüsusi təhsil mussisələrində tərbiyə və təlimlə əhatə olunmuş uşaqların sayı heç də ölkə üzrə real vəziyyəti əks etdirmir. Tədqiqatlar göstərir ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların sayı 20 minə yaxındır və onların yalnız 27,6%-i təhsil müəssisələrinə cəlb olunmuşdur. Son vaxtlar inkişafda problemləri olan uşaqlara sosial–pedaqoji dəstək

göstərən və onların sağlamlığının bərpasına kömək edən yeni tipli müəssisələrin–reabilitasiya mərkəzlərinin sayı da artmaqdadır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusi tərbiyə və təliminin əsas məqsədi onların cəmiyyətə tam inteqrasiya olunmaları, bütün vətəndaşlara şamil edilən sosial imtiyazlardan istifadə etmələridir. Buna nail olmaq üçün isə belə uşaqların sağlamlığında olan problemlərin vaxtında aşkarlanması və korreksiya aparılması çox vacibdir. Bundan başqa, hazırda ümumi və xüsusi pedaqogikada cərəyan edən müasir tendensiyalar xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlamlığının qorunmasına və bərpa edilməsinə yönəldilən pedaqoji texnologiyalara xüsusi tələblər irəli sürür, lakin respublikada məktəbəqədər xüsusi təhsil müəssisələri üçün nəzərdə tutulmuş proqramlarda bu vaxtadək «Sağlamlıq» bölməsi olmamışdır. Qeyd edək ki, bağçalarımızda uşaqların fiziki tərbiyəsinə həmişə böyük fikir verilib. Tərtib etdiyimiz isə 7 əsas bölmədən ibarət proqram oyun şəklində qurulmuş məşğələlər vasitəsilə fiziki, somatik və psixi sağlamlığın qorunması və möhkəmləndirilməsini nəzərdə tutur.

Məlumdur ki, uşaqın gələcək inkişafının təməli onun həyatının ilk illərində qoyulur. Məktəbəqədər xüsusi müəssisələrin inkişafetdirici və korreksiyaedici proqramlarına «Sağlamlıq» bölməsinin daxil edilməsi uşaqda olan inkişaf pozulmalarının minimal səviyyəyə endirilməsinə, profilaktika və korreksiyasına çalışaraq, onların gələcəkdə cəmiyyətə adaptasiya olunmasını təmin edir.

Yaxşı məlumdur ki, sağlamlıq insanın əsas ehtiyaclarından biridir. Uşaq sağlamlığından danışarkən 4 faktoru – fiziki, somatik, psixi və ruhi (mənəvi) sağlamlığı nəzərə almaq lazımdır. Fiziki sağlamlıq bədənin tarazlığını, hərəkətlərin koordinasiyasını, boy və çəki artımını təmin edir. Orqanizmin daxili orqanlarının və sistemlərinin inkişafının, formalaşmasının və fəaliyyətinin əsasını somatik sağlamlıq təşkil edir. Psixi sağlamlıq gerçəkliyi bütöv qavramaq, insanlarla düzgün ünsiyyət yaratmaq, əşyaları, təzahürləri, münasibətləri adekvat qəbul etmək deməkdir. Ruhi sağlamlıq insanın mənəvi potensialından ibarətdir və onun həyatının məna və mahiyyətini təşkil edir.

Məktəbəqədər xüsusi təhsil müəssisələrinin inkişafetdirici və korreksiyaedici proqramlarındakı «Sağlamlıq» bölməsində əksini tapmış məşqələlər, tapşırıqlar və s. diqqəti fiziki, somatik, psixi və mənəvi sağlamlığın ahəngdar və əlaqəli inkişafına yönəldir və iki əsas istiqamətdə aparılır:

- bağçada tərbiyə alan uşaqların sağlamlığının qorunub, yaxşılaşdırılıb və möhkəmləndirilməsi üçün lazımi şəraitin yaradılması; uşaqlarda sağlamlığın insan həyatında yeri haqqında anlayışların formalaşdırılması;
- məktəbəqədər yaşlı uşaqlarda sağlam həyat tərzi keçirməyin vacibliyi haqqında fikrin formalaşdırılması.

Birinci istiqamətə aid işlər müntəzəm olaraq uşağın bağçada keçirdiyi bütün müddətdə aparılır. İkinci istiqamətə aid işlər isə bağçada olan son iki ildə həyata keçirilir.

Uşaqların sağlamlığının möhkəmləndirilməsi bağça tərbiyəçilərinin qarşısında duran əsas məsələlərdən biridir. Tərbiyə və təlim prosesinin düzgün təşkil edilməsi bağça müdirinin üzərinə düşür. Uşaq bağçalarında uşaqların sağlamlığının möhkəmləndirilməsinə yönəldilmiş məşğələlər, tapşırıqlar və oyunlar həmişə həyata keçirilib. Təklif olunan «Sağlamlıq» proqramı ənənəvi uşaq bağçalarında da uşaqların sağlamlığının qorunması problemini sistemli şəkildə həll etməyə kömək edə bilər. İlk növbədə uşaq bağçasında lazımı maddi-texniki baza və şərait yaradılmalı, uşaqlarda sağlamlıq haqqında anlayışların formalaşdırılmasına yönəldilmiş pedaqoji üsullar seçilməli və istifadə edilməlidir. Bundan başqa, pedaqoji qoruyucu rejim, uşaq yeməyinin təşkili, sanitar-gigiyenik normalara riayət, tənəffüs və hərəki fəallığın artırılması, təlim-tərbiyə və ünsiyyət üçün psixoloji cəhətdən rahat şəraitin yaradılması çox vacibdir.

«Sağlamlıq» proqramına daxil edilən xüsusi məşğələlər tərbiyəçi tərəfindən həftədə bir dəfə keçirilir. Tərbiyəçinin bu proqramla işləməsinin metodiki cəhətdən vacib aspekti onun öz sağlamlığına və onun möhkəmləndirilməsinə yanaşmasının nümunəvi olmasıdır. Tərbiyəçi qidalanmaya, hərəki fəallığa, ümumiyyətlə, fəaliyyətə öz nümunəvi münasibəti ilə uşaqlarda sağlamlığa və onun möhkəmləndirilməsinə müsbət münasibət yarada bilər. Məhz şən, fəal və emosional tərbiyəçiyə uşaqlar həvəslə qulaq asır, onun təsiri altında özünümassaj və səhər gimnastikası ilə nəinki bağçada, həm də evdə məşğul olurlar.

Tərbiyəçi işin ilkin mərhələsində həkimlə birlikdə qrupdakı uşaqların psixofiziki inkişafını və imkanlarını hərtərəfli öyrənməli, hər uşağın tibbi təyinatını və əks-göstərişlərini nəzərdən keçirməlidir. Sağlamlıq məşğələlərinin keçirilməsində vacib mərhələlərdən birini uşağın öz orqanizmi və imkanları ilə tanışlıq tutur. Tərbiyəçi uşağa öz hissiyyat orqanlarına arxalanaraq duyğularını cəmləşdirməyə kömək edir, uşaqda analizatorlara, öz sağlamlığına diqqətli olmaq hissi yaradır.

«Sağlamlıq» proqramının 7 əsas bölməsi bunlardır:

1. «Özünü tanı».
2. «Hisslər və duyğular dünyası».
3. «Günəş, hava və su bizim dostlarımızdır».
4. «Hərəkət həyatın özülüdür».
5. «Biz nə yeyirik?»
6. «Həkim məsləhəti».
7. «Sağlamlıq həyatın əsasıdır».

Bu bölmələrdə nəzərdə tutulan işlərin qısa izahatını verək.

1. «Özünü tanı» bölməsində uşaqlarda «mən» obrazının formalaşdırılması ilə yanaşı, onlara həm də öz fiziki, əqli, şəxsi imkanlarını tanımaq və qəbul etmək yolları öyrədilir. Uşaqlarda mədəni-gigiyenik bacarıqların əhəmiyyəti barədə anlayışlar möhkəmləndirilir, insan orqanizminin bütövlüyü və daxili sistemlərin asılılığı barədə təsəvvürlər yaradılır.

Məlumdur ki, uşaq ətrafdakılarla ünsiyyətin, gündəlik həyat və fəaliyyətin müşahidəsi əsasında özünü dərk edir. Sağlamlığı inkişaf etdirən texnologiyaların əsaslarını formalaşdıraraq yadda saxlamaq lazımdır ki, böyüklərlə uşağın ünsiyyəti onlarda öz sağlamlığına qarşı müsbət münasibətin yaranmasının təməlini qoyur. Bu zaman tərbiyə prosesində həyati situasiyalara adekvat reaksiya verməyin, əhvalı yaxşılaşdırmağın və sağlamlığı möhkəmləndirməyin yolları da öyrədilir. Bütövlükdə bu bölmədə uşaq öz orqanizminin imkan və ehtiyacları ilə tanış olur, bədənə ən sadə qulluqetmə bacarıqlarına yiyələnir.

2. «Hisslər və duyğular dünyası» bölməsində uşaqlar görmə, eşitmə, dəri və əzələ hissiyyatı, qoxu və dadbilmə hissləri ilə tanış olurlar, onların xüsusiyyətlərini öyrənərək praktik fəaliyyətdə tətbiq edirlər. Fərdi və emosional təcrübə toplamaqdan ötrü məşğələlər zamanı xüsusi yaradılmış situasiyalar oynanılır. Uşaqlara hissiyyat üzvlərinin qorunmasının vacibliyindən, sadə profilaktik yollardan danışılır və onlara aid məşğələlər keçirilir.

3. «Günəş, hava və su bizim dostlarımızdır» bölməsinə aid məşğələlər uşaqlarda insanın təbiətlə vəhdətdə olması haqqında təsəvvürlər genişləndirir. Uşaqlarda bioloji ritmlər barədə sadə təsəvvürlər yaradılır və gündəlik rejimdən danışılır. İnsanın yaşı və yaşından asılı olan fəaliyyəti əhval – ruhiyyəsi, davranışı və öz sağlamlığına olan münasibətdən asılılığından danışarkən sağlam həyat tərzinin nə olduğu başa salınır. Sonra günəşin, havanın və suyun insanın və bütün canlıların həyatına təsiri və rolu haqqında məlumat verilir. Gəzinti və məşğələlər zamanı uşaqlar günəşlə hərarətin əlaqəsini dərk edir, yay vaxtı günəşdən necə qorunmaq, günvurmanın qarşısını necə almaq və s. kimi praktik biliklərə yiyələnirlər. Uşaqlara təmiz havadan həzz almaq, düzgün nəfəs almaq, otaqda havanın təmiz olmasının əhəmiyyətindən danışılır və həmişə havası dəyişilmiş otaqda yatmağı öyrədirlər. Onlara suyun xüsusiyyətlərini və onun insan həyatı üçün nə qədər vacib olduğunu başa salırlar.

4. «Hərəkət həyatın özülüdür» bölməsində insan həyatında hərəki fəallığın əhəmiyyətindən, fiziki inkişafın fərdiliyindən danışılır. Uşaqlar məşğələlərdə oyun vasitəsilə yorğunluğun və gərginliyin aradan qaldırılmasının mümkünlüyünü dərk edir, səhər gimnastikası kompleksini, özünümasaj və nöqtəli masaj priyomlarını öyrənirlər.

5. «Biz nə yeyirik?» bölməsi uşaqlarda yararlı, tarazlaşdırılmış və faydalı qidalanma haqqında təsəvvürlərin formalaşdırılmasına həsr edilib. Uşaqlar keyfiyyətli qida maddələri barədə məlumat alır, sadə şəkildə həzm proseslərinin xüsusiyyətlərini, masa arxasında davranış qaydalarını öyrənir, diş fırçasından istifadə və dişlərə qulluq etmək bacarıqlarına yiyələnirlər.

6. «Həkim məsləhəti» bölməsində uşaqlara ən çox təsadüf edilən xəstəliklərdən və onların əlamətlərindən (boğaz ağrısı, soyuqdəymə, öskürək, baş ağrısı və s.) danışılır; hansı situasiyalarda həkimə müraciət etmək lazım gəldiyi başa salınır; sadə təcili yardım priyomları göstərilir. Uşaqlara həyat və

sağlamlıq üçün təhlükə yaradan situasiyalar, onların nəticələri, xəstəliklərin əlamətlərindən danışılır, profilaktik tədbirlər öyrədilir.

7. «Sağlamlıq həyatın əsasıdır» bölməsində uşaqlarda sağlam həyat tərzi haqqında təsəvvürlər möhkəmləndirilir, həyat və sağlamlığa ziyan gətirən zərərli vərdişlərə qarşı mənfi münasibət formalaşdırılır. Bundan başqa, uşaqlara yolda, evdə, həyətdə və s. yerlərdə təhlükəsiz davranış qaydaları aşılanır, ekstremal situasiyalarda özünü necə aparmaq haqqında məlumat verilir.

Bölmələrə aid məşğələlər böyük qrup və hazırlıq qrupu uşaqları ilə oyun formasında aparılır.

Bu məqalədə «Sağlamlıq» proqramında təklif olunan «Sehrli nöqtələr» adlı məşğələni göstərməkdə məqsəd nöqtə masajından normal inkişaf etmiş uşaqların da sağlamlığının profilaktikasında istifadə etməyin mümkünlüyünü və vacibliyini göstərməkdir. Belə ki, nöqtə 1 öskürəyə qarşı və rahat tənəffüsə, nöqtə 2 orqanizmin immun funksiyalarını yaxşılaşdırmağa, nöqtə 3 boğazın və qanın sağlamlığına, nöqtə 4 beyinin işini yaxşılaşdırmağa, nöqtə 5 onurğa sütununun sağlamlığına, nöqtə 6 zökəmə qarşı, nöqtə 7 gözlərin, nöqtə 8 qulaqların, nöqtə 9 isə bütün orqanizmin möhkəmləndirilməsinə xidmət edir.



Şəkil 1.

**Nöqtə 1.** Traxeya və bronxların selikli qişası ilə bağlıdır. Bu nöqtənin massajı öskürəyi azaldır, qanın tərkibini yaxşılaşdırır.



Şəkil 2.

**Nöqtə 2.** Orqanizmin immun funksiyalarını yaxşılaşdıraraq xəstəliklərə qarşı immunitetin yaranmasını təmin edir.



Şəkil 3

**Nöqtə 3**.Qanın kimyəvi tərkibinə və qırtlağın selikli qişasına nəzarət edir.



Şəkil 4

**Nöqtə 4**. Bu nöqtənin masajı beynin, bədənin və boynun qan dammarlarının fəaliyyətini nizamlayır,vestibulyar aparatın işini normallaşdırır.



Şəkil 5

**Nöqtə 5.**Baş və diş ağrılarını aradan qaldırır, immunitet yaxşılaşdırır.



Şəkil 6

**Nöqtə 6**. Burun və haymor boşluqlarının qanla təchiz olunmasını yaxşılaşdırır. Qıcolmaya qarşı təsirlidir. Burunla nəfəsalmanı yaxşılaşdırır.



Şəkil 7

**Nöqtə 7.** Beynin alın hissələrinin və gözün qanla təchizatını yaxşılaşdırır.



Şəkil 8

**Nöqtə 8.** Bu nöqtənin masajı eşitmə orqanlarına və vestibulyar aparata təsir edir.



Şəkil 9

**Nöqtə 9.** Bu nöqtənin masajı orqanizmin bir sıra funksiyalarını normallaşdırır.

Nöqtəli masajı 3 dəqiqə ərzində gündə 3 dəfə etmək lazımdır (9 dəfə bir istiqamətdə, 9 dəfə əks istiqamətdə). Bəzən uşaqlar masaj nöqtələrini müəyyənləşdirməkdə çətinlik çəkirlər. Ona görə də tərbiyəçi uşaqlara bu nöqtənin yerləşdiyi nahiyəni bütövlükdə masaj etməyi təklif edə bilər, məsələn, 6-cı nöqtənin masajı üçün onlar əlin kənarı ilə bütün burunətrafı nahiyəni masaj edə bilərlər.

Əgər tərbiyəçilər uşaqlarda formalaşdırılan bacarıqlara müsbət emosional yanaşma tərbiyə edə bilərlərsə, onda sağlamlığı möhkəmləndirən bu texnologiyalar mükəmməl həyata keçirilə bilər. Praktik iş zamanı tərbiyəçi

bəzi hərəkətləri öz üzərində, bəzilərini kukla üzərində göstərib izah edə bilər. Bundan sonra tərbiyəçi hər bir uşaqla ayrılıqda hərəkətləri öyrənir, sonra isə təqlid və nümunə əsaslı fərdi və qrup məşğələlərinə başlayır.

Tərbiyəçi öyrədilən təmrinlərin yerinə yetirilməsinə nəzarət edərək, vaxt-aşırı köməkçi və dəqiqləşdirici suallar verməlidir, məsələn, «Sən bunu nə üçün belə etdin?», «Sən dişlərini düzgün fırçalaya bilirsənmi?», «Əlləri necə massaj etmək lazımdır?» Belə suallar uşağın gördüyü işə şüurlu yanaşmasına və hərəkətlə söz arasında əlaqə yaranmasına kömək edir.

Müxtəlif didaktik materiallar və fəaliyyət növləri əsasında uşaqlarda «Sağlam insan gümrah və fəaldır.» təsəvvürünün yaranması çox vacibdir. Gəzinti zamanı uşaqlara bu fikri çatdırmaq lazımdır ki, məhz sağlam olduqlarına görə onlar tullanır, qaçır, müxtəlif hərəkətləri yerinə yetirə bilirlər. Tərbiyəçi ünsiyyət zamanı müsbət özünütəlqin elementlərindən də istifadə edə bilər. Bunun üçün tərbiyəçi uşaqlarla birlikdə əl-ələ verib, dairə qurur, xorla «Biz şən və gümrahıq, biz sağlam və güclüyük», «Biz oynayırıq, gülürük, şən yaşayırıq» sözlərini deyirlər.

Ümumiyyətlə, «Sağlamlıq» bölməsi uşaqların mənəvi inkişafının təkmilləşməsinə, fiziki sağlamlığının möhkəmləndirilməsinə, əsas həyati ehtiyacların ödənilməsi üçün şəraitin yaradılmasına, sağlam həyat tərzi prinsiplərinin formalaşdırılmasına yönəldilmişdir.

### Ədəbiyyat

1. Верне Д.Реабилитация детей – инвалидов. М., 1995.
2. Малофеев Н.Н.Специальное образование в меняющемся мире. М., 2007.
3. Малофеев Н.Н.Актуальные проблемы специального образования. «Дефектология», 1994, № 6.

### Важность внесение секции "Здоровье" в развивающие корректирующие программы в дошкольныхспециальных образовательных учреждениях

### Резюме

Хорошо известно, что основы физического, соматического и психического здоровья детей закладываются в раннем детском возрасте. В данной статье обосновывается важность введения в программы дошкольных специальных учреждений в систематическом виде оздоровительных мероприятий, направленных на сохранение и УКрепление здоровья детей.

### The importance of making thesection "Zdogove in developing corrective programs in preschool special education institutions

### Summary

It is well known, that the bases physical and mental health of children are built up in early children's age. In given clause the importance of introduction in the programs of preschool establishments in a regular kind of improving measures directed on preservation and strengthening of health of children is proved.

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLAR VƏ İNKLÜZİV TƏHSİL

**Əhmədova Azadə,**
Yasamal rayonu, 11 nömrəli körpələr
evi-uşaq bağçasının müdiri



**Açar sözlər:** inklüziv təhsil, əlil, iflic, xüsusi qayğıya ehtiyacı olan, qüsurluluq, normal inkişafın ləngliyi, dil qüsurları, hərəkət qüsurları, eşitmə qüsurları, görmə qüsurları, emosional pozulma.

**Ключевые слова:** инклюзивное образование ,инвалид, парализованный, с особыми потребностями,дефективность, задержка нормального развития,языковые дефекты, двигательные дефекты, слуховые дефекты, дефекты зрения, эмоциональные нарушения.

**Key words:** inclusive education, the disabled, paralyzed, with special needs, being defecti ve in the normal development, language disabilities, movement defects,hearing defects, visual defects, emotional disturbance.

1986 ildə Varşava şəhərinə turist səfərinə getmişdim. Şəhəri gəzərkən hər yerdə əlillərə rast gəlirdim. Məndə böyük bir təəccüb hissi yarandı. Bu ölkədə nə çox əlil var? Onu da qeyd edim ki, mağazalarda, tramvayda, hətta kinoteatrda rast gəldiyim bu insanlara ətrafdakıların xüsusi qayğı ilə yanaşdıqlarının şahidi oldum…

Bu gün «inklüziv təhsil», «xüsusi qayğıya ehtiyacı olan uşaq» ifadələrinə tez-tez rast gəlirik. İnklüziv təhsil artıq təhsilin bir qoluna çevrilmişdir. Təhsilin bu növü insan hüquqları prinsipinə əsaslanır. Sevindirici haldır ki, bu gün «əlil uşaq», «xəstə uşaq», «əqli cəhətdən geridə qalən uşaq» kimi ifadələr nitqimizdə işlənmir.

BMT-nin İnsan Hüquqları Konvensiyasına görə dövlət bütün uşaqlar üçün bərabər təhsil almaq imkanları yaratmalıdır.

Yasamal rayonundakı 11 nömrəli uşaq bağçası inklüziv layihəyə ilk qoşulan təhsil müəssisələrindəndir. Artıq 6 ildir ki, bağçamızda xüsusi qayğıya ehtiyacı olan uşaqların təlimi həyata keçirilir. Bu müddət ərzində 30-a yaxın uşaq layihə çərçivəsində təlim alıb. Onların əksəriyyəti hazırda ümumtəhsil məktəblərində təhsillərini uğurla davam etdirir.

İnklüziv təhsil sağlamlıq imkanları məhdud olan uşağın təhsil müəssisələrinə cəlb edilməsi demək deyil. İnklüziv təhsilin keyfiyyəti xüsusi qayğıya ehtiyacı olan uşaqları qəbul etmək üçün yaradılmış mühitdən çox asılıdır. Bu mühitdə hər bir uşaq öz qabiliyyət və ehtiyaclarından asılı olmayaraq, QRUpun bərabərhüquqlu üzvü sayılır. Bu şərait ailələrin etibarını qazanmaq üçün atılan ilk addımdır. Valideynlərlə sıx əməkdaşlıq layihənin əsas istiqamətlərindəndir.

2004-cü ildən Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə «Vorld Vision» təşkilatı tərəfindən «Müasir Təhsilə Yardım Mərkəzi»nin «Xüsusi qayğıya ehtiyacı olan uşaqlar; mövqelər, təcrübələr və siyasət» pilot

layihəsinin respublikamızda tətbiq olunmasına başlandı. Layihəyə ilk qoşulan müəssisələrdən biri biz olduq.

İllərdən bəri cavab tapa bilmədiyimiz suallara layihə üzrə keçirilən treninqlərdə cavab tapdıq və kollektiv həvəslə bu layihəyə qoşuldu.

Qüsurluluq nədir? Qüsurluluq normal inkişafın ləngiməsidir. Qüsurlar müxtəlifdir: nitq və ya dil qüsurları; hərəkət qüsurları; eşitmə qüsurları; görmə qüsurları; emosional pozulma.

Canının bir parçası olan uşağının hər hansı bir qüsuru valideynlər üçün böyük psixoloji sarsıntıdır. Məqsədimiz qüsurlu uşağı olan ailələrə mənəvi dəstək olmaqdır.

Faktlar sübut edir ki, ildən-ilə xüsusi qayğıya ehtiyacı olan daha çox uşaq adi siniflərə daxil olmaq istəyir. Təhsilin ilkin pilləsi olan məktəbəqədər təhsil müəssisələri bu layihə çərçivəsində də ağırlığı öz üzərində daşıyan ilkin pillədir.

Yaşadığımız küçədə Eldar adlı iflic keçirmiş bir uşaq olurdu, anası hər gün Eldarı əlil arabasında küçəyə gəzməyə çıxarırdı. Eldarın yaşıdları nəinki ona yaxınlaşmır, hətta qorxaraq qaçıb uzaqlaşırdılar. Şahidi olduğum bu hadisələr məni bir müddət düşündürdü, lakın müraciət etdiyim heç kəsdən cavab ala bilmədim...

Övladın hər hansı qüsuru valideyn üçün böyük psixoloji sarsıntıdır. Bizim məqsədimiz ilk növbədə belə ailələrə mənəvi dəstək olmaqdır. Bağçamıza sağlamlıq imkanı məhdud olan uşağı ilə bağlı müraciət edən valideynlərlə fərdi söhbətlər aparılır, dəyirmi masa təşkil olunur, müvafiq tədbirlər həyata keçirilir. Müəssisədaxili resurslardan istifadə etməklə valideynlərin inklüziv layihə ilə bağlı bilikləri artırılır.

Səmərəli təlim bütün uşaqlar üçün əhəmiyyətlidir, lakin inkişafında müəyyən problemləri olan bəzi uşaqların qrup məşğələlərində iştirak etmələri üçün xüsusi dəstəyə ehtiyacları olur.

Tərbiyəçilərin səyi nəticəsində hər yeni tədris ilinin əvvəlindən tərbiyəçi köməkçiləri diqqətini uşağın güclü tərəfləri üzərində cəmləşdirir. Beləliklə, nitq sahəsində çətinlik çəkən uşaq gözəl əl işləri ilə, autik və ya daun sindromlu uşaq mozaikadan müxtəlif fiqurlar düzəltməklə, serebral iflic olan uşaq gözəl səsi və musiqi duyumu və s. qabiliyyətləri ilə fərqlənirlər. Bu qabiliyyətləri düzgün istiqamətləndirən tərbiyəçilər işlərində uğur qazanırlar, əməyinin böyüklər tərəfindən qiymətləndirildiyini görən uşaq öz işi ilə fəxr edir və yenisini sınamaqdan çəkinmir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla çalışan müəllimlərdə müşahidəçilik qabiliyyəti, tələbkarlıq, vəziyyəti təhlil etmə bacarığı yüksək olur ki, bu da nailiyyətin göstəricisidir. Bu çətin və şərəfli işdə çalışan tərbiyəçi köməkçilərinin işçi kimi statusu, mənə elə gəlir ki, layihəyə qoşulan bir sıra müəssisələri düşündürür. Yaxşı olardı ki, tərbiyəçi köməkçilərinə pedaqoji işçi statusu verilsin.

İnklüziv təhsil artıq reallıqdır. İnklüziv layihəyə qoşulmaq istəyən hər bir təhsil müəssisəsinin kollektivi əmin olmalıdır ki, bu işin öhdəsindən gələ biləcək. Bu gün əminliklə deyə bilərəm ki, 11 nömrəli uşaq bağçası layihə çərçivəsində işi layiqincə yerinə yetirir. Valideynlərin gözlərində olan sevinc, onların təşəkkürləri, gördüyümüz işləri yüksək qiymətləndirmələri bizi daha da ruhlandırır, kollektivin çalışmaq əzmi artır.

İnklüziv təhsil genişləndirilməli, xalqımızın bir parçası olan belə uşaqlara qayğı hər birimizin həyat tərzinə çevrilməlidir.

# EKOLOJİ TƏRBİYƏ ÜZRƏ İŞİN TƏŞKİLİNƏ VERİLƏN TƏLƏBLƏR

**Lətifə Rzayeva,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent



**Açar sözlər:** *ətraf mühit, bitki və heyvanlar aləmi, atmosfer, ekoloji tərbiyə, kiçikyaşlı məktəbli, təbiəti mühafizə, ekoloji təhsil.*

**Ключевые слова:** *окружающая среда, флора и фауна, атмосфера, экологическое образование, детский сад, охрана природы, экологическое образование.*

**Key words:** *environment, flora and fauna, the atmosphere, environmental education, infant school, nature protection, environmental education.*

Kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsi probleminin tədqiqində pedaqogika və psixologiya elminin son nailiyyətlərinə əsaslanılmalıdır. İ.N.Zverev, İ.T. Suragina, A.N.Zaxlebina, İ.S.Matrusov, N.İ. Qoroqotskaya və başqalarının tədqiqatlarında sagirdlərə ekoloji biliklərin çatdırılması, təbiəti mühafizə və ondan səmərəli istifadə yolları şərh olunur. Bu amillərin tədqiqinin ən ümumi cəhətləri ondan ibarətdir ki, ekologiya üzrə aparılan işlər şagirdlərin nəzərinə onların yaş və bilik səviyyələrinə uyğun şəkildə çatdırılmalı, onlarda təbiətə qayğı hissləri tərbiyə olunmalıdır. Şagirdlərə başa salınmalıdır ki, təbiət bizim evimizdir.

I-IV siniflərin həyat bilgisi proqramı şagirdlərin təbiətə şüurlu və qayğı ilə yanaşmalarını mühüm vəzifə kimi irəli sürür. Bütün bunlara baxmayaraq, bəzən təcrübədə təbiətin mühafizəsi ilə əlaqədar ayrı-ayrı fənlərin mövcud imkanları nəzərə alınmır və onların tədrisi prosesində şagirdlərə sistemli ekoloji biliklər verilmir. Təbiəti mühafizə haqqında biliklərin kasadlığı, bununla əlaqədar şagirdlərin məqsədyönlü müşahidələrinin zəifliyi, onların praktik fəaliyyətlərinin lazımi səviyyədə qurulmaması kiçikyaşlı məktəblilərə ekoloji tərbiyənin aşılanmasına mənfi təsir göstərir. Ona görə də istər təlim prosesində, istərsə də sinifdənxaric və məktəbdənkənar tədbirlərdə ekoloji tərbiyəyə pedaqoji tələbləri müəyyənləşdirmək zərurəti meydana çıxır. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, kiçikyaşlı məktəblilərdə ekologiyaya məhəbbət hissi tərbiyə etmək üçün onların təbiət hadisələrinin canlı müşahidəsinə (müstəqil və müəllimin rəhbərliyi altında) və bu hadisələrlə əlaqədar şəxsi təcrübələrinə əsaslanmaq lazımdır. Yuxarıda qeyd olunduğu kimi, ekoloji tərbiyənin aşılanmasında didaktikanın asandan-çətinə, sadədən mürəkkəbə, yaxından uzağa, məlumdan məchula, konkretdən mücərrədə doğru prinsiplərinə diqqət yetirilməlidir.

Dərslik və dərs vəsaitlərində ekoloji tərbiyə aşılanması baxımından nəzəri materialların şərhi zamanı şagirdlərin istər təlim, istərsə də sinifdənxaric və məktəbdənkənar tədbirlər prosesində əldə etdikləri biliklərin möhkəmləndirilməsinə, ümumiləşdirilməsinə səy göstərilməlidir.

Çirklənmiş ətraf mühit, oradan götürülmüş nümunələr üzərində şagirdlərin laborator cihazlar vasitəsilə müşahidələri təşkil olunmalı, yeri gəldikcə, müəllim şagirdləri təcrübi işlərə də cəlb etməlidir

Ekoloji tərbiyə, ümumiyyətlə, tərbiyənin mühüm komponentlərindən hesab olunur, çünki təbiətə münasibət ictimai, əxlaqi, hümanist və şüurlu xarakter daşıyır. Hazırda ekoloji tərbiyə əqli, estetik, əmək, vətənpərvərlik tərbiyəsi və s. istiqamətlərdə mənəvi keyfiyyətlər aşılayır. Ekoloji tərbiyə probleminin həlli üçün təkcə təlim və sinifdənxaric tədbirlər prosesində aparılan işlər azlıq təşkil edir. Bu işə ailə, ictimaiyyət, dövri mətbuat, informasiya vasitələri cəlb olunmalı, onların fəallığı təmin edilməlidir.

Tədqiqatlar göstərir ki, kiçikyaşlı məktəblilərə ekoloji tərbiyə aşılamaq üçün aşağıdakılar diqqət mərkəzində saxlanılmalıdır:

- şagirdlərdə insan həyatında təbiətin çoxcəhətli rolu haqqında təsəvvürün yaradılması;
- şagirdlərə təbii sərvətlərdən istifadə edilməsinin və onların artırılmasının elmi əsasları haqqında biliklərin verilməsi;
- şagirdlərə təbiətə qayğılı münasibətin əhəmiyyəti və onun qorunması haqqında bacarıq və vərdişlərin aşılanması;
- şagirdlərin ekologiya ilə əlaqədar idraki marağının inkişaf etdirilməsi.

Bu arqumetlərə əsaslanaraq, şagirdlərə ayrı-ayrı məşğələlərdə, dərnəklərdə və digər tədbirlərdə torpaq, su, meşə, onlardan əldə olunan maddi nemətlər, onların əhəmiyyəti, təbiətin mühafizəsi və təbii sərvətlərdən kompleks istifadə üzrə zəngin biliklər və təcrübə verilməli, təbii sərvətlərin cəmiyyətin həyatındakı rolunu qiymətləndirilmək üzrə bacarıqlar verilməlidir. Bu prosesdə onlar nəzəri və praktik biliklərə əsaslanan, təbiətin bərpası, torpağın məhsuldarlığının artırılması, meşələrin, qoruqların salınması, təbiətdə kökü kəsilməkdə olan ağac, bitki, quş, heyvan, böcək və balıqlara qulluq olunması üzrə bilik və bacarıqlara yiyələnməlidirlər.

İbtidai siniflərdə dərsdə, həm də sinifdənxaric və məktəbdənkənar tədbirlərdə ekoloji tərbiyə üzrə aparılacaq işin məzmununun mahiyyəti, xarakteri, başqa sözlə, onun nəzəri praktik məsələlərinin aydınlığı müəllimlərin həmin sahədəki fəaliyyətinin effektini yüksəldir.

Bu prosesdə müəllim şagirdlərə istiqamətləndirici suallar verməli, onların diqqətini daha zəruri məsələlər üzərində cəmləşdirməlidir. Şagirdlərin oxuduqları ilə müşahidələri arasında bir bağlılıq yaradılmalıdır. Oxu materialları müxtəlif xarakterli vasitələrin köməyi ilə şagirdlərə ətraf mühitin, torpağın, suyun, atmosferin, bitkilər və heyvanlar aləminin, faydalı qazıntıların

və tarixi abidələrin mühafizəsi üzrə işlərin aparılması yolları öyrədilməli, mümkün qədər praktik fəaliyyətə qoşulmaları təmin olunmalıdır.

İstər şəhər, istərsə də kənd məktəblərində ekoloji tərbiyə üzrə işin başlıca istiqamətləri, əsasən, məktəbin, məktəbyanı sahənin, yol kənarlarının, bağların, parkların, yaşayış məntəqələrinin yaşıllaşdırılması, dərman bitkilərinin toplanması, toxumların səpilməsi, quşlara, heyvanlara, qulluq olunmasıdır. İbtidai siniflərdə görülən işlərin əhatə dairəsi daha da genişləndirilməli, ona ictimai xarakter verilməlidir. Belə ki, uşaqlar yaşıllaşdırma obyektləri sırasına yaxınlıqdakı uşaq bağçalarını, parkları, xəstəxanaları və s. kimi içtimai idarələri də daxil etməlidirlər. Belə olduqda onlar gördükləri işlərin əhəmiyyətini dərindən dərk edir, həvəslənir, daha yeni istiqamətdə işlərə qoşulur, başqa sözlə, təbiətin qorunmasında fəal iştirak edirlər.

Ekoloji təhsilin mədsədi uşaqlara təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında elə biliklər verməkdir ki, onlar sonralar bu bilikləri öz fəaliyyətində rəhbər tuta bilsinlər. Cəmiyyətin həyatının bütün sahələrində işləyən hər bir insan ekologiya barədə minimum biliyə malik olmalıdır.

Ekoloji təhsil prosesində təbiəti mühafizə və resurslardan səmərəli istifadə prinsiplərinin aşılanması birinci dərəcəli əhəmiyyət kəsb edir.

Qeyd etdik ki, pedaqoji prosesdə ekoloji tərbiyəyə nail olmağın yollarından biri də dünyagörüşün ekolojiləşdirilməsidir. Bu məqsədlə ekologiya ilə əlaqədar bütün sahələrə dair ilkin məlumatların mənimsənilməsi nəzərdə tutulur.

Ümumi olan hər şey – torpaq, su, hava bütün dövlətlər tərəfindən qorunmalıdır. Bu elə vacib məsələdir ki, gələcəkdə insanların varlığı da, sağlamlığı da bu faktorlardan asılı olacaq. Belə təhlükə ilə qarşılaşmamaq üçün təkcə dövlət deyil, həm də hər bir vətəndaş çalışmalıdır.

Məlumdur ki, ekoloji təhsil ölkəmizdə iki səviyyədə həyata keçirilir. Birincisi, ümumtəhsil məktəblərində və orta ixtisas məktəblərində mövcud olan ekoloji təlim və tərbiyə. İkincisi, peşəkar ekoloqların hazırlanması istiqamətində təhsil.

Göründüyu kimi, ekoloji tərbiyənin əsasları pedaqoji prosesdə qoyulmalıdır. Hər bir fənn bu və ya digər dərəcədə ekoloji problemlərlə səsləşdiyi üçün bu prosesdə müəllimlərin rolu əvəzedilməzdir.

**Ədəbiyyat**

1. Əliyev H.Ə. Həyəcan təbili. Bakı, «Azərnəşr», 1982.
2. Ələsgərov Ə. Təbiətin mühafizəsi. Bakı, «Maarif», 1983.
3. Abbasov A.N., H.Əlizadə. Pedaqogika (dərs vəsaiti). Bakı, «Renessans», 2000.

## Сущность работы по экологическому воспитанию учащихся начальной школы

**Резюме**

В статье раскрывается сущность работы по экологическому воспитанию учащихся начальных классов обшеобразовательной школы. Указывается система работы по развитию у учащихся экономических знаний, формированию нравственного, эстетического, физического воспитания и привитию любви к Родине и природе.

## The essence of the ecokogical education work in primapy classes

**Summary**

In the article is explained that, ecological education in primary classec is effective in the improving of economic knowledge of the pupils, their moral, aesthetic, physical education, love to their native land and nature/

Their ecological knowledge and abilities will give them suitable opportunity to love and take care of the nature in future.

# УСЛОВИЯ И ПУТИ ОБЕСПЕЧЕНИЯ ДИСЦИПЛИНЫ НА УРОКАХ

**Пулатова Зоя,**
старший преподаватель АГПУ, кафедра
дошкольной педагогики



***Ключевые слова:*** *дисциплина, урок, методы и приемы, педагогическая культура, ситуация.*

***Key words:*** *discipline, lesson, methods and techniques, pedagogical culture, situation.*

Главное условие, обеспечивающее дисциплинированное поведение школьников на уроке– тщательно разработанный урок. «Урок – это зеркало общей и педагогической культуры классовода, мерило его интеллектуального богатства, показатель его кругозора, эрудиции.»–писал В.А. Сухомлинский. Успех урока зависит от того, как он подготовлен.

«Классовод готовится к хорошему уроку всю жизнь… Такова духовная и философская основа нашей профессии и технологии нашего труда: чтобы открыть перед учениками искорку знаний, классоводу надо впитать море света, ни на минуту не уходя от лучей вечно сияющего солнца знаний, человеческой мудрости» – отмечал В.А. Сухомлинский.

Когда урок хорошо построен, четко спланированы все его моменты, если все дети заняты делом, они не будут нарушать дисциплину. Это положение бесспорно и широко известно. Психологический механизм данного явления достаточно прост: саморегуляция поведением становится частью интересной познавательной деятельности. Ребенок регулирует свое поведение неосознанно: его привлекает

ситуация интереса. Поэтому, как только урок становится неинтересным, дисциплинированное поведение исчезает.

Классовод не всегда может сделать урок интересным, секреты педагогического мастерства познаются не сразу. Дисциплина же нужна на каждом уроке, с самого первого дня пребывания ребенка в школе.

Сознательная дисциплина требует от учащихся подчинения установленным требованиям. Подчинение же тесно связано с авторитетом.

Младшие школьники даже и в том случае, когда они еще полностью не осознают необходимости тех или других требований классовода, охотно выполняют их, подчиняясь его авторитету. Различное поведение одних и тех же учащихся на уроках разных учителей обычно и объясняется степенью авторитетности того или другого учителя.

Воспитание сознательной дисциплины учащихся осуществляется, в основном, в процессе обучения. Используя содержание учебных предметов, классовод подводит детей к пониманию тех требований, которые предъявляются школой и государством к их поведению.

Опыт лучших классоводов показывает, что уже младшие школьники через чтение и доступные для них беседы способны усвоить на конкретных примерах следующие положения, относящиеся к дисциплине:

– учиться хорошо и отлично – первый долг и обязанность каждого учащегося перед своей Родиной; для успешного ученья необходима дисциплина, выполнение учащимися установленных правил поведения, учебных обязанностей;

– учащиеся бережно относятся к общественной собственности, к школьному имуществу, к личному имуществу;

– младшие школники также стремятся к культурному поведению как в школе, так и вне ее.

Естественно, что эти общие понятия включают в себя ряд более частных и должны разъясняться с учетом возраста детей того или другого класса начальной школы на доступном им конкретном и ярком материале.

В учебных книгах для чтения немало статей, которые дают классоводу возможность активного воздействия на чувства и

сознание детей. Чтение статей и беседы по прочитанному помогают формировать у детей необходимые нравственные представления и дисциплинированное поведение.

Для образования у детей твердых убеждений в необходимости сознательной дисциплины требуется большая, настойчивая и последовательная работа. Некоторые классоводы игнорируя возрастные возможности детей, стремятся в короткий срок довести до их сознания все нормы дисциплины, дают те или другие моральные понятия в форме голых, назойливых нравоучений и, понятно, не получают необходимых положительных результатов.

Воспитать сознательную дисциплину у детей можно только при наличии четкой организации и продуманной методики учебной работы.

Не будет оснований для нарушения учебной дисциплины, если классовод тщательно подготовится к занятиям, подберет заранее необходимые наглядные пособия, продумает, как надо объяснить новый материал, формируя познавательную активность детей, а также рассмотрит различные виды самостоятельной рабо-

ты учащихся и.т.д. Очень важно в ходе урока следить за тем, чтобы все дети были вовлечены в активную работу, наблюдать за устойчивостью их внимания и в необходимых случаях, предупреждать утомление детей, переходя от одного вида учебной работы к другому (например, от чтения к беседе или рассказу, от письменных упражнений к устным и.т.д.)

Проводя занятия с классом, необходимо неослабно наблюдать за работой и поведением отдельных учащихся, которые еще не приучены к дисциплине и порядку или отличаются неустойчивостью внимания с тем, чтобы вовремя предупредить нарушение дисциплины.

Для воспитания и поддержания дисциплины учащихся особенно важно организованное начало урока.

Если классовод начинает урок, не обращая внимания на то, что еще дети не успокоились, не приготовили учебники, тетради, письменные принадлежности, то, как правило, с первых же минут урока нарушается нормальный порядок. Когда же это входит в систему, то дети неизбежно приучаются к нарушению учебной дисциплины. Между тем, следует в первые же дни занятий в школе приучить детей входить в класс точно по звонку, сейчас же готовить к уроку необходимые учебные принадлежности, а с появлением в классе классовода немедленно приступать к работе. Организованное начало урока зависит также от умения классовода сразу же привлекать внимание детей.

Большое значение имеет и правильная организация проверки выполнения домашних заданий и опроса учащихся. Если класссовод, проверяя выполнение домашнего задания или опрашивая ученика, оставляет его вне своего внимания, не привлекает класс к конкретному делу, то теряется деловое настроение и начинается нарушение дисциплины. Ученики должны знать (убедившись в этом на практике), что они в любой момент могут быть опрошены классоводом и что им всегда следует быть наготове. С точки зрения дисциплины важна и сама методика опроса. Педагогический опыт показывает, что для обеспечения устойчивого внимания всех учащихся при опросе следует сначала сформулировать вопрос, направляя его всему классу, а затем уже вызывать для ответа отдельного ученика.

При сообщении классоводом нового материала основным источником внимания, а следовательно, и дисциплинированности учащихся на уроке является интерес, вызванный содержанием урока. Но не всякий материал сам по себе может заинтересовать учащихся. Поэтому надо приучить детей быть внимательными. И в том случае, если урок по-своему содержанию не вызывает непосредственного интереса.

При изложении нового материала классоводу необходимо помнить, что дети младших классов не в состоянии долго удерживать внимание на одном и том же материале – они быстро утомляются. В этом случае особенно важно чередование на уроке различных методов и приемов работы.

Организуя самостоятельную классную и домашнюю работу учащихся, в целях предупреждения поводов к нарушению дисциплины на уроке, надо обстоятельно разъяснить учащимся содержание и порядок работы. Необходимо систематически проверять выполнение учениками домашних заданий, так как отсутствие или ослабление контроля в учебной работе подрывает основы школьной дисциплины.

При одновременной работе классовода с двумя классами состояние дисциплины на уроке находится в зависимости от организации самостоятельной работы детей и ее умелого чередования с непосредственными занятиями классовода с детьми.

Большое значение в воспитании дисциплинированности детей имеет организованное окончание урока. Иногда приходится наблюдать в школах такую карти-

ну: едва только звонок возвестит об окончании урока, как ученики шумно срываются с мест и без разрешения классовода выбегают из класса.

Правильно поступают те классоводы, которые со всей настойчивостью требуют от учеников продолжения работы до тех пор, пока классовод не скажет, что урок окончен.

В отличии от дисциплины, которая всегда является результатом всего воспитательного процесса, режим представляет собой прежде всего средство, при помощи которого коллектив организует внешние рамки поведения, предоставляя каждому воспитаннику наполнить эти рамки внутренним содержанием.

Четкий режим всей жизни и деятельности детей является важнейшим условием воспитания сознательной дисциплины как в школе, так и в семье.

Если школа стремится воспитать у ребенка дисциплинированность и организованность, приучить его к порядку и культуре, то, естественно, она должна в первую очередь, позаботиться о том, чтобы в окружающей обстановке, во всем режиме и распорядке школы он мог видеть только положительные примеры.

Воспитывая у учащихся положительные навыки и привычки дисциплины, классоводы не могут не вести борьбу с плохими привычками, противоречащими требованиям сознательной дисциплины. Борьба с плохими привычками должна идти в следующих направлениях:

- воспитание самоконтроля т.е. умения следить за своим поведением;
- вытеснение плохих привычек хорошими, (например, грубость – вежливостью);
- систематический контроль за поведением ученика со стороны школы и семьи;
- привлечение детского коллектива (общественного мнения) к борьбе против плохих привычек, проявляемых отдельными учащимися.

Школьная практика знает различные случаи нарушения учащимися требований дисциплины: опоздание на уроки, шум, посторонние разговоры на уроках, невыполнение домашних заданий, порча школьной мебели и.т.п.

Разнообразны и причины недисциплинированности отдельных учащихся, совершения ими тех или иных проступков.

Наконец, и это самое важное, классовод имеет дело с детьми, отличающимися по характеру, по развитию, по условиям воспитания в семье.

## Литература

1.Сухомлинский В.А. Как воспитать настоящего человека. Киев, 1975 г.

2. Макаренко А.С. Дисциплина и режим. Москва, 1980 г.

3. Гурова Р.Г. и Минцилова Е.А. Из опыта воспитания сознательной дисциплины в 3 классе. «Начальная школа», № 12, 1981 г.

4. Щукина Г.И. Педагогика школы. М., 1977 г.

5. Каиров И.А. Об укреплении сознательной дисциплины. «Начальная школа», №10,1989.

## Резюме

В стамые говорится еб условиях и путях обеспечения дисциплины на уроках.

Приводятся повышению, дисциплины учащхся.

## Summary

In the hundred states fucked conditions and ways to ensurediscipline in the classroom. Given rise, discipline uchaschhsya.

# TƏHSİLDƏ İDARƏETMƏNİN PERSPEKTİVLƏRİ

**Surə Rzayeva,**
ADPU-nun magistrantı.



***Açar sözlər:*** *keyfiyyət, monitorinq, qiymətləndirmə, idarəetmə, nəzarət.*

***Ключевые слова:*** *качество, мониторинг, оценка, управление, контроль.*

***Key words:*** *quality, monitoring, valuing, management, supervision.*

Azərbaycanda həyata keçirilən təhsil islahatı, onun bütün sahələrində olduğu kimi, təhsili idarəetmə sahəsində də geniş imkanlar açmışdır. Hazırda təhsili idarəetmə sisteminin təkmilləşdirilməsinə yeni konseptual yanaşma bir vəzifə kimi qarşıya qoyulmuş, əsas diqqət xüsusi əhəmiyyət kəsb edən təhsilin keyfiyyəti probleminə yönəldilmişdir. Bu baxımdan müasir dövrdə təhsil prosesinin səmərəliliyinin, təhsil müəssisələrinin fəaliyyətinin obyektiv meyarı kimi məhz təhsilin keyfiyyət göstəriciləri çıxış etməli, bütövlükdə təhsil sistemində, habelə idarəetmə orqanlarının fəaliyyətində bu aspekt mühüm amil kimi qəbul olunmalıdır.

Keyfiyyət anlayışı iki aspekti özündə cəmləşdirir: dövlət standartlarına uyğunluq və istehlakçının tələbatının ödənilməsi. Təhsildə keyfiyyət dedikdə təhsilin məzmunu, planlaşdırılması, idarə olunması, monitorinqi, qiymətləndirilməsi, keyfiyyətə nəzarət amillərinin səviyyəsi nəzərdə tutulur.

Təhsilin keyfiyyəti anlayışı pedaqoji prosesin iştirakçıları tərəfindən müxtəlif şəkildə anlaşılır. Belə ki, valideynlər tərəfindən təhsilin keyfiyyəti öz uşaqlarının fərdi xüsusiyyətlərinin inkişafı, təlimin səviyyəsi ilə əlaqələndirilir. Müəllim üçün təhsilin keyfiyyəti onların özlərini təmin edən tədris planı və proqramlarının, dərsliklərin, zəngin təlim materiallarının, tədris bazasının olması ilə səciyyələnir. Şagirdlər üçün təhsilin keyfiyyəti məktəbdaxili iqlimin, müəllim-şagird münasibətlərinin, müəllimlərin onları qane etməsi ilə bağlıdır. Peşə-ixtisas təhsili müəssisələri və işəgötürənlər üçün isə təhsilin keyfiyyəti məzunların əldə etdikləri bacarıq və vərdişlərlə, qazandıqları biliklərlə ölçülür. Bu baxımdan təhsilin keyfiyyətinin təmin edilməsi bütün bu amillərin fəaliyyət prosesində vəhdətdə nəzərə alınması ilə bağlı olmalıdır.

Təlim-tərbiyə prosesində nəzərdə tutulmuş məqsədə çatmaq üçün onda iştirak edən hər bir təhsil alanın səviyyəsinin mütamadi qiymətləndirilməsi aparılmalıdır. Təlim prosesinin və təhsil müəssisəsinin fəaliyyətinin keyfiyyətcə qiymətləndirilməsində pedaqoji kvalimetriyanın imkanlarından geniş istifadə olunmalıdır. "Kvali" sözü latın dilində "keyfiyyət", "metreo" yunan dilində "ölçürəm" deməkdir. Deməli, pedaqoji kvalimetriyanın əsas məqsədi təhsil müəssisəsinin fəaliyyətinin qiymətləndirilməsidir.

Təhsildə keyfiyyət mədəniyyətindən o zaman danışmaq mümkün olar ki, istehlakçının problemlərinin həlli təhsil müəssisəsinin hər bir əməkdaşının məqsədinə çevrilsin və təhsil müəssisəsinin strukturu buna imkan yaratsın. Yəni təhsilin keyfiyyətinə həlledici

qiymət istehlakçı tərəfindən verilir. Təhsil sistemində istehlakçı şəxsində ilk növbədə təhsil alanlar və onların valideynləri, işəgötürənlər, həmçinin hakimiyyət orqanları şəxsində dövlətin özü çıxış edir. Dünya təcrübəsi göstərir ki, təhsilin istehsal sahəsi kimi deyil, xidmət sahəsi kimi qəbul olunması ona münasibətdə əsaslı dönüş yaradır və səmərəsini xeyli artırır. Bu halda xidmətin keyfiyyətinə verilən tələblər həm onu göstərənlər, həm də ondan istifadə edənlər tərəfindən müəyyən olunur. Məhz bu səbəbdən də təhsilin nəticəsinin və səmərəlilik səviyyəsinin müəyyənləşdirilməsi prosesində istehlakçının bu nəticələrdən razı qalması bütün təhsil orqanları və təlim-tərbiyə müəssisələri tərəfindən əsas və həlledici meyar kimi qəbul olunmalıdır.

Keyfiyyət öz-özünə yaranmır, o planlaşdırılmalıdır. Keyfiyyət məsələləri hər bir təhsil müəssisəsinin strategiyasında ən mühüm yer tutmalı və strateji planlaşdırmaya ciddi əməl edilməklə sistemli şəkildə keyfiyyətin yüksəlməsinə nail olunmalıdır.

Təhsilin keyfiyyəti tələbatın ciddi öyrənilməsi vəzifəsini irəli sürür, çünki keyfiyyətə məhz «istehlakçının nöqteyi-nəzərincə keyfiyyət» kontekstində yanaşılmalıdır. Tələbatı bilmədən bu istiqamətdə səmərəli iş sistemi qurmaq çətindir. Təhsil müəssisəsi özü üçün aydınlaşdırmalıdır ki, bəziləri həmin müəssisənin xidmətlərindən hansı səbəblərdən istifadə edir, digərlərini isə bu müəssisə qane etmir. Onu da dərk etmək vacibdir ki, istehlakçı təhsil müəssisəsindən bir dəfə, nadir hallarda bir neçə dəfə, lakin uzun müddət ərzində istifadə edir. Buna görə də müasir dövrdə təhsil müəssisəsinə etimad, onun nüfuzu müəssisə üçün çox mühüm əhəmiyyət kəsb edir. Nüfuz qazanmaq üçün vaxt tələb olunur. Qazanılmış nüfuzu isə qoruyub saxlamaq lazımdır, çünki o, dəyişilə də bilər. Buna görə də təhsil müəssisəsi ilə onun xidmətindən istifadə edən istehlakçıların münasibətinin sabitliyi və ya dəyişilməsi barədə məlumatların vaxtında alınması yaranmış problemlərin aradan qaldırılması üçün ən etibarlı mənbədir.

Təhsilin keyfiyyətinin planlaşdırılması təhsil müəssisəsinin fəaliyyətinin ümumi planlaşdırılmasının tərkib hissəsidir. Hazırda təhsil müəssisəsinin fəaliyyətinin perspektiv planlaşdırılmasında əsas nöqsanlar ondan ibarətdir ki, gələcəkdə əldə olunacaq nəticələrə verilən tələblər perspektiv nöqteyi-nəzərindən deyil, bugünkü mövqedən müəyyənləşdirilir və bu səbəbdən planlarda arzu olunan nəticələr öz dəqiq əksini tapmır. Həmin planlarda tədbirlərin uzlaşdırılması və əlaqələndirilməsinə ciddi əhəmiyyət verilmir, onlar əlaqəsiz, əsasən, müstəqil tədbirlər kimi nəzərdə tutulur. Bu da onunla bağlıdır ki, bir çox hallarda təhsil müəssisəsinin başlıca məqsədi yuxarıdan müəyyənləşdirilmiş qaydalara uyğun fəaliyyət göstərmək, həmin sahədə öz funksiyalarını sabit şəkildə həyata keçirməkdir ki, bu zaman da yaradıcılıq və təşəbbüskarlıq arxa plana keçir. Müasir təhsilin innovasiya mühitində idarə olunmasında ən vacib məsələ təhsil müəssisəsinin funksional rejimdən inkişafetdirici rejimə keçirilməsidir.

Funksional fəaliyyətin idarə olunması bu günə xidmət edir, inkişafın idarə olunması isə gələcəyə istiqamətləndirilmişdir.Nəzərə almaq vacibdir ki, funksional rejimdə fəaliyyət göstərən təhsil müəssisəsində idarəetmə obyekti təlim-tərbiyə prosesidir, inkişaf rejimində fəaliyyət göstərən təhsil müəssisəsində isə məhz innovasiya prosesləri idarəetmə obyektinə çevrilir.

Təhsil müəssisəsinin inkişafının mühüm amillərindən biri də təlim fəaliyyətinin məqsədyönlü təşkilidir. Müasir dövrdə ənənəvi təlimlə yanaşı, təlim prosesinə innovasiya mövqeyindən yanaşılması təhsili idarəetmə orqanlarının və təlim-tərbiyə müəssisələrinin fəaliyyətində aparıcı istiqamətə çevrilməkdədir. Keyfiyyət sistemlərinin əks-əlaqəyə ehtiyacı var. Yəni elə mexanizmlər tətbiq olunmalıdır ki, onların köməyi ilə planların

yerinə yetirilməsi ilə bağlı nəticələrin müqayisəli təhlili mümkün olsun. Bu baxımdan strateji planlaşdırmada monitorinq və qiymətləndirmə nəticələrinin müntəzəm təhlili üzrə tədbirlərin nəzərə alınması çox vacibdir.

Təhsilin keyfiyyəti ümumi şəkildə təhsil müəssisəsinin göstərdiyi xidmətlərin təhsil prosesinin müxtəlif iştirakçılarını təminetmə, qarşıya qoyulmuş məqsədlərə nailolma dərəcəsi və vəzifələrin həyata keçirilməsi səviyyəsi anlayışlarını özündə cəmləşdirir. Bununla əlaqədar təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün ölçü vahidləri sisteminin işlənib hazırlanması vacib problemə çevrilir. Həmin ölçü vahidləri vasitəsilə şagirdlərin təhsil müvəffəqiyyətinin yüksəlməsi imkanları, onların fəal həyata daha səmərəli hazırlanmaları, təhsil müəssisəsinin məqsəd və vəzifələri, idarə olunması və səlahiyyətlərin bölüşdürülməsi səviyyəsinin yüksəlməsi, sərbəstliyin və məsuliyyətinin artması imkanları və təlim metodlarının səviyyəsinin yeniləşməsi imkanlarını müəyyənləşdirir.

Ənənəvi pedaqoji təcrübədə biliklərin yoxlanılması və qiymətləndirilməsi öyrədici, nəzarətedici və tərbiyəedici funksiyalarla səciyyələnir. Hesab olunur ki, təlimin hər bir mərhələsində təhsil alanların mənimsədikləri biliklər, onların hazırlığındakı nailiyyətlər və çatışmazlıqlar, habelə müəllimin fəaliyyətinin səmərəliliyi həmin funksiyalar əsasında aşkara çıxarıla bilər.

Biliklərin yoxlanması və qiymətləndirilməsi təhsil prosesinin və ona rəhbərliyin təşkili üçün zəruri məlumat mənbəyidir. Təlimin keyfiyyəti, bir çox didaktik və tərbiyəvi vəzifələrin həlli bu məlumatlarm obyektivliyindən asılıdır, lakin hazırkı pedaqoji təcrübədə biliklərə nəzarət və qiymətləndirmə subyektiv xarakter daşıyır. Bu isə bir daha öyrətmə prosesində diaqnostik və nəzarətedici sistem kimi çıxış edən pedaqoji monitorinq probleminin aktuallığını ön plana çəkir, biliklərin qiymətləndirilməsi prosesində obyektivliyin təmin olunmasında monitorinq sisteminin əhəmiyyətini artırır.

Təhsil müəssisəsinin innovasiya rejiminə keçirilməsi, təhsilin keyfiyyətinin idarə olunması sisteminin tətbiqi müəssisənin baza vahidi probleminə yeni yanaşmanı aktuallaşdırır. Bu gün dərindən dərk olunmalıdır ki, təhsil müəssisəsinin baza vahidi artıq sinif deyil, təhsil müəssisəsinin özü və onun əhatəsidir. Müəllimlər və təhsil prosesinin digər iştirakçıları daha öz funksiyalarına şəxsi nöqteyi-nəzərdən yanaşmamalı, öz rollarını birgə məsuliyyət və əməkdaşlıq kimi anlamalı və qəbul etməlidirlər.

Müəssisənin idarə olunmasında birgə fəaliyyət, orada təhsilin təşkili məhz təhsil prosesinin müxtəlif iştirakçılarını öz tərkibində birləşdirən vahid «təhsil komandası» şəklində həyata keçirilməlidir. Təhsil komandası xarici mühitə, təhsil ictimaiyyətinə (ailə, təhsili idarəetmə orqanları, icra hakimiyyəti orqanları, biznes aləmi və s.) açıq olmalıdır. Problemə belə yanaşmanın bir üstünlüyü də ondadır ki, təhsil komandasının hər bir üzvü, ümumi işin xeyrinə öz bacardığını sərf edir.

Təhsil müəssisəsinin keyfıyyətli fəaliyyəti, tədris prosesi səmərəliliyinin məqbul və qənaətbəxş hesab olunması bir sıra vacib amillərdən asılıdır. Bu amillərə təhsil müəssisəsinin vəzifələrinin dəqiq müəyyənləşdirilməsi, təhsil alanların öz vaxtlarını maksimum dərəcədə konkret təlim məsələlərinin həllinə sərf etməsi, pedaqoji idarəetmənin vahid və əlaqəli şəkildə təşkili, müəllimlərin daim təkmilləşdirilmələri, onların komanda şəklində işləmələri, müəssisə daxilində qayda-qanunun hökm sürməsi, valideynlər və ictimaiyyətlə sıx qarşılıqlı əlaqənin yaradılması və s. aiddir. Beləliklə, diqqət mərkəzində saxlamaq lazımdır ki, təhsil müəssisəsinin keyfiyyətinin qiymətləndirilməsində bir-biri ilə qarşılıqlı əlaqədə olan üç amil – müəllim, təhsil müəssisəsi, ətraf mühit (müəssisənin əhatəsi) mühüm rol oynayır.

Təhsilin keyfiyyətinə nəzarət sistemi müvafiq standartların müəyyənləşdirilməsi, onların ölçü vahidlərinin (indikatorların) təyin olunması, standartlara nail olma haqqında mühakimə yürütməyə imkan verən meyarların hazırlanması, məlumatların toplanması və təhlili (monitorinqi), nəticələrin qiymətləndirilməsi, müvafiq tədbirlərin görülməsi, standartlara müvafiq olaraq görülmüş tədbirlərin nəticələrinin yenidən qiymətləndirilməsi kimi elementləri nəzərdə tutur. Monitorinq müşahidələri ilə qiymətləndirmə keyfiyyətin idarə olunmasının vacib elemetlərindən biridir, buna baxmayaraq, ona nəzarət prosesi özündə əsas funksiyaları cəmləşdirir. Nəzarətin əsas məqsədi təhsilin keyfiyyətini yüksəltmək, fəaliyyətə obyektiv qiymət vermək, əsas məqsədlərə nail olmaq üçün dəqiq proqnozlaşdırma aparmaqdır.

Təhsilin keyfiyyətinə nəzarət, ilk növbədə bilavasitə təhsil müəssisəsi tərəfindən təşkil edilir. Bu, «özünüqiymətləndirmə», yaxud «özünü-attestasiya» adlanır. Həmin məqsədlə təhsil müəssisəsi tərəfindən həyata keçirilən bütün tədbirlər, o cümlədən, keyfiyyət səviyyəsinin təhlili, keyfiyyətə zəmanət, keyfıyyətin idarə olunması və optimallaşdırılması və s. əməliyyatlar keyfiyyətin daxili monitorinqini təşkil edir. Yüksək təhsilli idarəetmə orqanı tərəfindən təhsilin nəticələrinin qiymətləndirilməsi üzrə həyata keçirilən tədbirlər isə keyfiyyətin xarici monitorinqi adlanır. Onun məqsədi təhsilin keyfiyyətinə daxili monitorinqin nəticələrinin obyektivliyini müəyyən etməkdir. Yəni xarici monitorinq vasitəsilə keyfiyyətin daxili qiymətləndirilməsinin mexanizmlərinə və nəticələrinə nəzarət edilir. Bu baxımdan müasir nəzarət mexanizmi kimi daxili monitorinqin geniş tətbiqi üzrə təlim-tərbiyə müəssisələrində əməli tədbirlər həyata keçirilməlidir.

## Ədəbiyyat


1. Mərdanov M.Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr. Bakı, “Təhsil”, 2001.

2. Mərdanov M.Müasir mərhələdə Azərbaycan təhsilinin inkişafı. Bakı, 2009.

3. Mehrabov A.Azərbaycan təhsilinin müasir problemləri. Bakı, 2007.

4. Mehrabov A. Təhsildə keyfiyyət, ona nəzarət və idarə olunmasının təşkili xüsusiyyətləri. Bakı, Təhsil Problemləri İnstitutu, “Elmi əsərlər” 2005, № 1.

5. H.Bayramov. Təhsili idarəetmənin əsasları. Bakı, “Beynəlxalq Universitet”, 2010.


## Перспективы управления образованием на современном этапе

### Резюме


В статье дан сравнительный анализ управления, его научно-практического значение, концептуальные направления на настоящем этапе ускоренного развития реформ образования, обобщенных и полученных на данном этапе навыков и научно-практических результатов.


## Educational perspectives of the management in the modern stage

### Summary


In artricle educational reform of directional management,its scientific and practical importance, conceptual directions have generalized, scientific practical results of experience have given comparative analysis.

# ZƏHMƏTLƏ YOĞRULMUŞ ÖMÜR



Təhsili millətin gələcəyi hesab edən ümummilli liderimiz H.Əliyev demişdir: "Mən dünyada müəllim adından böyük ad tanımıram.", "Hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir." Göründüyü kimi, müəllimlik peşəsi ən şərəfli peşədir. Bu peşənin ləyaqətli nümayəndələrindən biri də Mürvət müəllimdir.

Mürvət müəllim qırx üç ilə yaxındır ki, gənc nəslin təlim-tərbiyəsi ilə məşğuldur. O, bu peşəni ürəkdən sevir, onun sirlərinə yiyələnir, dövri mətbuatı daim izləyir, qəzet və jurnallardan, digər informasiya mənbələrindən təhsilə aid yenilikləri, qabaqcıl iş təcrübəsini öyrənir və öz işində tətbiq edir. Bu baxımdan Mürvət müəllimi novator müəllim adlandırmaq olar.

İşlədiyi müddətdə həmişə yüksək səviyyəli şagirdlər yetişdirmişdir. İşlədiyi məktəblərdən ali məktəblərə qəbul olunanların hamısı ibtidai siniflərdə Mürvət müəllimin dərs dediyi şagirdlərdir. Dərs dediyi şagirdlərdən iki nəfəri Türkiyədən ali təhsil alıb, dörd nəfər şagirdi hazırda onunla çiyin-çiyinə müəllim işləyir, bir neçə şagirdi ali təhsil alaraq öz rayonumuzda, Bakıda və Sumqayıtda müxtəlif sahələrdə uğurla çalışırlar. Mürvət müəllimin ən diqqətəlayiq cəhəti düzgün müəllim – şagird münasibətləri qurması, hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq onların qəlbinə yol tapması, onlarda təlimə yüksək səviyyədə maraq oyatmasıdır.

Təhsildə əsas mərhələ ibtidai təhsil pilləsidir. Sonrakı müvəffəqiyyətlər bu pillənin möhkəmliyindən, düzgün qoyulmasından asılıdır. Bunu dərk edən Mürvət müəllim şagirdlərin düzgün oxu və yazı vərdişlərinə yiyələnmələrinə, rabitəli nitqinin inkişafına, ətraf aləmi dərk etmələrinə, riyazi təfəkkürlərinin inkişafına, insanı düşündürən və zövq oxşayan rəsmlər çəkmələrinə, musiqi dinləmək, nəğmə oxumaq bacarığına yiyələnmələrinə maksimum səy göstərir. Bunun nəticəsidir ki, hazırda çalışdığı Sırıq kənd orta məktəbində istər müəllim və şagirdlərin, istərsə də kənd camaatının dərin hörmət və ehtiramını qazanmışdır.

Mürvət müəllim elmi-metodik axtarışlara meyilli insandır. O, dəfələrlə elmi-praktik konfranslarda təlimin bu günü və sabahı ilə bağlı məruzələrlə çıxış etmiş, dəyərli təkliflər irəli sürmüşdür. Müxtəlif elmi-metodik jurnallarda və qəzetlərdə onun diqqəti çəkən elmi-metodik məqalələri dərc olunmuşdur.

Mürvət müəllim Yardımlı RİH xəttilə, Təhsil şöbəsi xəttilə bir neçə dəfə "Fəxri fərman", hədiyyə və pul mükafatı almışdır.

Yaradıcı işinə, təlim texnologiyalarından səmərəli istifadə etdiyinə, şagirdlərin təlim-tərbiyəsi sahəsində müsbət nəticələrə çatdığına onun qabaqcıl iş təcrübəsi bəyənilmiş və rayonun ümumtəhsil məktəblərində yayılması məqsədəmüvafiq hesab edilmişdir.

Mürvət müəllimin uğurlarını nəzərə alan Azərbaycan KİVİHİ onun əməyini "Müəllim adını ucaldan alim düşüncəli sinif müəllimi kimi dəyərləndirmiş, onu "Şərəf" media diplomu ilə mükafatlandırmışdır.

"Təhsil problemləri" qəzetində Mürvət Yusifovun fəal iştirakını nəzərə alan redaksiya heyəti ona böyük etimad göstərərək qəzetlərinə müxbir təyin etmişdir.

"Xalqın gözü tərəzidir" deyiblər. Valideynlər onların etimadlarını doğrultduğuna görə Mürvət müəllimi çox sevirlər. Mürvət müəllimin işlədiyi Sırıq kəndindən ayrı-ayrı illərdə bir neçə dəfə valideynlər övladlarına I sinifdə Mürvət müəllimin dərs deməsini xahiş ediblər.

2004/2005-ci tədris ilində Mürvət müəllim IV sinifdə dərs deməli idi, lakin həmin tədris ilində I sinifdə oxuyacaq şagirdlərin valideynləri həm Sırıq kənd orta məktəbinin direktoruna, həm də TŞ-nin müdirinə müraciət edərək bildirdilər ki, I sinifdə Mürvət müəllim dərs deməlidir. Valideynlərin xahişi təmin olundu.

Təcrübə göstərir ki, pedaqoji prosesin düzgün qurulması müəllim – şagird münasibətlərindən çox asılıdır. Mürvət müəllim dərs dediyi şagirdlərin fərdi xüsusiyyətlərini, temperamentlərini öyrəndikdən sonra onların hər birinə necə və hansı cəhətdən yanaşacağını müəyyənləşdirir.

Mürvət müəllim yeni təlim texnologiyalarından, interaktiv təlim metodlarından istifadə etməklə fəal dərsə üstünlük verir.

Məktəbin ictimai işlərində şagirdləri ilə birlikdə, fəal iştirak edir.

Onun qazandığı uğurların əsas səbəblərindən biri də valideynlərlə daim əlaqə saxlaması, məsləhətləşməsidir. Bütün bunların nəticəsidir ki, dərs dediyi siniflərdə təlimin keyfiyyəti həmişə yüksək olur.

Deyirlər, toxum əlverişli şəraitə düşəndə cücərir. Bizə elə gəlir ki, bilik və bacarığını öz sevimli şagirdlərindən əsirgəməyən, körpə ürəklərə vətənpərvərlik, insanpərvərlik və xeyirxahlıq toxumu səpən, yüksək bilik və bacarığı ilə uşaq təfəkkürünü ziyalandıran Mürvət müəllimin əməyi hər cür qiymətləndirməyə layiqdir.

***Əliqüdrət Sadıqov,***
*Yardımlı RTŞ metodmərkəzinin metodisti.*

# ELMİ-METODİK NƏŞRLƏR




F. Bədəlbəyli, O.Rəcəbov, G.Abdullazadə, F.Hidayətova **Azərbaycan bəstəkarlarının uşaq mahnıları antologiyası,** III cild. Bakı, «Mütərcim», 2011.

Antologiyanın bu cildində şagirdlərdə musiqi vasitəsilə siyasi tərbiyənin məzmunu və imkanları şərh olunur. İbtidai siniflərdə Azərbaycanın dövlət atributlarına hörmət, Azərbaycan Ordusu və əsgərinə məhəbbət, vətənimizin ekologiyasınının, onun yeraltı, yerüstü sərvətlərinin qorunması məsələlərinin musiqi vasitəsilə təbliğ olunması imkanları nəzərdən keçirilir, mahnıların mətnləri, not yazıları təqdim olunur.

Xüsusi redaktor: N. Kazımov, əməkdar incəsənət xadimi, pedaqogika üzrə fəlsəfə doktoru. Elmi redaktor: pedaqoji elmlər doktorları, prof. Y. Kərimov, prof. A.Abbasov.




İ.Sultanova. **Psixologiyanın əsasları fənindən interaktiv elektron mühazirə mətnləri. Bakı, «Elm və təhsil»,** 2011.

Metodik vəsaitdə yeni təlim strategiyaları əsasında «Psixologiyanın əsasları» fənnindən 19 mövzuda mühazirə dərs nümunələrinin təqdimatları verilmişdir. Təqdimatların elektron variantı (disk) vəsaitə əlavə olunur. Vəsaitdən ali məktəblərin və kolleclərin tələbələri, magistrlar, psixoloq-pedaqoq aspirantlar, praktik psixoloqlar, məktəb rəhbərləri, həmçinin geniş oxucu kütləsi istifadə edə bilər.

Elmi redaktorları: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Ə. Abbasov, psixologiya üzrə fəlsəfə doktoru, dosent N. Rzayeva.




T.Sadıqova, Z.Əliyeva. **Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığı prosesində oyunlardan istifadə.** Bakı, «Adiloğlu», 2011.

Metodik vəsaitdə məktəbəqədər müəssisələrin kiçik, orta və böyük qruplarında ətraf aləmlə tanışlıq məşğələlərində keçirilən didaktik oyunlar, bu oyunlarda istifadə olunan saymaca və tapmacalar, düşündürücü tapşırıqlar verilmişdir.

Metodik vəsait məktəbəqədər tərbiyə müəssisələrinin tərbiyəçiləri, universitetlərin müvafiq fakültələrinin tələbələri, magistr və dissertantları, həmçinin valideynlər üçün nəzərdə tutulmuşdur.

Redaktor: pedaqoji elmlər doktoru, prof. Y.Kərimov

## UŞAQ YAZIÇISI GÜLZAR İBRAHİMOVA



Gülzar İbrahimova 2004 ildən Yazıçılar Birliyinin Üzvüdür. 7 il «Bala dili» uşaq jurnalının baş redaktoru vəzifəsində çalışıb. Hazırda «Sehirli dünya» adlı uşaq jurnalını çapa hazırlayır.

Uşaqları sevən onlar üçün yorulmadan yazan Gülzar İbrahimova onların dilini bilir. Elə məhz bu səbəbdən yazıçılıqla məşğul olduğu 10 il müddətində onun 30 adda kitabı 100 min tirajla çap edilib, kiçik oxuculara çatdırılıb.

Yazıçı uşaqlara maraqlı olsun deyə cavanlığında «Gülzar nənə» təxəllüsü götürüb. Bu ad altında uşaqlar üçün yazması uğurla nəticələnib. Axı uşaqlar nağılları nənələrdən eşidəndə onlar üçün daha əziz olur.

Yazıçı Gülzar İbrahimova tarixi hadisələri nağıllaşdırır ki, uşaqlar vaxtlarını maraqlı keçirməklə həm də tarixi öyrənsinlər.

G. İbrahimovanın ibtidai siniflər üçün «1001 nağıl» adı altında 10 cildlik kitabın 2 cildi çapdan çıxıb. 3-cü cild çapa hazırdır. Bu nağıl və hekayələr balalara vətənə məhəbbət, düşmənə nifrət, böyüklərə hörmət, kiçiklərə qayğı kimi mühüm hissləri dolayı yolla çatdırır.

### Dahilər müəllimin şəxsiyyəti haqqında

Tərbiyəçi tərbiyə etdiyi uşaqdan nə düzəltmək istəyirsə, özü də elə olmalıdır.

N.Q. Çernışevski

Müəllim o vaxt bədbəxt vəziyyətə düşür ki, uşaqlar onun əxlaqi ləyaqətinə şübhə ilə yanaşırlar.

N.A.Dobrolyubov

Tərbiyəçinin şəxsiyyəti nə qədər mühüm, böyük və müqəddəsdir: insan həyatının gələcəyi bütövlükdə onun əlindədir.

V.Q.Belinski

Tərbiyəçinin şəxsiyyətinin gənc qəlbə təsiri elə bir tərbiyəvi qüvvəyə malikdir ki, onu nə dərsliklər, nə əxlaqi nəsihət, nə də cəza və rəğbətləndirmə sistemi edə bilər.

K.D.Uşinski

Uşaqlar sizin iradənizi, mədəniyyətinizi, şəxsiyyətinizi hiss etməlidirlər.

A.S.Makarenko

Əgər zərgər qızılı xarab edərsə, onu əritmək olar. Əgər briliyant əzilərsə zay olar, lakin ən böyük birliyant bizim nəzərimizdə yenicə doğulmuş insandan qiymətli ola bilməz: insanın zay edilməsi isə çox böyük cinayətdir. Bu materialın üzərində ondan nə düzəltmək istədiyimizi əvvəlcədən müəyyənləşdirmək, dəqiq işləmək lazımdır.

A.V.Lunaçarski

## YAY TƏTİLİ TAPŞIRIQLARI










İbtidai sinflərdə təhsil islahatının müvəffəqiyyətlə həyata keçirilməsi üçün «dərin elmi axtarışlar aparan», canlarını balalarımızın yolunda «fəda edənlər» Avropa təhsil sisteminin təsiri altında daha bir «yenilik» meydana gətirməklə adlarını təhsil tariximizə daxil etdilər. Bu yenilik onların ibtidai siniflərin şagirdləri üçün fənlər üzrə yay tapşırığı kitabçasını çap etdirmələridir.

Həmin kitablardan bircə dənəsi ilə əlaqədar fikrimizi oxuculara yığcam şəkildə çatdırmağı lazım bildik: «Yay tətili tapşırıqları. Oxu və yaz. I sinfi bitirənlər üçün».

Kitabın müəllifi və nəşrə hazırlayan «Qələm MMC» nəşriyatının başçısı Hafiz Çingizoğludur. Rəyçi I dərəcəli pilot, texnika elmləri doktoru, prof. Rauf Cəfərzadə və fiologiya elmləri üzrə fəlsəfə doktoru, ədəbiyyatşünas «Qızıl qələm» mükafatı laureatı İslam Qəriblidir.

Kitabı belə nüfuz sahibləri ərsəyə gətirdiklərindən Azərbaycan Respublikası Təhsil Nazirliyinə müraciət olunub, qrifin alınması lazım bilinməmişdir.

Kitabın adını oxuyanda düşünürsən ki, yəqin onu yaradanlar aşağıdakı məqsədləri nəzərdə tutublar:

- uşaqların oxu texnikasını təkmilləşdirmək, hərf-hərf, hecalarla oxumağın qarşısını alıb, bütöv sözlərlə oxumalarını təmin etmək;
- onların rəvan, sürətlə, ifadəli və şüurlu oxumaq bacarıq və vərdişlərini inkişaf etdirmək;
- uşaqların təbiət və cəmiyyət haqqında yeni məlumatlara yiyələnmələrini təmin etmək;
- kalliqrafiya normalarını gözləməklə orfoqrafik cəhətdən düzgün və sürətlə yazmaq vərdişləri aşılamaq;

• onların lüğət ehtiyatını zənginləşdirmək, genişləndirmək, dəqiqləşdirmək və fəallaşdırmaq;
• dilimizlə əlaqədar ilkin qaydaları möhkəmləndirmək;
• şagirdlərin rabitəli nitqini inkişaf etdirmək və s.

Təəssüf ki, sadaladıqlarımızın bəziləri unudulmuş, bir qismi isə yarı-yarımçıq, səthi əhatə olunmuşdur.

Yayda bu vəsait üzrə işə valideynlər rəhbərlik edəcək, bəzi məsələləri yaxşı dərk etmədiklərindən bəzən uşaqların başına min bir oyun açacaqlar.

Kitabın üzündəki yazılar uşaqlara yanlış kalliqrafiya nümunəsi verir. Uşaqlar il boyu öyrəndikləri hərflərə oxşamayan yazılış forması ilə rastlaşırlar. Buna bəlkə də dözmək olardı, lakin «yaz» sözündə *z* hərfinin keçən əsrin 30-cu illərində olduğu kimi– *j* hərfi kimi verilməsi (z hərfinin ortasından xəttin çəkilməsi) şagirdlərdə müəllimlərinə şübhə yaradır. Deməli, yayda z hərfini «düzgün» yazmaq üzrə məşq etməlidirlər.

Kitabdakı iki müəllifsiz şeir diqqəti cəlb edir: «Kitab deyir» (səh 6), «Məktəbə qayıdış» (səh. 72). Başqa ölkədən gəlib, yenicə dilimizi öyrənmiş şəxs, yaxud kəmsavad azərbaycanlı belə «şeir» yazar. Şeirlərə nəzər salaq:

**KİTAB DEYİR**

Körpə-körpə balalarım,
Ən dəyərli varlıqlarım,
Səhifəm dolu bilgilərlə,
Sizi ürəkdən qucaqlaram.

Çox oxuyan çox bilir.
Çalışqanlar çox sevilir.
Kosmosdakı ulduzlara
Yüksək biliklə gedilir.

**MƏKTƏBƏ QAYIDIŞ**

Gəzdik, əyləndik, qaçdıq bütün yay.
Ah nə gözəldi dərələr, dağlar,
Yolduq, yedik alma, tut, gilas,
Ah nə şirindi bağçalar, bağlar,
Bu gün qayıtdıq yenə məktəbə
İndi doqquz ay çalış, oxu, yaz.

Yuxuya aid qondarma tapmaca da çox «ibrətamizdir»:
Bazardan alınmaz,
Dəsmala sarınmaz.
Ondan şirin şey olmaz. (səh.17)

Belə cəfəng ədəbi parçalar uşaqların zövqlərini korlayar. Ayıbdır, «şair», özünə müvafiq peşə axtar.

Kitabdakı tapşırıqlar, əsasən, tək şagirdə müraciətlə verilib. Belə də olmalıdır, lakin 6, 30, 51-ci səhifələrdəki tapşırıqlarda cəmə də müraciət olunur.

Müəllif kitabın 4, 5-ci səhifələrində təxminən eyni xarakterli iki çalışma verir. Çalışmalarda əlifba sırası ilə sözlər yazmaq tələb edilir. 5-ci səhifədəki tapşırığın 10-cu maddəsində *qarğa* sözü nümunə verilib. Əlifba sırasında 10-cu yeri *q* deyil, *ğ* hərfi tutur. *Ğ* hərfi ilə başlanan söz olmadığından həmin

yerdə (həmçinin *ı* hərfinə aid 13 –cü yerdə) xətt çəkilməli, həmin hərflərlə başlanan sözlərin olmaması bir daha şagirdlərə çatdırılmalı idi.

Kitabın 3-cü səhifəsində bizim üçün xarakterik olmayan qondarma tapşırıq verilir. Son zəngdən sonra evə gələn uşaq avropalı, dostu Billinin göndərdiyi məktubu oxuyur. Billinin dəvəti ilə ailə yığışıb təcili Disneyə uçur. Əhsən, uşaq I sinifdə fransız dilini öyrənib, orada özünə dost da tapıb.

Kitabdakı digər mətnlərin də bir qismi qeyri-elmi, mənasızdır. «Buludlar» mətnini oxuyan şagirdlər böyük «yeniliklərlə» tanış olurlar: «... Bir buludun içindəki su göllərdəki sudan çox olur. Su buxarı havadan yüngül olduğu üçün bulud yerə düşmür. Buludlar suyu damla-damla yer üzünə yağış kimi yağdırır». (səh.24)

«Atam mənə təyyarənin yüngül və sərt materiallardan hazırlandığını söylədi. Təyyarənin arxaya hərəkət etmədiyini atamdan öyrəndim. O, mənə təyyarənin xüsusi avtomabillərə qoşularaq arxaya hərəkət etdiyini göstərdi». (səh.38) Yeddiyaşlıların bunları bilmələri çox vacibdir?

«Rəssam» mətnində oxuyuruq. «Sinfimizə arıq, qəmgin bir oğlan gəldi. Atası Qarabağ müharibəsində şəhid olmuşdu. Çox oyunlarımıza qatılmazdı. Amma mən onunla yaxın dost oldum. Çox gözəl şəkillər çəkirdi... Aradan iyirmi beş il keçmişdi. Bir gün qəzetdə... oxudum. Bu, mənim keçmiş rəssam dostum idi». (səh.66)

Hörmətli müəllif, uşaqlar təxminən 1991-ci ildə görüşmüşlərsə, 2016-cı ildə 25 il tamam olacaq.

«Seçim» mətni də I sinfə aid deyil.

Mətnlərdən sonra verilmiş suallar düşünməyi tələb etmədiyindən uşaqlara heç şey vermir. Onlar cavabları sadəcə olaraq mətndən köçürürlər. Suallar düzgün qoyulmur: «Kitab üçün ən dəyərli varlıqlar kimlərdir?», «Kitab səhifələrində nələr var?» (səh.7) «Ayda nələr yoxdur?» «Ay nə vaxt gözlə görünür?» (səh.36) «Təyyarə nədən hazırlanır?» (səh.39) «Təyyarənin hissələrini yaz.» (səh.41) «Ac olanda nə ləzzətli olur?» (səh.50) və s.

Bəzən mənasız, məntiqsiz suallar verilir.

Yoldaşları Adilə nə etmək qərarına gəldilər?

a) Cəza  b) Kitab  c) Mükafat

Su nə edir?

Buludun içində nə qədər su vardır?

Buludlardan su yerə necə düşür? (səh.24)

Dərs ilinin ilk günü haqqında yazmaq tələb olunur. (səh.9)

Yük təyyarəsi gövdəsində yük avtomobili daşıyır. (səh.40) (Başqa şey daşımır?)

Heyvanları kim otarır? (səh.27) (şəkildə malqara)

a) çoban  b) qız  c) at. Bu uşaqları kütbeyin hesab etməkdir.

Uşaqları düşündürmək, onların lüğətini zənginləşdirmək üçün belə olmalıdır: *naxırçı, çoban, ilxıçı.*

Çobanın əlində tutduğu nədir? (səh.27)

a)çiçək b) çomaq c) daş

Bu sözlər *paya, çubuq, çomaq* şəklində verilməli idi.

Kitabda xeyli leksik nöqsanlara yol verilib.

Qızın ətrafındakı heyvanların adlarını yaz. (səh.27), (Qızın ətrafında quşlar da var).

«Tətil başladı» (səh.3) cümləsində *başladı* sözü *başlandı* şəklində verilməli idi.

«İnsanlar əməyi ilə yarananları göy rəngə boya» (səh.69) cümləsində *insanlar* sözü əvəzinə *insanların rəgə* sözü isə *rənglə* olmalıdır.

«Kosmosdakı ulduzlara necə gedilir?» (səh.7) «Şəklin adını söylə» (səh.25,53) «Qərənfil şəhid qanıdır». (səh.20) və onlarla başqa cümlələrə də baxmaq lazımdır.

Kitabda birincilər üçün xarakterik olmayan, sözlər işlənib: bilgilər (səh.6)

gedilir (səh.7), üzüldü (səh.22), cavablandır (səh. 24,36, 50, 58, 62, 66, 68, 70, 72 və s.), oyunlara qatılmazdı (səh.66), helikopter (səh.32 və s.)

Kitabda bəzi sözlər düz işlənməyib: *xəritə* sözü *şəkil* sözü ilə əvəz olunur.(səh. 13,14), ola idi (olaydı) sözü *olardı* şəklində gedib (səh.62)

Ədəbi tələffüz normalarının öyrədilməsinə həsr olunmuş çalışmada belə yanlış tələffüz nümunələri verilir: *sahər*, *şaher* və s. Heç yerdə belə tələffüzdən istifadə olunmur. *Balık* sözü isə işlənmir. Dialektlərdə *balığ, balıx* deyilir.

Kitabın 50 səhifəsində müəllif dönə-dönə tarlada fəhlələrin (?!) işlənməsindən söz açmaqla uşaqlarda yanlış təsəvvür yaradır.

Bəzi cümlələr yarımçıq və ya dolaşıqdır.

«2 mərtəbəli və hər mərtəbəsində 100-dən çox sərnişin səyahət edir». (səh.40) Göy qurşağından söz düşəndə deyilir: «Yağış damcılarının günəşin şüalarına dəyməsi ilə əmələ gəlir». (səh.58)

Cümlələrdə uzlaşma gözlənmir:

Tanıdığın Milli Qəhrəmanların adını yaz. (səh.15)

Şəklə bax və ölkəmizdəki çayların adını yaz. (səh.14)

Hissələrin adını və rəngini yaz. (səh.18)

Ət məhsullarının adını yaz. Taxıl məhsullarının adını yaz.

Tərəvəzlərin adını yaz. (səh.56) və s.

19-cu səhifədə oxuyuruq: «Sözləri uyğun yerlərə yaz». *Yerlərə* sözü əvəzinə *sütuna* sözü olmalıdır. Sözlərin siyahısındakı *lövhə* sözü idarə, müəssisə adlarının yazıldığı varlıq olduğundan onu nə məktəb, nə də ev sütununa yazmaq olar. Oyuncaq isə ikisinə də aiddir.

Kitabda şagirdləri savadsızlığa sürükləyən orfoqrafik səhvlər var:

8-ci səhifədə ləcəklərdə yaddan çıxmış hərflərin yazılması tələb olunarkən *cor-b, tən-əl* və s. sözlər verilir. Bu sözlər belə verilməli idi: *cora-, tə-bəl.* Məqsəd şagirdlərin həmin sözləri *corap, təmbəl* kimi yazmalarına yol verməmək olmalıdır.

Vəsaitdə *avropalı*, (səh.3) *sevili* (səh.7) dənizin (səh.13) *şəhərimiz, parkımız, kəndimiz* (səh.26) və s. sözlər böyük hərflə verilib. *Şəhərciynə* (səh.3), *cox* (səh.7), *təbaşir* (səh.19), *yanğın söndürən* (səh.33,34- ayrı verilib.), *sırayla* (səh,58, - sıra ilə olmalıdır.). Bir necə yerdə cümlə *cünki, amma* bağlayıcıları ilə başlanır. (50,54,66). Cümlə kiçik həriflə başlanır. «tez yatıb, tez duracağam» (səh.16). 60 səhifdə *qa* hecası söz hesab edilir.

*Vertolyot* sözünü *helikopter* sözü ilə əvəz edən müəllif onun quruluşunun öyrənilməsinə, ondan istifadə olunmasına 4 səhifə, həmçinin təyyarə ilə tanışlığa 4 səhifə həsr etmişdir. Kitabın rəyçisi pedaqoq, psixoloq deyil, birinci dərəcəli pilot, texnika elmləri doktoru olduğundan kitabın 10 faizindən çoxu hava nəqliyyatına həsr edilib. Buna ehtiyac varmı?

Çoxlu durğu işarəsi səhvlərinə yol verilmişdir.

Kitabın Azərbaycan dilinin normalarından azacıq xəbəri olan adama redaktəyə verilməsi bəlkə də belə səhfləri azaldardı.

Vəsaitin axırıncı səhifəsində müəllifin dediyinə görə «Azərbaycanda ilk dəfə Danışan Sehirli Əlifba» verilib. Görəsən, müəllif nə üçün bunu böyük kəşf hesab edir? Belə əlifba illərdən bəri dəfələrlə dərsliklə və ya cədvəl şəklində verilib. Heç olmasa 2008-ci ildə nəşr olunmuş dərsliyin cildinin axrıncı səhifəsinə baxmaq kifayət idi. Müəllif heç olmasa sərlövhədə yersiz böyük hərflərdən istifadə etməli idi. Şəkilli əlifbada B hərfi bəbir, Ş hərfi şaftalı, Ü hərfi üzgüçü, Y hərfi yağış, Z hərfi zəfəran şəkilləri ilə təqdim olunur. Uşaqlar üzgüçü və zəfəranı tanıya bilməzlər. Həmin şəkilləri bayraq, şir, üzüm, yumurta, zurna şəkilləri ilə də əvəz etmək olardı. Vaxtilə verilmiş şəkilli əlifbalarda B, Ş, Ü, Y, Z hərfləri müvafiq olaraq balıq, şam, üzük, yemiş, zəng şəkilləri ilə təqdim olunub. Müəllifin ixtirasında *ç* hərfinin əl yazısı *c* şəklində, *i* hərfininki isə *ı* şəklində verilib. Yaxşı ki, kitabın üz qabığından fərqli olaraq şəkilli əlifbada *z* hərfi düzgün təqdim olunur.

Kitabın bədii tərtibatı, əsasən, yaxşıdır, lakin bəzi səhvlərə yol verilmişdir. Kitabın cildinin ikinci səhifəsində verilənlər üçüncü səhifədə eynilə təkrarlanır. 17-ci səhifədə qız əvəzinə oğlan şəkli verilmiş, 18-ci səhifədə ağacın gövdəsi oxla fərqləndirilməmiş, 26-cı səhifədəki süjetli şəklin hansı fəsli əks etdirdiyi bəlli deyil, göy qurşağını təşkil edən rəngləri sıra ilə yazmağın tələb olunduğu 58-ci səhifədə onun rəngləri görünmür.

Bu yığcam qeydlər ona görədir ki, təhsilimizə kömək etmək üçün deyil, biznes məqsədilə kitabı ərsəyə gətirənlər gələcək seriyalar üzərində işləyərkən hər şeyə mütəxəssis gözü ilə baxmağın nə demək olduğunu öyrənsinlər.